AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**TOFİQ MUSTAFAZADƏ**

# DƏRBƏND

## XVIII - XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

BAKI - 2023

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

Elmi redaktor: **Kərim Şükürov**
tarix elmlər doktoru, professor

İxtisas redaktoru: **Tofiq Nəcəfli**
tarix elmlər doktoru, dosent

Rəyçilər: **İradə Məmmədli**
tarix üzrə fəlsəfə doktoru, dosent,

**Gültəkin Nəcəfli**
tarix üzrə fəlsəfə doktoru, dosent

Mustafazadə Tofiq. Dərbənd: XVIII-XIX əsrin əvvəllərində. Bakı, "Nəşriyyat" şöbəsi, 2023. – 150 s

Kitabda arxiv sənədləri və tarixi mənbələr əsasında qədim Azərbaycan şəhəri Dərbəndin XVIII-XIX əsrin əvvəllərində sosial-iqtisadi vəziyyəti, ictimai-siyasi tarixi araşdırılır. Əsərdə XVIII əsrin əvvəllərinədək şahın təyin etdiyi hakimin sultanlıq kimi idarə etdiyi Dərbəndin 1722 – 1735-ci illərdə çar Rusiyası tərəfindən işğalı dövründəki vəziyyəti, 1747-1759-cu və 1796-1803-cü illərdə mövcud olmuş Dərbənd xanlığının, habelə Dərbəndin Quba xanlığının tərkibindəki dövrdə (1759-1796, 1803-1806) vəziyyəti işıqlandırılır.

Kitabdan tarixçi alimlər, ali məktəb tələbələri və tarixlə maraqlananlar faydalana bilərlər.

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2023

# GİRİŞ

Dərbənd Azərbaycanın qədim şəhərlərindən biridir. 1806-cı ildə Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra bu şəhərə başqa millət və xalqların nümayəndələrini köçürüb məskunlaşdırmaq, azərbaycanlıların isə sayını azaltmaq istiqamətində məqsədyönlü tədbirlər görülmüşdür. Bu gün Dərbənd şəhəri Rusiya Federasiyasının tərkibindədir və Azərbaycandan ayrı düşmüşdür. Lakin Dərbəndin Azərbaycan tarixiində dərin izlər qoyduğunu, köklü dərbəndlilərin həmişə Azərbaycanla təmaslara ehtiyac duyduğunu nəzərə almaq zəruridir. Buna görə də Dərbənd şəhərinin tarixinin tədqiqi böyük siyasi və elmi aktuallığa malikdir.

Həm keçmişdə, həm də günümüzdə Dərbənd şəhərnin tarixi üzrə xeyli tədqiqat işləri görülmüşdür.

Keçmişdə yazılmış əsərlərdən danışarkən ilk növbədə E.İ.Kozubskinin məlum əsərini qeyd etmək lazımdır.[1] Dərbəndin Rusiya tərəfindən işğalının 100 illiyinə həsr olunmuş bu əsərdə şəhərin tarixi ən qədim dövrlərdən başlayaraq XX əsrin əvvəllərinədək zaman kəsiyində təsvir olunmuşdur. V. Minorskinin əsərində[2] Dərbəndin orta əsrlər tarixi əks olunmuşdur. V.Bartold da Dərbənd tarixinə məqalələr həsr etmişdir.[3] B. Dorn isə rusların Dərbəndə basqınları haqqında məlumat verir.[4]

---

[1] Евгений Козубский.История города Дербента.Темирхан-Шура,1906.

[2] Владимир Минорский.История Ширвана и Дербента.Москва:1963.

[3]Василий Бартольд.Дербент.Собрание сочинений. Т.3, Москва: Наука, сс.418-427.

[4] Борис Дорн. О походах русских в Табасаран, с дополнительными сведениями о других набегах их на побережья Каспийского моря. СПб.:1875.

Sovet dövründə Dərbənd tarixinə həsr olunmuş əsərlərdən danışarkən ilk növbədə A.N.Kajlayevin,[1] A.A.Kudryavtsevin[2], N.A.Maqomedovun[3] əsərlərini və A.Kudryavtsevin A.Şıxsəidovla birgə yazdıqları əsəri [4] qeyd etmək lazımdır. Burada Nazim Maqomedovun Dərbənd xanlığına həsr olunmuş kitabı haqqında ayrıca danışmaq gərəkdir. Müəllif ilk mənbələr əsasında XVIII-XIX əsrin birinci yarısında Dərbənddə və ətraf bölgədə siyasi vəziyyəti və şəhərin iqtisadi inkişafını tədqiq etmişdir. Eyni zamanda N.Maqomedovun qubalı Fətəli xanın və onun oğlu Şeyxəli xanın dövründə Dərbənd xanlığının mövcudluğunu saxlaması fikri ilə razılaşmaq çətindir. Məsələ burasındadır ki,1759 (və ya N.A.Maqomedovun yazdığı kimi 1760-cı ildə) Fətəli xanın Dərbəndi fəth edib iqamətgahını ora köçürməsi heç də Dərbəndin müstəqil xanlıq kimi saxlanması deyildi. Ən yaxşı halda buna Quba-Dərbənd xanlığı demək olar. Tarixi reallığı inkar edən N.Maqomedov Quba xanlığının siyasi tarixini Dərbənd xanlığının siyasi tarixi kimi təsvir edir.

---

[1]Али Кажлаев. Возникновение и экономическое развитие Дербента. Махачкала: Даг.кн.изд., 1972; Yenə onun. Дербент-город музей. Махачкала: Даг.кн.изд.,1965.

[2] Александр Кудрявцев. Древний Дербент. Москва: Наука,1982; Yenə onun. Дербенту-5000 лет. Москва: Советская Россия,1989; yenə onun. Великий город на Каспии. Дербент в эпоху феодализма. Махачкала: Даг.кн.изд.,1982; yenə onun. Город не подвластный векам. Махачкала: Даг.книжн.изд.,1976

[3] Назим Магомедов. Экономическое развитие Дербентского ханства в XVIII в. (Ремесло, торговля, налого-финансовая система). АКД, Нальчик, 1985; yenə onun. Дербент и Дербентское владение в XVIII- первой XIX половине вв. (Политическое и экономическое развитие). Махачкала: 1998(248 с.)

[4] Александр Кудрявцев, Амри Шихсаидов. Опыт периодизации экономического развития средневекового Дербента. Товарно-денежные отношения на Ближнем и Среднем Востоке в эпоху средневековья. Москва:1979.

Sovet dövründə bütövlükdə Dağıstan tarixinə dair bir sıra əsərlərdə[1] Dərbənd tarixinə də bu və ya digər dərəcədə toxunulmuşdur.

Sovet hakimiyyəti illərində Azərbaycanda Dərbənd tarixinə ayrıca tədqiqatlar həsr olunmamışdır. Bu da başa düşüləndir. Dərbənd XIX əsrdə Azərbaycandan ayrılıb 1860-cı ildə yaradılmış Dağıstan vilayətinin tərkibinə verildiyindən belə hesab olunurdu ki, Azərbaycanda bu şəhərin tarixinin tədqiqinə ehtiyac yoxdur. Yalnız ümumiləşdirilmiş əsərlərdə və ya Azərbaycan tarixinin bu və ya digər məsələlərinə həsr olunmuş əsərlərdə[2] az və ya çox dərəcədə Dərbəndin tarixinə toxunulmuşdur. O cümlədən Həsi Abdullayevin Quba xanlığının tarixinə və XVIII əsrdə Rusiya-Azərbaycan münasibətlərinə həsr etdiyi əsərlərində[3] XVIII əsrdə Dərbəndin ictimai-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər, hadisələr öz əksini tapmışdır.

---

[1] Владилен Гаджиев. Роль России в истории Дагестана. Москва: Наука, 1965; Хидир Рамазанов. Колониальная политика царизма в Дагестане в первой половине XIX в. Махачкала,1956; Хидир Рамазанов, Амри Шихсаидов. Очерки истории Южного Дагестана (С древнейших времен до нач. XXвека) Махачкала: Даг.ФАН СССР, 1964; Хаджи-Мурад Хашаев. Общественный строй Дагестана в XIX веке. Москва: Изд..АН СССР,1961; Амри Шихсаидов. Дагестан в X-XIV вв. (Опыт социально-экономической характеристики). Махачкала: Даг.книжн изд.,1976.

[2] Вадим Левиатов. Очерки из истории Азербайджана в XVIII веке. Баку,1948; Гаси Абдуллаев. Азербайджан в XVIII веке и взаимотношения его с Россией. Баку: Изд.АН Азерб.ССР,1965; yenə onun. Из истории Северо-восточного Азербайджана в 50-80-е гг. Баку:1958; Фуад Алиев. Антииранские выступления и борьба против турецкой оккупации в первой половине XVIII века. Баку: “Элм”,1975; Асиф Абдурахманов. Азербайджан во взаимотношениях России, Турции и Ирана в первой половинеXVIII века. Баку: Изд.АН Азерб.ССР, 1964.

[3] Гаси Абдуллаев.Из истории Северо-Восточного Азербайджана в60-80-е годы века. Баку: Изд.АН Азерб.ССР, 1958; Его же.Азербайджан в веке и взаимотношеня его с Россией. Баку: Изд.АН Азерб.ССР,1965

SSRİ dağıldıqdan sonrakı dövrdə də hələ Dərbənd tarixinin tədqiqinə Dağıstanda daha çox əhəmiyyət verildiyi nəzərə çarpır. Burada Dərbənd tarixinə həsr edilmiş bir çox yeni əsərlər nəşr olunmuşur. Bunlardan S.A.Sultanovun[1], H.Hüseynovun[2], A.K.Kərimovun[3], A.A.Kudryavtsevin[4] və N.A.Məhəmmədovun[5] əsərlərini xüsusilə qeyd etmək lazımdır. Lakin bu da bir həqiqətdir ki, Rusiya və Dağıstan tarixçiləri Dərbənd şəhərinin tarixini tədqiq edərkən tarixi obyektivliyi unudaraq bu şəhəri heç vaxt Azərbaycan şəhəri adlandırmır, onun tarixini Dağıstan tarixi çərçivəsində təqdim edirlər.

Yeri gəlmişkən mövzudan bir qədər kənara çıxmaq istərdim.Bəzi dağıstanlı yazarlar nəinki Dərbəndin, hətta bütün Quba-Xaçmaz bölgəsinin Azərbaycana deyil, Dağıstana aid olduğunu iddia edirlər. Məsələn, Dağıstan Respublikasının çox nüfuzlu nəşri REA Dağıstan Elmi Mərkəzinin orqanı olan "Qafqazın tarixi, arxeologiyası və etnoqrafiyası" dərgisində yayımlanmış bir məqalədə B.Eskenderov adlı bir "müstəqil tədqiqatçı" A.A.Bakıxanov, A.Berje kimi korifeyləri və onların dediklərini təsdiqləyən onlarla, bəlkə də yüzlərlə tarixçini guya

---

[1] Сафтар Султанов. Дербент: история возникновения и развития. Дербент.изд. Типография, №3,2003;

[2] Гусейнбала Гусейнов. Краткая энциклопедия Дербента.Махачкала: Юпитер,2005

[3] Абусаид Керимов.Мой город Дербент.Москва:Прозержина,1994.

[4] Александр Кудрявцев.Мусульманский город Дагестана. Сложение Дербента в домонгольский период. Махачкала: 1994; Yenə onun. Феодальный Дербент:Пути закономерностей развития города в VI - середине XIII в.Москва:Наука,1995.

[5] Назим Магомедов. Дербент и Дербентское владение в XVIII –первой половине XIX вв. (Политическое и экономическое развитие). Махачкала: 1998; Его же. Взаимоотношения народов Южного Дагестана и Азербайджана XVIII-в первой половине XIX в. (экономический, политический и культурные аспекты). Махачкала: Эпоха,2004

Quba xanlarının mənşəyini "düzgün təqdim etməməkdə" ittiham edir. Hansısa Quba sakininin şifahi danışığına istinad edən bu şəxs "böyük inqilabi çevriliş edərək" Quba xanlığında bir yox, iki sülalənin idarə etdiyini, həm də XVIII əsrin əvvəlində II Sultan Əhməd xandan başlayan ikinci sülalənin ləzgi (Qaytaq yox,məhz ləzgi) mənşəli olduğunu "sübuta yetirir".[1]

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə itirilmiş torpaqların, o cümlədən Dərbəndin tarixinə maraq artır. Doğrudur, bəzən səthi yazılmış əsərlər meydana çıxır. Məsələn, Firidun Əsədovun həcmi bir məqalə boyda olan və heç bir yeni faktiki material vermədiyi "Dərbənd xanlığı"[2] kitabcığazı kimi. Həm də əsərin böyük hissəsi Dərbəndin xanlıqdan əvvəlki tarixinə ekskurs səciyyəsi daşıyır. Bu hissə cəmi 7-8 mənbə və ədəbiyyat əsasında (başlıca olaraq H.Abdullayevin məlum əsərindən götürülməklə) yazılmış, elmi istinadlarda ciddi nöqsanlar var. Məsələn, 77 və bir neçə sonrakı səhifədə Rusiya İmperiyasının Xarici Siyasəti Arxivinin 6-cı qovluğuna istinad olunur və bu zaman bilinmir ki, söhbət hansı fonddan və bu fondun hansı siyahısından gedir. Ümumiyyətlə, əsər sadəcə bir publisistik məqalə təsiri bağışlayır. Həm də müəllif heç bir mənbəyə əsaslanmadan tarixi sənədlərdə və bütün ciddi elmi ədəbiyyatda mövcud olan fikrin əksinə olaraq guya dərbəndli Məhəmməd Hüseyn xanın könüllü surətdə hakimiyyəti Fətəli xan Qubalıya verdiyini iddia edir.[3]

Bütövlükdə isə müstəqillik dövründə Dərbənd tarixinin öyrənilməsi yolunda bir sıra ciddi addımların atıldığını qeyd

---

[1] Бедирхан Эскендеров. Происхождение кубинских ханов: новая версия. История, археология и этнография Кавказа.Т.15.№2.2019,сс.132-135

[2] Firidun Əsədov.Dərbənd xanlığı (tarixi oçerk).Baki,2004.

[3] Yenə orada,s.70-71.

etmək lazımdır. Sevinc Rəhimova Dərbəndin XII-XV əsrlər tarixinə, Orxan Nəzərəliyev isə Dərbənd xanlığının tarixinə tarix üzrə fəlsəfə doktorluğu dissertasiyası həsr etmişlər.[1] Asəf Hacıyevin əsərində[2] isə Dərbəndin Rusiya işğalından sonra şəhər əhalisinin say dinamikası, tərkibi, demoqrafik proseslər və miqrasiya məsələləri tədqiq edilmiş, həmçinin əhalinin sosial-iqtisadi xarakteristikası verilmişdir. 2022-ci iln əvvəllərində Mahirə Əzizova "Dərbəndin XIX əsr tarixi Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında" adlı tarix üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. Bir sıra digər əsərlərdə, o cümlədən Sevinc Əliyevanın "Azərbaycan və Şimali Qafqaz xalqları" adlı kitabında Dərbənd tarixi və onun əlaqələri haqqında məlumat verilmişdir.[3]

Dərbənd tarixinə aid mənbələrdən danışarkən ilk növbədə "Dərbəndnamə" orta əsr kompilyativ mənbəyinin adını çəkirlər. Hələ 1722-ci ilin avqustunda Rusiya çarı I Pyotr Dərbəndə daxil olarkən, o zaman şəhəri idarə edən yüzbaşı İmamqulu bəy bu əsərin Azərbaycan türkcəsində yazılmış əlyazma nüsxəsini ona təqdim etmişdi, iki il sonra isə Pyotrun xidmətində olan Moldav hökmdarı Dmitri Kantemir bu əsəri rus dilinə tərcümə etmişdi. Sonralar məşhur Azərbaycan mütəfəkkiri və tarixçisi A.A.Bakıxanov da həmin əsərin Azərbacan dilində olan digər əlyazma nüsxəsini rus dilinə çevirmişdi. Lakin bu tərcümənin

---

[1]Sevinc Rəhimova. Dərbənd şəhəri XII-XV əsrlərdə.Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2012 (161 s.); Орхан Назаралиев. Дербентское ханство. Диссертация представленння для получения ученой степени доктора философии по историид. Баку: 2014 (173 с.)

[2] Asəf Hacıyev.Dərbənd XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat).Bakı-2017.

[3] Севиндж Алиева. Азербайджан и народы Северного Кавказа (XVIII - начало XXI вв.). Баку:2010

yalnız iki hissəsi "Tiflisskiye vedomosti" qəzetinin 44-45-ci saylarında nəşr olunmuşdur.[1]

Son illərin tədqiqatları "Dərbəndnamə" əsərinin müəllifinin Dərbənd hakimlərinin saray tarixçisi Yusif əl-Babi (1089-cu ildə ölmüşdür) olduğunu göstərir.[2]

"Dərbəndnamə" salnaməsi Azərbaycanın Dərbənd və Şirvan bölgələrində, habelə Dağıstanda baş vermiş müxtəlif, bir-birləri ilə bağlı olmayan hadisələr haqqında hekayətlərdən ibarətdir. V əsrdən XI əsrin ortalarına qədər olan dövrü əhatə edir.

Bir sıra digər orta əsr ərəb tarixiləri, coğrafşünas səyyahlarının əsərlərində Dərbəndin orta əsrlər tarixinə dair qiymətli məlumatlar var.

Dərbəndin XVIII-XIX əsrlər tarixini tədqiq edərkən ilk növbədə Rusiya Federasiyasının Rusiya İmperiyasının Xarici Siyasəti, Rusiya Qədim Aktlar Dövlət Arxivi, Rusiya Dövlət Hərbi-Tarix Arxivi, Rusiya Dövlət Tarix Arxivi və Həştərxan Dövlət Vilayətinə müraciət etmək lazımdır.

XIX əsrdə Adolf Berjenin başçılığı ilə toplanmış və nəşr olunmuş Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarlnda da Dərbəndin örəndiyimiz dövr tarixinə dair çox qiymətli fakt və məlumatlar vardır.

---

[1] Гусейнбала Гусейнов. Энциклопедия города Дербента. Москва:2009, сс.161-162

[2] Yenə orada,s.164

# I FƏSİL
# DƏRBƏND XVIII ƏSRİN I YARISINDA

## I .1. Dərbəndin XVIII əsrə qədərki tarixinə ümumi baxış

Dərbənd şəhəri çox zəngin və qeyri-adi tarixə malikdir. Lap qədim zamanlarda yaranıb bu günə qədər mövcud olan bu şəhər təlatümlü dövrlər yaşasa, əldən-ələ keçsə də öz görkəmini dəyişməmiş, özünəməxsusluğunu saxlamışdır. Dərbənd uzun əsrlər ərzində Azərbaycanın və ümumiyyətlə Qafqazın, Yaxın Şərqin, Cənub-Şərqi Avropa xalqlarının tarixində böyük rol oynamışdır. Bu, Dərbəndin Qafqaz bərzəxində tutduğu mütəsna mövqedən, şimalla cənubu, şərqlə qərbi birləşdirən yolların qovşaq məntəqəsi olmasından irəli gəlmişdir. Dərbənd qalası Calqan dağının şərq yamacında, dərin yarğanın kənarında salınmışdır. Tarixi ədəbiyyatda olan fikrə görə, "Dərbənd" adı yazılı ədəbiyyatda ilk dəfə VII-VIII əsrlərdə yazıldığı ehtimal edilən Anani Şiraklının "Coğrafiya" əsərində keçir.[1] Dərbəndin əsasının Makedoniyalı İskəndər tərəfindən qoyulması haqqında əfsanə geniş yayılmışdır. Guya İskəndərin inşa etdirdiyi divar qərbə sarı çox-demək olar ki, Qara dənizə qədər uzanırmış.[2]

Azərbaycanın lap şimalında yerləşən və minilliklər ərzində ölkəmizin giriş qapısı sayılan Dərbənd həm də ən qədim şəhərlərimizdən biridir. Arxeoloji qazıntılar eradan əvvəl IV minilliyin sonu-III minilliyin əvvəllərində Dərbənd təpələrində qədim yaşayış məskəninin olduğunu göstərir.[3] O zaman yaranmış

---

[1] Bax:Александр Кудрявцев. Город, не подвластный векам. Махачкала: 1976, с.11.

[2] Александр Кудрявцев, s.6; Али Кажлаев. Возникновение и экономические развитие Дербента. Махачкала: Даг.книжн.изд-во, 1972, с.7

[3] Сафтар Султанов. Дербент: История возникновения и развития Дербента. Изд.Типогафия,№3,сс.25-26.

yaşayış məskəni indiki şəhərin yuxarı ərazisinin bir hissəsini təşkil etmişdir. Qədim insanlar ərazinin müdafiə imkanlarını dəyərləndirmiş, üstəlik təpənin kənarlarını ovaraq daha dik görkəm vermişdilər.[1]

Bir sıra əsərlərdə artıq m.ö. VIII-VI əsrlərdə böyük strateji əhəmiyyətə malik Dərbənddə müdafiə istehkamlarının olduğu qeyd edilir.[2] Dərbənddən 25 km cənubda Çoqa (Çol, Çor) adlı şəhər də vardı və həmin şəhərin xarabalıqları Torpaqqala adı ilə tanınır. Eramızın əvvəllərində bu şəhər Massaget çarlığının paytaxtı idi. V-VI əsrin ortalarında Dərbənd Qafqazda xristianlığın mərkəzlərindən biri idi və burada katolikosun iqamətgahı vardı. VI əsrin ortalarında xəzərlərin hücumları ilə əlaqədar katolikosun iqamətgahı Bərdəyə köçürülmüşdür. Sonralar Dərbəndin möhkəmləndirilməsi və əhəmiyyətinin artması ilə əlaqədar Çoqa tənəzzülə uğramışdır.[3]

Dərbənd qalasından qərbə "Qafqaz", yaxud "Dağ divarı" (Dağbarı) adlanan bütöv istehkamlar sistemi uzanırdı. Bu sistemin ümumi uzunluğu 40 km-dən çox idi.[4] Dərbənd keçidi və keçiddə inşa olunmuş isehkam ərəb mənbələrində "Bab-əl-Əbvab" (Baş qapılar), "Bab-əl-Hadid" (Dəmir qapılar), "Bab-Alban", yaxud "Səddi-Alban" (Alban qapıları), yerli və qonşu əhalinin dillərində "Çullu", "Çola", "Çora", farsca "Dərbənd" (dər-qapı, bənd maneə deməkdir) adlanırdı.[5] Şəhərin "Darbənd" (yəni dar keçid) adlandırılması da məntiqə uyğun gəlir.

---

[1] Александр Кудрявцев.Древний Дербент. Москва: Наука, 1982, с.30.
[2]История Дагестана, т.1, Москва, 1967, с.121; Александр Кудрявцев. Город не подвластный векам., сс.136-137.
[3] Сара Ашурбейли. Государство Ширваншахов (VI-XVI вв.) Баку: Элм, 1983, с.40.
[4] Али Кажлаев.Возникновение и экономическое развитие Дербента.с.3
[5] Yenə orada,s.6.

Dərbəndin nisbətən qədim adlarından biri olan "Kaspi qapıları" haqqında ilk xatırlama miladdan öncə IV əsrdə yaşamış Miletli Hekateyin əsərində var.[1]

Arxeoloji qazıntılar Dərbənd şəhərinin yerində hələ miladdan öncə VIII-VII əsrlərdə ilk istehkamlar inşa olunduğunu göstərir.[2] Miladın I-II əsrlərində bir sıra Roma tarixçiləri və coğrafşünasları "Kaspi istehkamları" ifadəsini işlədirlər.[3] Arxeoloji tapıntılar bu dövrdə Dərbənd şəhəri ərazisində yonulmuş və yonulmamış daşlardan inşa olunmuş çoxotaqlı memarlıq komplekslərinin olduğunu göstərir.[4] Bu dövrdə Dərbənd müdafə məntəqəsi kimi qalmaqla yanaşı həm də şəhərə çevrilir.

Dərbəndin daxil olduğu Albaniya dövlətinin çiçəklənməsi bu şəhərə də təsir etməyə bilməzdi. Dərbənd qəsrində aparılmış arxeoloji qazıntılar zamanı eramızın I-III əsrlərində yonulmuş və yonulmamış daşdan tikilmiş çoxotaqlı memarlıq kompleksləri aşkar edilmişdir.[5] Bu dövrdə Dərbənd qaladan şəhər-qalaya çevriir.

Bizim eranın ilk əsrlərində sarmat-massaget-alan tayfaları Dərbənd keçidi vasitəsilə Xəzərsahili vilayətlərə daxil olaraq bu və digər ərazilərə yayılmışlar. Ehtimal ki, Dərbənddən cənubda yerləşən Çora (Çola) keçidinin adını skif-sarmat dil materiallarının köməyi ilə izah etmək olar.

Dərbənd şəhəri bir növ siyasi-inzibati, iqtisadi və mədəni mərkəz rolunu oynayırdı. Dərbənd şəhəri bir şəhər kimi Albaniya hökmdarları və Sasani şahənşahlarının hərbi-siyasi dayağı və

[1] Bax:Александр Кудрявцев.Древний Дербент..,с.25.
[2] Yenə orada,s.33.
[3] Yenə orada,s.53.
[4] Yenə orada,s.59.
[5] Yenə orada,s.62.

strateji məntəqəsi kimi formalaşmış, sonradan isə inkişaf edərək sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi.

III əsrin ortalarında Sasani hökmdarı I Şapur (242-272) Dərbəndə hücum edərək buradakı istehkamları dağıtmışdı.[1] 299-cu ildə Sasanilər Roma ilə əlverişsiz sülh müqaviləsi bağladıqdan sonra Cənubi Qafqaza təsirləri itir. Lakin IV əsrin ortalarından sasanilərin bu bölgədə yenidən fəallaşırlar. Həmin vaxtda həm də şimaldan hunların təzyiqi artır. İki böyük qüvvənin bölgəni öz hakimiyyəti altına almaq uğrunda mübarizəsi Dərbənd keçidinin möhkəmləndirilməsini tələb edirdi. Sasanilər hunların qarşısını almaq üşün Xəzərin qərb sahilində bir-birinə paralel üç sədd inşa edirlər. İlk əvvəl inşa edilən Beşbarmaq səddi eyni adlı dağdan başlayıb dənizə qədər 1,75 km məsafədə uzanırdı. Bu sədd bir-birindən 220 m aralı olmaqla palçıqdan inşa olunmuş iki divardan ibarət idi. Səddin lap yuxarısında dağın başında daşdan qala inşa olunmuşdu.[2]

Sasanilər şimala doğru irəlilədikcə Şabran (Gilgilçay), sonra isə Dərbənd səddini inşa etmişlər.[3] Şabran səddi Gilcilçayın mənsəbindən 5 km şimalda başlayaraq çayın dar dərədən düzənliyə çıxdığı yerdə 30 km uzanaraq Çıraqqala qalasınadək uzanır. Bu səddin 20 kilometri (Qalaboynuna qədər) 42+42+12 sm ölçüdə olan çiy kərpicdən tikilmişdir. Divarın eni 8 m-ə çatır.[4]

Dərbəndin şəhər kimi yaranması haqqında isə çox müxtəlif mülahizələr var. XIX əsrdə yaşamış dərbəndli alim

---

[1] Александр Кудрявцев. Древний Дербент, с.67.

[2] Евгений Пахомов.Крупнейшие памятники сасанидского строительства в Закавказье.ПИМК,1933,с.43

[3] Yenə orada

[4] Камилла Тревер.Очерки по истории и культуре Кавказской Албании. М -Л: 1959, с.271.

Mirzə Heydər Vəzirovun "Dərbəndnamə" adlı tarixi salnaməsində Dərbəndin ən qədim hissəsi olan Narınqalanın xəzərlərin hücumlarının qarşısını almaq üçün İranın mifik hökmdarı Lehrasp tərəfindən tikildiyi yazılır.[1]

Erkən orta əsr müəlliflərinin çoxusu Dərbənd şəhəri və istehkamlarının tikintisini sasani şahənşahları II Yezdigerd (442-459-cu illər) və I Xosrov Ənuşirəvanın (531-579) adı ilə bağlayırlar. İlk vaxtlarda Dərbənd təpədə yerləşən "Narınqala" adlı qəsrdən və ondan aşağıda, dənizə tərəf və bir qədər dənizin içərisinə gedən daş hasarlardan ibarət olmuşdur. [2] Bu hasarlar Xəzər dənizi ilə Qafqaz dağları arasındakı 3-4 km-lik dar dərəni tuturdu. Narınqalanın 4,5 hektar sahəsi vardı.[3]

Dərbənd qalası Cənubi Qafqazı və Ön Asiyanı şimaldan hücum edən köçərilərdən qoruyan möhtəşəm müdafiə sisteminin bir hissəsi idi. Qaladan qərb istiqamətdə Dağ barısı 40 km məsafədə uzanırdı.[4]

Sasanilər dövründə farsca "Bağlı qapılar" anlamı verən Dərbənd adı meydana çıxır. Ərəb işğalı dövründə isə ərəblər onu "Bab-əl-Əbvab" (mənası "Baş qapılar") adını alır. Türkcə isə "Dəmirqapı" deyilirdi. Dərbənd adına yazılı mənbələrdə VII əsrdən rast gəlmək olur.

Belə güman olunur ki, II Yezdigerdin hakimiyyətinin sonlarına yaxın Dərbənd qalası üsyan etmiş albanlar tərəfindən dağıdılmışdır ki, bu da 454-cü ildə hunların Dərbəndi almalarını yüngülləşdirmişdir.[5] Dərbəndin şimal divarlarından bir qədər

---

[1] Дербеит-наме, сс.24-28.

[2] Александр Кудрявцев.Древний Дербент, с.76

[3] Yenə orada.

[4] Yenə orada

[5]Василий Бартольд. Дербент. Сочинения, том III. Москва: Наука, 1965, с.420.

cənubda gil səddin qalıqlarının tapılması bu səddin hələ Sasani hökmdarı II Yezdigerdin dövründə inşa olunduğunu güman etməyə əsas verir.[1] Müxtəlif fərqli məlumatları müqayisə edərək belə ümumiləşdirilmiş nəticə çıxarırlar ki, Dərbəndin əsaslı şəkildə möhkəmləndirilməsi eramızın III əsrində Sasani imperiyası yarandıqdan sonra başlamış, VI əsrdə başa çatdırılmışdır.[2]

Azərbaycanlı tədqiqatçı A.Hacıyev isə belə hesab edir ki, Dərbənd şəhər tipli yaşayış məntəqəsi kimi hələ m.ö. VIII-VII əsrlərdə təşəkkül tapmağa başlamış, erkən orta əsrlərdə (təxminən miladin III-VI əsrləri) isə artıq istehkamlarla möhkəmlədirilmiş qala-şəhərə çevrilmişdir.[3]

"Dərbəndnamə"də rəvayət olunur ki, Sasani hökmdarı Qubad xəzərlərlə qanlı müharibələrə son qoymaq üçün Xəzər xaqanının qızı ilə evlənmiş və sonra xaqanın razılığı ilə Dərbənd səddini inşa etdirmişdir. O zaman qala divarları üçün özül qazılarkən bundan xeyli əvvəl tikilmiş səddin qalıqları üzə çıxmışdı. Şahənşahın əmri ilə Dərbənddə məskunlaşmaq üçün İrandan 3 min ailə köçürülmüş, mühafizəni təmin etmək üçün 3 min süvari göndərilmişdi. "Dərbəndnamə" müəllifinin iddia etdiyinə görə müdafiə səddinin inşası başa çatdıqdan sonra Qubad şah xaqanın qızını geri göndəribmiş (sonradan xəzərlər Sasani taxtına iddia etməsinlər deyə şah xaqanın qızının bakirəliyinə toxunmayıbmış). Bundan sonra Xəzər-Sasani müharibələri yenidən qızışır.[4]

---

[1] Василий Бартольд. Дербент.., с.420.
[2] Расул Магомедов.Древний Дербент-свидетель далекого прошлого Дагестана.Махачкала: Даггиз, 1940, с11.
[3] Asəf Hacıyev.Göst.əsəri,s.32.
[4] Дербенд-наме, сс.24-28.

Dərbənd erkən orta əsrlər Albaniyasının ən mühüm səhərlərindən biri idi. Sonradan həm də Sasani şahənşahlarının Qafqazda ən mühüm istinadgahlarından birinə çevrilir.[1]

İlk vaxtlarda Dərbənd təpədə yerləşən "Narınqala" adlı qəsrdən və ondan aşağıda-dənizə tərəf və bir qədər dənizin içərisinə gedən daş hasarlardan ibarət olmuşdur. [2] Bu hasarlar Xəzər dənizi ilə Qafqaz dağları arasındakı 3-4 km-lik dar dərəni tuturdu. Narınqalanın 4,5 hektar sahəsi vardı.[3]

481-484-cü ildə Cənubi Qafqazda baş vermiş böyük üsyan nəticəsində sasanilər region üzərində, o cümlədən Dərbənd üzərində təsirlərini itirmişlər.[4] Yalnız I Qubadın hakimiyyəti dövründə sasanilər Dərbənd üzərində hakimiyyətlərini bərpa edirlər. Yazılı mənbələr I Qubadın Gilgilçay səddini inşa etdirdiyini yazırlar. Balazori yazır ki, Qubad Şirvanla Alban qapıları arasında çiy kərpicdən sədd inşa etdirmiş və sədd boyunca 360 şəhər salmışdı,onlar Bab-əl-əbvab tikiləndən sonra dağılmışlar.[5]

Dərbənd qalası Cənubi Qafqazı və Ön Asiyanı şimaldan hücum edən köçərilərdən qoruyan möhtəşəm müdafiə sisteminin bir hissəsi idi. Qaladan qərb tərəfə Dağ barısı 40 km məsafədə uzanırdı.[6]

Dərbənd qalasının divarlarını inşa edərkən iri daşların üzərində oyuq açır, sonra iki daşın üzərindəki oyuqlara metal tellər qoyub oyuğun üstünə ərinmiş qurğuşun tökərək bərkidirdilər.[7] X əsr ərəb tarixçisi Məsudinin yazdığına görə Dərbənd

[1]Фарида Мамедова.Политическая история и историческая география Кавказской Албании. Баку: Элм, 1986, с.1986, с.161.
[2] Александр Кудрявцев.Древний Дербент,с.76
[3] Yenə orada,s.76
[4] Yenə orada,s.87.
[5] Адь-Баладзури. Книга завоевания стран.Пер.П.К.Жузе.Баку,1927, с.5.
[6] Александр Кудрявцев.Древний Дербент,с.76
[7] Али Кажлаев. Возникновение..,сс.7-8.

qalası ilə yanaşı, 1 mil dənizin içərisinə doğru, digər tərəfdən isə dağın üstü ilə Tabasaran qalasına kimi uzanan sədd inşa olunmuşdu. Səddə hər üç mildən bir darvaza vardı.[1]

M.ö. IV əsrdən 705-ci ilə qədər Dərbənd şəhəri ilk Azərbaycan dövlətlərindən olan Albaniyanın tərkibində olmuşdur. Alban tarixçisi Musa Kalankatuklu eranın ilk əsrlərində Albaniyada xristianlığın yayılmasından danışarkən qeyd edir ki, Yelisey öz təbliğini Albaniyanın Çola bölgəsində başlamışdır.[2] M.Kalankatuklu həm də alban patriarx taxtının VI əsrin ortalarına qədər Çolada yerləşməsi, bundan sonra Partava (Bərdəyə) köçürülməsi haqqında məlumat verir. O, yazır ki, xəzərlərin talanları nəticəsində Albaniya katolikosluğunun taxtı Çola şəhərindən ölkənin paytaxtı olan Bərdə şəhərinə köçürüldü.[3]

Mehranilər dövründə də Dərbənd Albaniyanın tərkibində qalırdı. Yenə də M.Kalankatuklunun verdiyi məlumata görə bu sülalənin görkəmli nümayəndəsi Cavanşir 661-662-ci ildə xəzərləri məğlub edərək Dərbənddən şimala göndərmişdi.[4] Digər məlumata görə 662-ci ildə Dərbənd yanında ərəblərin qələbəsi ilə nəticələnən döyüş baş vermişdi. Rəvayətə görə bu döyüşdə 40 ərəb bahadırı fövqəladə qəhrəmanlıq göstərərək 6 min xəzər döyüşçüsünü öldürmüş və özləri də həlak olmuşdular. Onlar Dərbəndin yanında ayrıca qəbiristanlıqda dəfn olunmuş və həmin yer "Qırxlar qəbiristanlığı" adını almışdır (Qəbiristanlıq indi də mövcuddur).[5]

---

[1] Евгений Козубский. Göst. əsəri,s.21; Али Кажлаев. Возникновение..,с.8.
[2] Musa Kalankatuklu.Albaniya tarixi. Mxitar Qoş.Alban salnaməsi. Bakı: Elm, 1993,s.18.
[3] Александр Кудрявцев. Древний Дербент, с.76.
[4] Musa Kalankatuklu.Albaniya tarixi. Mxitar Qoş.Alban salnaməsi. Bakı: Elm, 1993,s.18.
s.129-130.
[5] Али Кажлаев.Возникновение.., с.11.

VIII-X əsrlərdə isə Azərbaycanın digər əraziləri kimi Dərbənd şəhəri də Ərəb xilafətinin tərkibində olmuşdur. Bu şəhər Xilafətlə şimal ölkələri arasında mal mübadiləsində böyük rol oynayırdı. Xəlifələr strateji və ticari əhəmiyyətini nəzərə alaraq Dərbənddə azad şəhərə oxşar əmirlər, yaxud rəislər şurası adlı bir orqan yaratmışdılar. Bu orqana başçılıq edən şəxs rəislər rəisi adlanırdı. Hakimin şəhər əhalisindən vergi toplamaq hüququ yox idi. Dərbənd qarnizonu digər sərhəd qalalarındakı qarnizonlar kimi xəzinədən məvacib alırdı.[1]

Xəlifə Validin hakimiyyəti dövründə (705-715-ci illər) ərəblər Dərbənddə qəti surətdə möhkəmlənirlər. Onun qardaşı Məsləmə (əbu-Müslüm) Dərbənd divarının və səddinin dağılmış yerlərini bərpa edir, böyük Cümə məscidi və daha 7 məscid inşa etdirir, üzərinə dəmir çəkilmiş 6 darvaza düzəldilir, qala divarları dənizin içərisinə xeyli uzadılır. İki divarın arası zəncirlə bağlanırdı. Məsləmə 24 min suriyalı döyüşçünü Dərbəndə köçürüb yerləşdirdiyinə görə şəhərin əhalisi xeyli artır. Onlar başlıca olaraq Şam (Dəməşq), Himsə, Kufə və əl-Cəzirədən köçürüldüklərinə görə şəhər də müvafiq surətdə dörd hissəyə bölünmüşdü.[2]

IX əsr müəllifi əl-Balazurinin yazdığına görə ərəb sərkərdəsi Məsləmə Dərbəndi aldığı zaman burada min xəzər ailəsi varmış. Məsləmənin qalaya hücumları fayda vermədiyindən əmr edir ki, çoxlu iri və xırda buynuzlu heyvanı kəsib, onların bağısaqlarını və mötəviyyatını şəhərə gedən suyun mənbəyində olan quyuya töksünlər. Bir gecə keçmədi ki, su

---

[1] Тарих-и Дербентнамэ(Под ред.Алиханова Аварского). Тифлис: 1898, с.27; Ziya Bünyadov.Azərbaycan VII-IX əsrlərdə.Bakı:Azərnəşr,1989,s.157-158ş

[2] Али Кажлаев. Возникновение.., с.11.

iylənməyə, içində qurdlar əmələ gəlməyə başladı. Sakinlər gecə vaxtı şəhəri tərk edib qaçdılar.[1]

"Dərbəndnamə"də bu dövrdə Dərbənddə baş verən dəyişikliklərlə bağlı yazılır ki, Məsləmə Narınqalada olan böyük, lakin pis inşa edilmiş binanı yenidən qurdu, ambar, silah-sursat və neft saxlanması üçün binalar tikdirdi. O, sakinlərin çoxunu müsəlmanlaşdırdı, onları 7 məhəlləyə bölüb, hər məhəllədə bir məscid və bir də şəhərdə böyük Cümə məscidi inşa etdirdi. Sonra o, şəhər divarlarında dəmirlə örtülmüş 6 qapı qoydurdu. Qapılar "Bab-əl-Mühacir" (Mühacirlər qapısı, "Bab-əl-Cihad" (Müqəddəs müharibə qapısı), indi "Qırxlar qapısı" adlandırılan qapı, "Bab-əl-Həms (indi "Yeni qapı"), "Bab-əl-Sahir" (indi Türkmən qapısı), "Bab-əl-məktub" (Mektum), yəni Gizli qapı (indi Bayat qapısı) və "Alkama" (indi-Narınqala qapısı) adlanırdı.[2]

754-cü ildən Dərbəndin hakimi olmuş Yezid-bin-Əsəd şəhəri əhatə edən divarların möhkəmləndirilməsini davam etdirmişdir.[3]

Harun-ər-Rəşidin hakimiyyəti dövründə (786-809) Dərbənddə ilk irriqasiya işləri görülür. Rəvayətə görə Harun-ər-Rəşid 7 il Dərbənddə yaşamış, bu dövrdə Rubas çayının qarşısında bənd hörülmüş və ondan Dərbəndə bir neçə kanal çəkilməsini əmr etmişdi.[4] Xəlifənin əmri ilə şəhər sakinləri bağçılıq və üzümçülüklə məşğul olmağa başlamışdılar.[5] 869-cu ildə Bağdad

---

[1] Ал-Баладзури. «Книга завоевания стран». Текст и перевод с арабского проф. П,К,Жузе. Баку: Издание общества обследования и изучения Азербайджана. 1927,с.17

[2] Тарихи Дербент-наме. Тифлис: 1898, с.78. Али Кажлаев. Возникновение.., с.12.

[3] Али Кажлаев. Возникновение.., с.12.

[5] Дербенд-наме., с.109; Ziya Bünyadov. Göst. əsəri, s. 158; Али Кажлаев. Возникновение..,с.12.

xəlifəsi Bakının neft və duz mədənlərindən gələn gəlirlərin Dərbənd sakinlərinə ayrılması haqqında fərman vermişdir.[1]

VIII-X əsrlər Dərbəndin çiçəklənməsi dövrüdür. VII-VIII əsrlərdə Yaxın Şərqi Cənub-Şərqi Avropa, Aşağı Volqaboyu və Şimali Qafqazla birləşdirən mühüm ticarət yolları Xəzər hövzəsinə keçdiyinə görə Dərbəndin rolu artır, burada təsərrüfat həyatı, sənətkarlıq və ticarət xeyli tərəqqi edir.[2] X əsr ərəb tarixçisi əl-İstəxrinin yazdığına görə Dərbənd Qafqazın ən böyük şəhəri olub sahəsinə görə Tiflisdən iri idi, xəzərlər, Sərir, Gürcüstan, Təbəristan, Deyləm və digər ölkələrlə ticarətin mərkəzi idi.[3] Tacirlərdən tutulan gömrük rüsumu xəzinəyə böyük gəlir gətirirdi.

Ərəb tarixçisi ibn-Hövqəlin (Hafqəl) verdiyi məlumata görə gömrük rüsumları ildə 100 min dirhəmdən 1 milyon dirhəmədək gəlir verirdi.[4]

IX əsrin ortalarında Bağdad xilafətinin zəifləməsi nəticəsində Azərbaycanda yerli dövlətçilik ənənələri bərpa olunduğu zaman Dərbənddə müstəqil əmirliyin əsası qoyulur (869-cu il). Əsası Haşim ibn Suraka əs-Suləmi tərəfindən qoyulduğu üçün Haşimilər əmirliyi adlanan bu dövlət qurumu müəyyən vaxtlarda Şirvanşahlardan və Sacilərdən asılılığa düşsə də 1077-ci ilə qədər mövcud olmuşdur.[5]

---

[1] Тарихи Дербенд-наме (под редакцией М.Алиханова - Аварского). Тифлис:1898, с.86.

[2] Хидир Рамазанов, Амри Шихсаидов. Очерки истории Дагестана. Мачачкала:1964,с.26.

[3] Bax:Евгений Козубский.Göst.əsəri,s.36.

[4] Bax:Ziya Bünyadov.Göst.əsəri,s.158.

[5] Сафтар Султанов. Дербент..,с.17; Asəf Hacıyev. Dərbənd XIX-XX əsrin əvvəllərində. Bakı, 2017, s.35; Хидир Рамазанов, Амри Шихсаидов. Göst.əsəri, с.42.

“Dərbəndnamə”də yazıldığına görə Haşim Dərbənddə bərpa işləri aparmışdır. Bakı neft və duz mədənlərindən gələn gəlir Dərbəndin möhkəmləndirilməsinə sərf olunurdu.[1]

X əsr ərəb coğrafşünası Əbu İshaq əl-İstəxri Dərbənd şəhəri haqqında yazırdı: “Bab əl-Əbvab şəhərində gəmilər üçün liman vardır. Bu liman ilə dəniz arasında, hər iki yandan səddlər çəkilmişdir. Belə ki, gəmilərin daxil olması üçün yer dardır. Giriş isə girintili çıxıntılıdır.[2] [Limanın] girəcəyinə zəncir [bağlanmışdır ].Heç bir gəmi icazəsiz buraya daxil olmur, nə də çıxmır. Hər iki divar daş və qurğuşundandır.”[3]

Əl-İstəxri Dərbəndin Ərdəbildən daha böyük olduğunu, Cənubi Qafqazda buradan başqa heç yerdə kətan parçalar hazırlanmadığını qeyd edirdi.[4]

Digər X əsr ərəb coğrafşünası ibn Hafqəl də Dərbəndin Xəzər dənizi sahilində liman şəhəri olduğunu qeyd edərək, dənizdən başlanan limanda hər iki tərəfin dənizdən şəhərədək divarla əhatə olunduğunu yazır: “Bu [tikinti ilə] girintili-çıxıntılı keçiddən daxil olan gəmilər keçirlər. Keçidin girəcəyində Tir və Beyrutda olduğu kimi zəncir bağlanmışdır. [Zəncirin] üstündə qıfıl asılmışdır. Bu [qıfılın açarı] dənizin vəziyyətinə nəzarət edəndədir. Onun icazəsi olmadan gəmi limana nə girə, nə də çıxa bilər. Hər iki divar daşdan və qurğuşundan hörülmüşdür.[5] İbn-Hafqəl Dərbənd şəhəri ətrafında daş, kərpic və palçıqdan divar çəkildiyini yazır.[6]

---

[1] Хидир Рамазанов, Амри Шихсаидов.Göst.əsər,s.42

[2] Nailə Vəlixanlı.IX-XII əsr coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm, 1974, s.89

[3] Yenə orada

[4]Nailə Vəlixanlı. Göstərilən əsər.., s.89.

[5] Nailə Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında.., s.109.

[6] Yenə orada

XII əsr ərəb müəllifi əl-İdrisi (1100-1165) Bərdə şəhərindən Dərbəndə və oradan şimala gedən ticarət yolu haqqında məlumat verərək Samur körpüsündən Dərbəndə kimi 60 mil məsafə olduğunu qeyd edib yazır: "Bab əl-Əbvab Xəzər dənizi sahilində çox böyük şəhərdir. Şəhərin ortasında gəmilər üçün liman vardır. Bu limanın girəcəyində sədd kimi iki bina [tikilmişdir]. Buraya (girəcəyə) zəncir çəkilmişdir və limanın sahibinin icazəsi olmadan heç kəs nə girə, nə də çıxa bilər. Həmin iki sədd arasına qurğuçun tökülmüş möhkəm süxurlardandır."[1]

Dövrün digər ərəb müəllifi ibn Həmid əl-Əndəlusi əl-Qərnati (1080-1170) Dərbənd haqqında fərqli, həm də daha geniş məlumat vermişdir. O, Dərbəndin divarlarının 1 mil məsafədə Xəzər dənizinin içərisindən başladığını, sonra quruya keçdiyini və Təbəristan qalasınadək uzandığını qeyd edir. Əl-Qərnati dənizin içindəki səddin tikilmə üsulu haqqında çox maraqlı məlumat verir: "Bu divarları [dənizin içərisində] üfürülmüş öküz dərilərinin üzərində [dayanaraq] daş parçaları, dəmir və qurğuşunla tikmişlər. Tikinti yüksəldikcə, həmin dərilər dəniz dibinə qədər aşağı enir. [Bu vaxt ] bir adam dənizə baş vurur və [dərini] parçalayır. Tikinti yerdə möhkəmləndirilir."[2] Əl-Qərnati hər üç mildən az və ya çox məsafədə dəmir qapı qoyulduğunu, hər qapının üstündə bürc olduğunu və qapıların mühafizəçilərinin burada yaşadığını yazırdı.[3]

XIII əsr ərəb müəllifi Yaqut əl-Həməvi "Mücəm əl-buldan" (ölkələrin əlifba sırası ilə siyahısı) adlı əsərində Dərbənd şəhərinə xüsusi diqqət yetirmişdir. Müəllif, Dərbəndin divarlarının dənizin içərisinə kimi uzanması, şəhərin ortasında gəmilər üçün

---

[1] Nailə Vəlixanlı. Göstərilən əsər.., s.150-151.
[2] Yenə orada, s.89.
[3] Yenə orada,s.163.

limanın olması, şəhərin girişinin girintili-çıxıntılı və zəncirlənmiş olması, divarların daş və qurğuşundan hazırlanması barədə məlumat verir.[1]

Əl-Həməvi Dərbəndin Ərdəbildən iki kvadrat mil böyük olduğunu qeyd edərək, şəhərin dağdan vadiyədək uzununa çəkilən daş hasarla dövrələndiyini yazır.[2] Müəllif daha sonra Dərbəndə müxtəlif ölkələrdən-şimaldan xəzərlər, Sərir sakinləri, Şindan, xayran, Kurc, Ruklan, Zirigiran və Qumuq camaatının axışıb gəldiyini, Cürcan, Təbəristan, Deyləm və Qəbələdən adamlar gəldiyini, burada yaxşı kətan parçalardan paltar hazırlandığını, zəfəran yetişdirildiyini yazırdı.[3]

Əl-Həməvi Dərbəndin yanında Məsqat adlanan rustağın yerləşdiyini, Məsqatdan aşağıda isə Şabran şəhərinin yerləşdiyini yazırdı.[4]

Yaqut əl-Həməvi də Dərbəndin qala divarlarının hava doldurulmuş tuluqlar üzərinə qoyulmuş iri daşların dənizə uzadılması yolu ilə tikildiyini təsdiqləyərək, şəhər divarının eninin 300 dirsək olması, müxtəlif yerlərdə dəmir qapılar qoyulmasını qeyd edərək yazırdı ki, tikintidə istifadə olunan daşların ən kiçiyini 50 adam daşıya bilməzdi.[5]

Əl-Həməvinin yazdığına görə Dərbənd divarlarının üstündə 20 atlı sərbəst manevr edə bilərdi. Divarların hər birinin üstündə ağ daşdan düzəldilmiş erkək şir, ondan aşağıda isə dişi şir təsvir olunmuşdu. Darvazanın yanında ağzında uzun salxım tutan

---

[1]Nərgiz Əliyeva. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu, 1999, s.78;Yenə onun. "Mücəm əl-buldan" əsərində Azərbaycan və Qafqaz. Bakı: Elm və təhsil, 2020, s.152

[2]Nərgiz Əliyeva. Azərbaycan..,s.78;Nərgiz Əliyeva."Mücəm əl-buldan..,s.152

[3] Yenə orada, s.152-153

[4] Yenə orada, s.155-156

[5] Yenə orada, s.155-156

tülkünün ayaqları arasında yerləşən daş insan təsviri vardı. Şəhərin lap yaxınlığında pillələri olan tağlı quyu vardı. Pilləkənlərin hər iki tərəfində Dərbənd divarının talismanı sayilan daşdan yonulmuş iki şir vardı.[1]

XIV əsrin ikinci yarısı - XV əsrin əvvəllərində yaşamış əslən azərbaycanlı olan görkəmli alim Əbdürrəşid ibn Saleh ibn Nuri əl-Bakuvi də Dərbənd haqqında maraqlı məlumatlar verir. O, Dərbəndin coğrafi koordinantları, sahəsinin uzunluğu, eni, şəhərin darvazaları, bürcləri, qüllələri haqqında məlumat verərək, onun möhtəşəm müdafiə istehkamı olduğunu xüsusi qeyd edirdi. Alim yazırdı ki, Bab əl-Əbvab (Dərbənd) şəhəri Xəzər dənizinin sahilində qayanın üstündə salınmış heyrətamiz şəhərdir. Uzunluğu 7 fərsəx, eni bir ox atışı məsafəsində olan şəhərin dəmir qapıları və çoxlu qüllələri var. Hər qüllənin yanında dini elmləri öyrənən şagirdlər üçün məscid var. Divarların üstündə şəhəri qoruyan mühafizəçilər durur.[2]

Əl-Bakuvinin də yazdığına görə divarlara hörülmüş yonulmuş daşların ən kiçiyini belə 50 nəfər ancaq daşıya bilirdi. Daşları qurğuşun və metal yivlərlə bərkidirdilər. 7 fərsəxlik divarın 7 yerində keçid düzəldilmiş və hər keçidin yanında şəhərcik salınmışdı.[3]

XVI əsrin əvvəllərinədək Şirvanşahlar dövlətinin tərkibində qalmış Dərbənd vahid Azərbaycan dövləti - Səfəvi dövlətinin yaranması ilə əlaqədar bu dövlətin tərkibinə daxil olmuşdur. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Dərbənd müvəqqəti olaraq

---

[1] Nərgiz Əliyeva. “Mücəm əl-buldan.., s.156-157

[2] Абд ар-Рашид аль-Бакуви.Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар (Сокращение [книги о]»памятниках» и чудеса царя могучего) Издание текста, перевод и примечания З.М.Буниятова. Москва: Наука, 1971, с.88

[3] Yenə orada.

osmanlıların idarəçiliyi altına keçir. Bu dövrdə Dərbənd Şirvan bəylərbəyliyinin tərkibində olsa da xeyli müstəqilliyə malik bir sultanlıq təşkil edirdi.

VII-IX əsrlərdə Xəzəryanı ticarətin inkişafı ilə əlaqədar Dərbənd Xəzər dənizi sahilində ən böyük limana çevrilmişdi.

Ətraf yerlərdə yetişdirilən taxıl və boyaqotu bir sıra ölkələrə, Hindistana qədər belə ixrac olunurdu. Dərbənd sənətkarlarının istehsal etdikləri sənətkarlıq məmulatı, xüsusilə kətan parçalar və paltarlar bir sıra ölkələrə ixrac edilirdi. Şəhərdə dulusçuluq, dəmirçilik, tökmə, zərgərlik, bənnalıq və s. sənətkarlıq sahələri yüksək inkişaf etmişdi. VII-IX əsrin əvvəllərində Yaxın Şərq ölkələrini Avropa, Aşağı Volqaboyu və Şimali Qafqazla birləşdirən ticarət yolları Xəzər dənizi hövzəsinə keçdi. Xəzərdə isə gəmilərin dayanması üçün əlverişli reydi olan Dərbənd mühüm limana çevrildi.[1] 799-cu ildə xəlifə Harun-ər-Rəşid Bakının neft quyuları və duz mədənlərindən toplanan illik gəlirin Dərbəndə verilməsi haqqında fərman imzalamışdır. Şirvan hakimləri bundan əlavə Dərbənd qazilərini taxılla təmin edirdilər.[2]

Dərbənd qalasında aşağıdakı qapılar var idi:

Bayat qapısı (ərəbcə sinonimi "Bab-əl-məktub",yəni Məktublar qapısı, daha doğrusu Poçt qapıları-Narınqaladan şəhərin cənub divarına açılan qapı.[3]

---

[1] История Дагестана. Т.1, Москва, 1967, сс.36, 138-139; Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2006, s.49; Сара Ашурбейли. Государство Ширваншахов. Баку, Изд.-во «Элм», 1983, сс.40-41.

[2] Шарафутдин Магарамммов. Дагестан и Ширван в VI-XVI вв. экономические, политические и культурные взаимоотношения Махачкала: АЛЕФ, 2007, с.55.

[3] Bax: Гусейнбала Гусейнов. Энциклопедия города Дербент. Москва: 2009, сс. 67-68.

Dağ qapıları (“Gizli qapılar”, yaxud “Rüsvayçılıq qapısı”)-Narınqaladan dağlara açılan qapı.[1]

Daş qapı (ərəbcə “Bab-əl-saqir”).[2]

Kiçik qapılar, yaxud yenə ərəbcə “Bab-əl-qəsr”. Yerli Azərbaycan türklərinin “Türkmən qapısı” adlandırdığı bu darvaza Türkiyə tərəfə, yəni qərbə açılırdı.[3] Rus işğalından sonra rusların “Şura qapıları”, yəni Temirxan-Şuraya açılan qapı adlandırdıqları həmin qapı Narınqaladan şimal qala divarına açılırdı.[4]

Carçı qapısı (ərəbcə “Bab-əl Mühacir”-yəni Qaçqınlar qapısı) Narınqaladan şimal qala hasarına açılan birinci qapı. Rus işğalından sonra ruslar bu qapıya “Vodyanıye vorota”, yəni bulaqlara aparan qapı adını vermişdilər.[5]

Dübari qapı-Narınqaladan şəhərin cənub divarına açılan dördüncü qapı.[6]

Yeni qapı (ərəbcə “Bab-əl-Xoms”-Xoms qapısı), şəhərin cənub divarında olmuş və sonralar yoxa çıxmışdır.[7]

Qala qapı (Xan qapı). Narınqaladan şəhərin cənub divarına açılan birinci qapı.[8]

Qiyamət qapısı. Şəhərin şimal divarında olmuş, indi yoxdur.[9]

---

[1] Гусенбала Гусейнов. Краткая энциклопедия Дербентациклопедия сс.155-156.

[2] Yenə orada, s.205-206.

[3] Yenə orada.

[4] Yenə orada, s.210-215,

[5] Yenə orada, s.229-231.

[6] Yenə orada, s.262.

[7] Yenə orada,s.273.

[8] Yenə orada,s.329-331.

[9] Yenə orada, s.345-346.

Qırxlar qapısı (ərəbcə “Bab-əl-Kəbir”, yəni Böyük qapı, yenə də ərəbcə “Bab-əl-Cihad”, yəni Müqəddəs müharibə qapısı). Narınqaladan şimal səddinə açılan iknci qapı.[1]

Narınqala qapısı (ərəbcə “Bab-əl-Kama”) Narınqala qəsrinin qapısı.[2]

Orta qapı-Narınqaladan cənub səddinə açılan üçüncü qapı.[3]

Tarixən Dərbənd şəhərində aşağıdakı 9 məhəllə olmuşdur:

1.Çartəpə (Çahartəpə).
2.Mikri (tayfa adı ilə bağlıdır).
3.Bayat ucarı.
4.Genküçə.
5.Peyinlikbaşı.
6.Bazar və ya Xanküçə.
7.Ortadərə.
8.Bayatqapı.
9.Carçı.[4]

160 hektara yaxın ərazini tutan Dərbənd şəhəri sahəsinə görə Ön Asiya,Cənubi Qafqaz və Mərkəzi Asiyanın bir çox erkən orta əsr şəhərlərindən böyük idi. İnsanlarla məskunlaşmamış dənizkənarı rayon istisna olmaqla şəhərin məskunlaşmış ərazisinin sahəsi 26-27 hektara çatırdı. Şəhərin Narınqala adlanan içqala hissəsində şəhər hakiminin və əyanların evləri yerləşirdi. Narınqalanın 2,5-3,5 m qalınlığında, ayrı-ayrı yerlərdə hündürlüyü 20-25 m-ə çatan divarları vardı.[5]

---

[1] Гусенбала Гусейнов. Краткая энциклопедия Дербентациклопедия, сс.390-392.
[2] Yenə orada, s.477.
[3] Yenə orada, s.503-504.
[4] tarixinstitutu.az/pace/96/derbend.Mür.tar.07.02.2022-ci il.
[5] Гусейнбала Гусейнов.Энциклопедия города Дербента,с.318.

Sasani hökmdarlarının Dərbənddəki canişinləri V əsrdə “mərzban” titulu daşıyırdılar. VI əsrdə Dərbənd şəhəri ətrafında şimal və cənub səmtində tikilən sədlər Sasani hökmdarı I Qubad (488-531) və oğlu I Xosrov Ənuşirəvan (531-579) tərəfindən inşa etdirilmiş və şimaldan gələ biləcək hücumlardan qorunmaq məqsədi daşıyırdı.[1]

Dərbənd həm mədəni mərkəz idi, həm də Şərqi Qafqazda ən mühüm xristianlıq mərkəzlərindən biri idi. Uzun müddət Alban xristian kilsəsinin katolikosu iqamətgahı olmuşdur.[2]

X əsrdən Dərbənd islamın qonşu ölkələrə yayılmasında fəal rol oynamağa başlayır. Bu dövrdən şəhər qapılarından birinin “Bab-əl-cihad adlanması[3] yəqin ki, bununla bağlıdır.

Səlcuq yürüşlərinin başlaması və Böyük Səlcuq imperiyasının yaranması ilə türk-islam amili Qafqazda həlledici amilə çevrilir. XI əsrin üçüncü rübündə Şirvanşahlardan asılı vəziyyətə düşən əmirlik, ola bilər ki, XII əsrin əvvəllərində müstəqilliyini bərpa etmişdir.[4]

Azərbaycan Atabəyləri dövlətinin mövcudluğu dövründə (1136-1235) isə Şirvanşahların hakimiyyəti altında olmuşdur. 1239-cu ildən 1357-ci ilədək isə əvvəlcə Monqol imperiyasının, sonra isə Hülakular dövlətinin tərkibində olmuşdur (Yenə də Şirvanın bir hissəsi kimi).[5] XIII-XIV əslərdə Dərbənd iki monqol ulusu-Hülakular və Qızıl Orda arasında mübahisə obyektinə çevrilmidi. Bu xeyli dərəcədə iki imperiya arasında sərhədlərin

---

[1] Александр Кудрявцев. Город не подвластный векам. Даг. книж. изд., 1976,с.152

[2] Фарида Мамедова. Политическая история..,с163.

[3] Хидир Рамазанов, Амри Шихсаидов. Göst.əsəri,s.70.

[4] Sevinc Rəhimova.Göst.dis-sı,s.60-61

[5] Vaqif Piriyev.Dərbəndin XIII-XIV əsrlərdəki siyasi coğrafiyası.AMEA A.A.Bakıxanov ad.Tarix institutu.Elmi əsrlər.Cild XIX,Bakı:2007,s.???

aydın olmaması və Dərbəndin geosiyasi mövqeyi ilə bağlı idi. Akad.V.V.Bartold monqol ağalığı dövründə Dərbəndin Şirvanşahlara tabe olduğunu, bəzən isə müstəqil dövlətlər tərəfindən idarə edildiyini, burada hülakularla qızılordalıların təsirinin vaxtaşırı dəyişdiyini yazır.[1] Digər əsərində isə o, Dərbəndin daha çox Qızıl Orda xanlarına məxsus olduğunu iddia edir.[2]

Mənbələrdəki müxtəlif, bəzən ziddiyyətli məlumatları təhlil edən Azərbaycanın Orta əslər dövrünün tanınmış tədqiqatçılarından olan Vaqif Piriyev belə qənaətə gəlmişdir ki, Dərbənd XIII-XIV əsrlərdə  tək-tək hallar istisna olmaqla, Şirvan, deməli Azərbaycanın tərkibində olmuşdur. Qızıl Orda xanlarının yürüşləri dövründə şəhər müvəqqəti işğal edilsə də, tezliklə azad olunmuş və yenidən Şirvana qatılmışdır.[3] Məsələn,1265-ci ildə Hülaku şahzadəsi Juşumut Dərbənd, Şirvan və Muğana göndərilir ki, özünə məxsus olan bu yerləri  düşməndən, yəni qızılordalılardan qorusun.[4]

Monqol işğalı, daha sonra davamlı Hülakular-Qızıl Orda müharibələri Dərbəndə böyük zərbə vurmuşdu. Böyük dağıntılara məruz qalmış bu şəhər Xəzərin ən böyük limanı kimi əhəmiyyətini itirir. 1475/76-ci ilin qışını (12 noyabr 1475-6 aprel 1456) Dərbənddə keçirmiş Venesiya səfiri Kontarininin sözlərinə görə şəhərin orta hissəsinin ancaq altıda bir hissəsində insanlar yaşayırdı. Dəniz sahilindəki hissədə isə binalar demək olar ki, tamamilə dağıdılmışdı.

---

[1] Василий Бартольд.Дербент.Сочинения.Том IIIX (Работы по исторической географии) Москва:Наука, 1965, с.426

[2] Ввсилий Бартольд. К вопросу о происхождении кайтаков.Сочинения. Том V. Москва: Наука, 1968, с.372

[3] Vaqif Piriyev. Dərbəndin XIII-XIV əsrlərdəki siyasi coğrafiyası.AMEA A.A.Bakıxanov ad.Tarix institutu.Elmi əsərlər.Cild XIX, Bakı: 2007, s.22

[4] Vaqif Piriyev.Dərbəndin XIII-XIV əsrlərdə syasi coğrafiyası, s.21.

Barbaro və Ancolellonun sözlərinə görə əvvəllər Dərbənd limanına 800 çəllək yükü daşıyan gəmilər yaxınlaşırdısa, onlar burada olduqları zamanda yalnız 200 çəlləkdən çox yük daşımayan gəmilər yan alırdı.[1]

Məlumdur ki,1590-cı il Səfəvi-Osmanlı müqaviləsinə görə Azərbaycanın çox hissəsi, o cümlədən Dərbənd osmanlı hakimiyyəti altına keçmişdi. Evliya Çələbinin sözlərinə görə, osmanlılar Dərbənddə 1000 yeniçəri, 4 bölük sipahi,10 utə çəbəçi,10 utə saray topçusu, 60 top, 500 sandıq cəbbəxana saxlayırdılar. Ayrıca qalanı mühafizə etmək üçün 15 minlik qüvvə qoyulmuşdu.[2] Bu fakt osmanlıların Dərbənd qalasına necə fövqəladə əhəmiyyət verdiklərini göstərir. Dərbənd qalasının hərbi rəisi Özdəmirzadə Osman paşa burada cümə məscidi, karvansara və hamamlar inşa etdirmişdi.[3]

Hərbi islahatlar keçirib güclü ordu yaradan şah I Abbas 1603-cü ildə osmanlılarla yeni müharibəyə başladı. Tezliklə Azərbaycan torpaqları azad olundu. 1606-cı ildə dərbəndlilər şaha meylli Qaytaq usmisini şəhərə dəvət etdilər. Cəmi 60-70 nəfərdən ibarət osmanlı qarnizonu qısa müqavimətdən sonra təslim oldu. Dərbənd şəhərinin nümayəndələri şah I Abbasın

---

[1] Амброджо Контарини. Путешествие Амбросия Контарини,посла светлейшей Венецианской Ресрублики к знаменитому персидскому государю Узун Гассану, совершенное в 1473 году. Библиотека иностранных писателей о России. Ч.2,СПб., 1836, с.79. Илья Перушевский. Göst. məqaləsi, s.193; Владилен Гаджиев. Göst.əsəri, s.62.

[2] Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Türk dilindən işləyəni və şərhlərin müəllifi t.e.d.,prof.Seyidağa Onullahi. Bakı: 1997, s.75

[3] Evliya Çələbi.Səyahətnamə,s.77.

hüzuruna gedərək sədaqətlərini bildirdilər. Şah Dərbənd əhalisini xəzinənin xeyrinə toplanan vergilərdən azad etdi.[1]

A.A.Rəhmani yazır ki, XVII əsrin əvvəlində Dərbənd hakimi şah tərəfindən təyin olunurdu, əsrin ortalarında isə Şirvan bəylərbəyinə tabe idi.[2]

Səfəvilər Dərbəndi osmanlılardan geri aldıqdan sonra Şah I Abbas Dərbəndin möhkəmləndirilməsinə diqqət yönəltmişdir. Onun tapşırığı ilə Xəzər dənizinin qalxıb enmə prosesi müşahidə olunmuşdur ki, suyun nə qədər dənizə doğru çəkildiyi və bu zaman piyada, yaxud minik heyvanları ilə şəhər sədlərindən yan keçməyin mümkünlüyü öyrənilsin.[3]

İskəndər bəy Münşinin yazdığına görə Şah I Abbas Qəmbər bəy Səlihdarbaşı Gözübeyiklini sərkar təyin edib, fərasətli memar və mühəndiləri də ona qoşaraq əmr etmişdi: "Dənizin quru ilə bitişdiyi heyvanlar keçən bu azsulu yerdən irəli gedib heç kimin keçə bilməməsi üçün uca bir ali bürc inşa etsinlər, sonra dənizin uc tərəfinə mümkün qədər çox girib bürcün kənarınadək uzanan hündür divarı çəksinlər və onları bir-birinə birləşdirsinlər; həmin bürcdən Əlbürz dağının ətəyində bütün bürc və barıları təmir edib, onları elə möhkələndirsinlər ki, tamamilə nöqsansız olsun, o ali bürcdə və başqa bürclərdə yuxusuzluğa dözümlü mühafizəçilər yerləşdirilsin, onlar keşik və mühafizə ilə məşğul olsunlar."[4]

---

[1] Илья Петрушевский.Азербайджан в XV-XVII веках.Азербайджан,его соседи и международное положение на рубеже XV и XVI веков. Сборник статей по истории Азербайджана. Вып.1,1949,сс.278-279.

[2] Абульхасан Рахмани.Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку:Изд.Элм,1981,с.89.

[3] Yenə orada, s.166

[4] İskəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-alamaraye-Abbasi). II kitab (Fars dilindən çevirən: Şahin Fazil). Bakı:Şərq-Qərb, 2014, s.1325

Tarixçi sözünə davam edərək yazır ki, Qəmbər bəy usta memarlar və təcrübəli mühəndislərlə tikinti mateialları hazırlayıb dənizin dərinliyində münasib bir yerdə bürcü inşa etdirdi, tapşırılan qaydada divar da inşa olundu.[1]

Beləliklə, aparılmış hesablamalar əsasında dənizə tərəf son nöqtədə hündür qüllə inşa olundu və onu sahildəki qüllə ilə etibarlı divarla birləşdirmək lazım idi. Bundan əlavə dənizlə Elbrus dağı arasındakı səddin bütün qüllələri bərpa olunmalı idi.[2] Şahın əmri ilə Narınqalanı şəhərin orta hissəsindən ayıran divar, həmçinin dəniz sahilində divar inşa olunmuşdu.[3]

1623-cü ildə Dərbənddə olmuş rus taciri Fedot Kotov Dərbəndin seyrək məskunlaşdırıldığını qeyd edərək Narınqalanı şəhərin orta hissəsindən və şəhəri dənizdən ayıran sədlərə diqqət çəkmişdi. O, dənizin içərisində böyük və möhkəm qüllə olduğunu yazırdı. Onun sözünə görə daha 30 qüllə olmuş və onlar dənizin içərisində batıb getmişdilər.[4]

Adam Oleari Narınqalada valinin yaşadığı evi və qəsri topları olan 500 əsgərin qoruduğunu yazırdı. Həmin əsgərlər ayrumlu və koydursa tayfalarından idi.[5]

Evliya Çələbinin yazdığına görə XVII əsrin ortalarında Dərbənddə 12 hakim, münşi, kələntər, yasvul, qorucu, dizçökən, sıravi əskər vardı. E.Çələbi Dərbəndi “son dərəcə əhalisi çox olan, abad bir yer” adlandırmışdı.[6] Səyyah Dərbənd qalalarının

---

[1] İskəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-alamaraye-Abbasi). II kitab (Fars dilindən çevirən: Şahin Fazil). Bakı:Şərq-Qərb, 2014, s.1326.
[2] Абульхасан Рахмани.Göst.əsər,s.166.
[3] Илья Петрушевский. Азербайджан в XV-XVII веках..,сс.290-291
[4] Хождение купца Федота Котова в Персию. Москва:1958,с.35.
[5] Адам Олеарий. Описание путешествия в Московию и через Московию в Персию и обратно. СПб.,1906,с.486.
[6] Evliya Çələbi. Göst.əsəri,s.75.

dörkünc olduğunu, çevrəsinin 11060 addım olduğunu yazırdı. Şəhərdə 70 böyük qalaça (qüllə,bürc) olduğunu qeyd edərək yazırdı ki, onların hər birində gəlmə və subay adamlar üçün bir mədrəsə, bir məscid vardır. Orada təhsil alan tələbələrin çıraqlarda istifadəsi üçün Bakıdan qara neft gətirirdilər.[1]

XVII əsrdə Dərbəndin iqtisadi həyatı əvvəlki əsrlərdə malik olduğu əhəmiyyətini itirmişdi. Şəhərdəki evlərin bir çoxu boş idi.[2]

Dərbənddə əsas ticarət sahələrindən biri qul alveri idi. Dağıstan, Şimali Qafqaz və Krımdan olan adam oğruları Şimali Qafqazdan, Rusiyadan, Ukrayna və Polşadan ələ keçirdikləri adamları gətirib Dərbəndin qul bazarında satırdılar.[3] Qərbi Avropadan olan səyyah Yan Streys də özü qul kimi satılmışdı.[4]

## I.2.Dərbənd XVIII əsrin əvvəllərində. Müvəqqəti rus işğalı

XVIII əsrdə Dərbənd Səfəvi dövlətinin şimal sərhədlərinin qapısı sayılırdı. Şahlar Dərbəndin hərbi-strateji əhəmiyyətini nəzərə alaraq burada güclü qarnizon saxlayırdılar. XVIII əsrin birinci yarısında Dərbənd sultanlıq idi. Sultanlığın sərhədləri Dərbənddən cənuba tərəf 30 verst məsafədə Samur çayına çatırdı, qərbdə 5-8 verst aralıda Tabasaran ilə həmsərhəd idi. Şimalda isə 15 verst aralıda usminin mülkünə, Darbaq çayına çatırdı.[5]

---

[1] Evliya Çələbi. Göst.əsəri, s.75-76.

[2] Федот Котов.Göst.əsər,s.35.

[3] Илья Петрушевский.Азербайджан в XVI-XVII вв. Азербайджан, его соседи и международное положение на рубеже XV-XVI вв. Сборник статей по истории Азербайджана, вып.1, 1949, с.290.

[4] Ян Стрейс.Три путешествия. Перев.Э.Бородиной. Москва: 1935, с.236.

[5] Назим Магомедов. Дербент и Дербентское.., с.23; Петр Г.Бутков. Сведения о Кубинском и Дербентском владениях-1796 г. ИГЭВ, с.209

XVIII əsrin əvvəllərində Dərbənd şəhəri dağlardan dəniz sahilinədək 1730 sajen uzanırdı.[1] Hündür, enli qala divarları ilə əhatə olunmuşdu. Şəhər əhalisinin böyük hissəsi orta hissədə xana məxsus ikimərtəbəli iki ev, ictimai binalar, 500-ə qədər dükan və 195 sənətkar emalatxanası, habelə 15 məscid, 6 karvansara və bir zərbxana vardı.[2]

Rusiya dövlətinin Səfəvi sarayına göndərdiyi elçisi A.P.Volınskinin geriyə döndüyü zaman ayrıca quru yolla Rusiyaya göndərdiyi dvoryan A.İ.Lopuxinin sözlərinə görə Dərbənd qüllələri və mazğalları olan nalşəkilli daş hasarla əhatə olunmuşdu. Nalın dairəvi tərəfi dağın ətəyinə, ucları isə dənizə söykənirdi. Qalanın yanında təpələrdə üç gözətçi qülləsi və dördkünc şəhərcik vardı. Onlar şəhəri şimal tərəfdən qoruyurdular.[3]

A.Volınskinin səfirliyinin digər üzvü Con Bel isə yazırdı ki, Dərbəndi "İranın qapısı" adlandırmaq olar.[4]

N.A.Maqomedov İ.A.Qerberin Dərbənd sultanlarının hakimiyyətinin Müşkür, Niyazabad, Şabran, Rustov və Barmaq (Bərmək) mahallarına yayılması[5] haqqında fikrinə əsaslanaraq XVII-XVIII əsrlərin qovuşuğunda Dərbənd sultanlarının Cənubi Dağıstanın "iranlılar", azərbaycanlılar və ləzgilər yaşayan əhəmiyyətli hissəsini idarə etdiklərini iddia edir.[6]

Əvvəla hörmətli dağıstanlı alim adları çəkilən sırf Azərbaycana məxsus əraziləri Dağıstana aid etməklə yanlışlığa

---

[1] Иоганн Гербер. Описание стран и народов вдоль западного берега Каспийского моря.1728 г.История, география и этнография Дагестана. Махачкала:1958, с.86
[2] Yenə orada.
[3] Андреян Лопухин.Журнал путешествия через Дагестан. ИГ и ЭВ, с.29.
[4] Джон Бель. Белевы путешествия.., ч.1,СПб.:1776,с.177
[5] Петр Бутков. Материалы.., ч.1,с.27
[6] Назим Магомедов. Дербент и Дербентское.., с.25.

yol verir. İkincisi, Dərbənd sultanlığı müəyyən daxili müstəqilliyə malik olsa da, bütövlükdə Şirvan bəylərbəyliyinə daxil idi. Adları çəkilən ərazilər isə mahal naibləri tərəfindən idarə olunurdular və Dərbənd qarnizonun saxlanması üçün müəyyən məbləğ ödəyirdilər. Hərbi zərurət olduqda bu ərazilərdən toplanan çəriklər Dərbənd sultanının komandası altında çıxış edirdilər.

P.Q.Butkov da Səfəvilərin hakimiyyəti dövründə Dərbənddə sultan və naib vəzifələri olduğunu yazaraq, sultanın şah tərəfindən təyin olunduğunu qeyd edir. Onun hakimiyyəti Müşkür, Niyazabad, Şabran, Rustov və Bərmək mahallarına yayılırdı. Adları sadalanan yerlərdən toplanan bütün gəlir Dərbənd qarnizonu, qala divarları, şəhərə gələn su kanallarının saxlanmasına sərf olunurdu. Bundan əlavə şah xəzinəsindən ona hər il bir neçə min manat göndərilirdi.[1]

Dərbənddə sultan vəzifəsi ilə yanaşı naib vəzifəsi də vardı və naibi adətən adlı-sanlı yerli ailələrdən seçirdilər.[2] Naiblər "qorçu" adlanan mühafizə dəstəsinin rəisi idilər. Sultanlıqda yüzbaşı, darğa, kəndxuda və başqa vəzifələr də vardı. Ruhani zümrəsi də əhəmiyyətli saya malik idi. Şəhərdə 16 məscid vardı və onların iri torpaq mülkləri vardı. Şeyxül-islam, qazılar, cümə məscidlərinin imamları, vaizlər, dərviş ocaqları olan xanəgahların məskunları ruhani zümrəsinə gaxil idilər. Onlar sultanlığın idarəçiliyində də mühüm rol oynayırdılar.[3]

Dərbənd sultanlığı əhalisinin çox hissəsini rəiyyətlər və rəncbərlər təşkil edirdilər.

Rusiya və Səfəvilər, sonra isə Əfşarlar dövləti arasında strateji və siyasi sərhəd, möhkəmləndirilmiş şəhər rolunu

---

[1] Петр Бутков. Göst.əsər, I c.27.
[2] Yenə orada.
[3] Yenə orada, s.26-27.

oynayan Dərbənd əvvəlkitək də olmasa da yenə də mühüm əhəmiyyətə malik idi. Rus artilleriya polkovniki İ.Q.Qerber I Pyotrun Xəzəryanı əyalətlərə yürüşü ərəfəsində Dərbəndin vəziyyətini səciyyələndirərək yazırdı ki, bura şah tərəfindən təyin olunan böyük gəlirləri olan, bundan əlavə şah xəzinəsindən 50 min manat alan sultan tərəfindən idarə olunurdu. Sultan bu pulları heç kimə hesabat vermədən istədiyi kimi xərcləyirdi.[1]

Qerberin verdiyi məlumatdan aydın olur ki, Dərbənd sultanın 600 nəfər süvari və 1000 nəfər piyada döyüşçüsü vardı.[2] Dərbənd əhalisi hamısı hərbi işi yaxşı bildiyindən lazım gəldikdə 5000-ə qədər döyüşçü toplamaq olurdu.[3]

Dərbənd ətrafında çoxlu buğda, arpa və çətik yetişdirilirdi. Məlumdur ki, XVIII əsrin əvvəllərində Səfəvi dövləti dərin sosial və siyasi böhran keçirirdi. Mərkəzi hakimiyyət zəiflədiyi üçün yerlərdə tez-tez qiyamlar və çıxışlar baş verirdi. Azərbaycanda baş verən üsyanlardan ən güclüsü Şirvan üsyanı idi. Burada üsyan həm də ideoloji çalar almışdı. Məlumdur ki, Şirvan əhalisinin əksəriyyəti Səfəvilərin rəsmi ideologiyası olan şiəlikdən fərqli sünnü məzhəb idi. Şiə üləmaları və ali ruhanilərinin məzhəb ayrı seçkiliyi feodal istismarı və yerli hakimlərin özbaşınalığı ilə çulğaşıb Şirvanın sünnüməzhəb əhalisi arasında narazılıq yaradırdı ki, bundan da regionda Səfəvi hakimiyyətini yıxmağa çalışanlar istifadə etdilər. Belə şəxslərdən biri də Müşkür mahalının Dədəli kəndindən olan Hacı Davud adlı çox ağıllı birisi idi. O, "sünnüləri şiələrin zülmündən qurtarmaq" şüarını ortaya ataraq öz ətrafına xeyli tərəfdar toplamağa nail oldu. Lakin Hacı Davud

---

[1] Иоганн Гербер. Описание.., с.86.

[2] Yenə orada, s.85.

[3] Андреян Лопухин. Журнал путешествие через Дагестан. ИГ и Э Дагестана, с.30.

silahsız kəndli kütlələri ilə şəhər və qalaları almaq iqtidarında idi. Tezliklə o, güclü bir müttəfiq əldə etdi. Qəndaharda qiyam qaldırıb daha sonra Səfəvi dövlətinin içərilərinə doğru irəliləyən əfqan qəbilələrinin qarşısını almaq üçün hərbi yardıma kəskin ehtiyac hiss edən Şah Sultan Hüseyn 1720-ci ildə Dağıstanın ən böyük hakimləri olan Tarku şamxalına və Qaytaq usmisinə hərbi qüvvə göndərmələri üçün müraciət edir. Onlar isə Surxay xan Qazıqumuqlunu öz dəstələri ilə İrana yola saldılar. Surxay xan Şirvandan keçərkən Hacı Davud onunla gizli əlaqə yaradıb İrana getmək fikrindən daşındırdı və şahlıq rejiminə qarşı mübarizəyə cəlb edə bildi. Müttəfiqlər 1720-ci ildə Şabran şəhərini, sonra isə Xudat qalasını aldılar.[1] 1721-ci ilin avqustunda isə üsyançılar Şirvan bəylərbəyliyinin mərkəzi olan Şamaxı şəhərini də ələ keçirdilər. Şəhər alınarkən orada olan rus tacirlərinin 500 min rubla yaxın dəyəri olan malları qarət olundu, 5 tacir isə öldürüldü.[2] Qeyd olunmalıdır ki, müasirləri Şirvan üsyançılarının əcnəbilərlə ehtiyatla davrandıqlarını söyləyirlər. Yalnız rus tacirləri yerli tacirlərə və İran tacirlərinə sığınacaq verməklə yanaşı, üsyançılara qarşı çıxdıqlarına görə qətl-qarətə məruz qalmışdılar.[3] Rus sarayı Səfəvi şahından günahkarları cəzalandırmağı tələb etsə də şah bu tələbi yerinə yetirmək iqtidarında deyildi. Çoxdan Azərbaycanda və İranda gözü olan I Pyotr Şamaxıda rus tacirlərinə qarşı talan və qətl hadisəsindən bir bəhanə kimi istifadə edib,guya günahkarları cəzalandırmaq adı

---

[1] Фуад Алиев.Антиранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII века. Баку,1975, с.24-25.

[2]Сергей Соловьев.История России, кн. 9 (тт.17-18). Москва: 1963, с.373; АВПРИ, ф.77(СРП),1722 г., д.2 и об.; Гевхар Мамедова. Некоторые вопросы истории Азербайджана в журнале консула С.Аврамова. Изд.АН Азерб. ССР, сер. общественных наук, с.52.

[3]АВПРИ, ф.77 (СРП), оп.1,1721 г., д.1,лл34-35

altında cənuba yürüşə başlamaq qərarına gəldi və mayın ortalarında qvardiyası ilə birlikdə Moskvadan hərəkət edərək iyunun 15-də Həştərxana çatdı.[1] Rus ordusunun müdaxiləsi yerli əhalisi arasında vahiməyə və kəskin müqavimətə səbəb olmasın deyə, I Pyotr tarixi ədəbiyyatda "Pyotrun manifesti" adı ilə məşhur olan müraciətnamənin çap olunaraq yürüşün keçəcəyi yerlərin sakinləri arasında yayılmasını əmr etdi. Müraciətdə yürüşün əsl səbəbləri pərdələnərək guya yalnız rus tacirlərinin qətl-qarətinin günahkarlarının cəzalandırılması üçün həm də qiyamçıları sakitləşdirməkdə şaha yardım üçün təşkil olunduğu bəyan edilirdi.[2] I Pyotrun başçılığı ilə piyada hissələrinin mindiyi gəmilər 1722-ci ilin iyulun 18-də Həştərxandan cənuba üzdü.[3] Süvari hissələri bir qədər əvvəl quru yolla Veteraninin komandanlığı altında Tsaritsından Qrebenə yola düşmüşdü. İyulun 27-də rus donanması Aqraxan burnuna çatdı və ertəsi günü piyadalar quruya çıxarıldılar.[4] Onlar burada bir həftə süvari hissələrinin gəlib çıxmasını gözlədilər. Avqustun 5-də piyada və süvari hissələri birləşib Dərbəndə tərəf hərəkət etdi. Ayın 12-də rus ordusu Tarkiyə çatdı.

Bu zaman Dərbənddə olduqca gərgin və qeyri-müəyyən siyasi vəziyyət yaranmışdı. Qonşu Dağıstan feodallarının müntəzəm basqınları nəticəsində şəhərin ətrafında kəndlər var-yoxdan çıxarılmış, əkin və bağlara böyük zərər yetirilmişdi. Belə çətin anda şəhər hakimi Alxas sultan da İranda idi.[5] I Pyotrun

---

[1]АВПРИ, ф.77, оп.1, 1722 г., д.13, л.4
[2]АВПРИ,ф.77 (СРП), 1722 г., д.14, .л.4 и об..; Русско-Дагестанские отношения в XVII -первой четверти XVIII вв. (документы и материалы). Махачкала, 1958, с.244.
[3] АВПРИ,ф.77 (СРП), оп.1, 1722 г.,, д. 13, л.44
[4] Yenə orada
[5] РГАДА,ф.9(Каб.Петра I) отд.2,кн.54,л.634

kəşfiyyat üçün göndərdiyi leytenat A.İ.Lopuxin isə 1722-ci il iyulun 31-də göndərdiyi məlumatda yazırdı ki,bir ildən artıqdır ki, Dərbənd sultanı şah tərəfindən İsfahana aparılmışdır, Dərbənddə isə yalnız yerli sakinlər qalmışdır, onların içərisində iki əsilzadə var: Araslan bəy və yüzbaşı. Lopuxinin yazdığına görə Arslan (Aslan) bəy usmi və Hacı Davudun tərəfdarı idi və onları şəhərə buraxmaq istəyirmiş. Yüzbaşı isə Tarki şamxalının tərəfdarı idi və onun xahişi ilə şamxal Dərbəndə gələrək 2 ay burada qalmışdır. Şamxal həmin yüzbaşını şəhərin idarəçisi təyin etmiş, ona yardım etmək üçün bir neçə döyüşçü vermişdi.[1] A.Lopuxinin yazdığına görə o zaman ətraf kəndlərlə əlaqə kəsil-diyinə görə Dərbənddə ərzaq çox baha idi.[2] Yüzbaşı İmamqulu bəyin və 49 Dərbənd sakinin adından I Pyotra yazılmış və avqustun 4-də alınmış məktubda deyilirdi ki,artıq bir neçə ildir ki, Kür çayından Dərbəndə qədər ərazidə yaşayan bəzi adamlar toplaşaraq çoxlu talanlar törətmiş və bir çox adamı qətlə yetirmiş-lər. Dərbəndlilər çətinliklə müdafiə olunurlar. Onlar Rusiya impe-ratorunun şahla dost olduqlarını bildikləri üçün onun Dərbəndə gəlməsini arzulayırlar.[3] Həmin tarixdə ayrıca İmamqulu bəyin adından yazılmış məkubda sonuncu yazırdı ki, onun babası və atası, özü də şah tərəfindən yüzbaşı rütbəsinə layiq görülmüşdür. İndi isə sədaqətlə xidmət etdiyinə görə şəhərin naibi təyin olunmuşdur. İmamqulu bəy I Pyotrun göndərdiyi fərmanları aldığını bildirir, hökmdarın gəlişi vaxtını ona bildirilməsini xahiş edirdi.[4] Qeyd edək ki,rus qoşunlarının yaxınlaşması ilə əlaqədar şəhərdə iki qruplaşma yaranmışdı. Aslan bəyin başçılıq etdiyi

---

[1] Русско-дагестанские отношения в XVIII -начале XIX в.Москва: Наука,1988, сс.33-34
[2] Yenə orada
[3] АВПРИ,ф.77 (СРП), оп.1,1722 г., д.18, л.9
[4] АВПРИ,ф.77 (СРП), оп.1,1722 г., д.1, л.5

birinci qrup Qaytaq usmisi və Hacı Davudu şəhərə buraxmağa çalışırdılar. Yüzbaşı İmamqulu bəyin başçılıq etdiyi ikinci qrup isə Rusiyaya meyl edirdi. Gərgin mübarizə ikinci qrupun qələbəsi ilə başa çatmış, İmamqulu bəy şəhər naibi elan olunmuşdu.[1]

Pyotrun göstərişi ilə polkovnik Naumov bir dəstə əsgərlə Dərbəndə yollandı ki, şəhəri çarın gəlişinə hazırlasın.[2] Gəmilərdən çıxan 271 əsgərlə F.Soymonov da ona qoşuldu. Rus hərbiçiləri Dərbəndə daxil olub müəyyən mövqeləri tutdular.[3]

Avqustun 23-də yaxınları və əhali nümayəndələri tərəfindən müşayiət olunan İmamqulu bəy rus imperatorunu şəhərin darvazası önündə qarşıladı və şəhərin darvazasının açarlarını ona təqdim etdi.[4] Dərbəndə daxil olan rus ordusu şəhərin cənub-şərqində dənizlə şəhər arasında qərarlaşdı.[5] Qalada 238 (60-ı mis, 178-i dəmir) top, çoxlu barıt və digər sursat aşkarlandı.[6] Dərbənddə qalmaq üçün qarnizon ayrıldı və onun rəisi polkovnik Yunger həm də şəhərin komendantı təyin olundu. İmamqulu bəy naib vəzifəsində təsdiqləndi.[7] Ona məvacib ayrıldı və I Pyotrun almazlarla bəzənmiş 1400 rubl dəyərində portreti bağışlandı.[8] Çar Dərbəndin tutulmasından çox sevindi və Senata yazmışdı: “Beləliklə, Allahın köməkliyi ilə bu diyarlarda [bir] fut (torpaq) əldə etdik və bu münasibətlə sizi təbrik edirik”.[9]

---

[1] РГАДА, ф.9 (Каб. Петра I), отд.2,кн.54, v.634 və a.ü.
[2] АВПРИ,Ф. 77( СРП),оп.1,1722 г.,д.13,л..13
[3] РГАДА,ф.9 (Каб.Петра I),отд.2, кн.54,л..634
[4] Федор Соймонов.Описание…,с.92
[5] Петр Бутков. Göst.əsəri,I his.,s.26
[6] Григорий Мельгунов. Göst.əsəri.,s.41
[7] АВПРИ, ф.77 (СРП), оп.1,1722 г., д.18, л.47 об. 98; д. 13, л. 12
[8] АВПРИ, ф.77 (СРП),оп.1,д.18,лл..97-98; д..13,л.12
[9] Материалы для истории русского флота, ч. IV, с.238; Григорий Мельгунов. Göst.əsəri, s.31; Сергей Соловьев.История России, кн. IX (тт.17-18). с.379

Qeyd olunmalıdır ki, o zaman Dərbənddə rus ordusunun şəhərə daxil olmasını arzulamayan qüvvələr çarın şəhərə daxil olduğu gün açıq çıxış etməyə cəsarət etməsələr də sentyabrın 7-də səkkiz nüfuzlu dərbəndlinin iştirakı ilə hazırlanan qəsdin üstü açılmış, onlar həbs olunmuşdur. Qəsdçilərin Hacı Davudla əlaqə saxladıqları məlum olmuşdur.[1] Rus xəzinəsinin gəlirlərini artırmaq məqsədi ilə, rus hakimiyyət orqanları tacirlərin şəhərə rahat gəliş-gedişlərini təmin etməyə çalışırdılar.[2]

İ.Gerberin müəllif olduğu güman edilən mənbənin yazdığına görə avqust ayında rus ordusunun ön hissələri Dərbəndə qonşu olan Müşkür mahalında ələ keçirmişdilər.[3]

Avqustun 25-də I Pyotr Dərbənddən porucik Lunini Bakıya göndərdi ki, bakılılara yaxın zamanda rus ordusunun gələcəyi barədə xəbər versin.[4] Luninin apardığı çar fərmanında deyilirdi ki, rus ordusunun əsas qüvvələri gəlmədən Bakını müdafiə etmək üçün şəhərdə bir alay əsgər və bir dəstə kazakın yerləşdirilməsi zəruridir.[5]

Ancaq şəhər hakimi Məhəmməd Hüseyn sultan Lunini heç şəhərə buraxmayaraq bildirdi ki, bakılıların kənar yardıma ehtiyacı yoxdur, rus çarının guya Bakının müdafiəsi üçün göndərmək istədiyi qoşun isə indi lazım deyil.[6]

Dərbənddə qısa müddətdə dincəldikdən sonra I Pyotr ordusu ilə cənuba tərəf hərəkət etdi. Lakin Milukənd (Mollakənd) yanındakı düşərgədə I Pyotr Luninin Bakıya buraxılmadığı

---

[1] АВПРИ, оп.1, 1722 г.,л. 13, л. 104 и об.
[2] АВПРИ,ф.77 (СРП), оп.1, 1722 г., д.24, л.30
[3] Русский Архив, 1894, №12, с.486
[4] АВПРИ, ф. 77 (СРП), оп.1,1722 г.,д.20,л.12 и об.; Дмитрий Бутурлин Göst. əsəri II his., s. 20; Григорий Мельгунов .Göst.əsəri,s.23.
[5] АВПРИ, ф.77 (СРП),оп.1,1722 г., д. 20, лл.14-16
[6] Yenə orada, iş 13 v. 103

haqqında xəbər aldı. Bununla belə çar yürüşü davam etdirib bu şəhəri silah gücünə almaq istəyirdi.[1] Lakin bir sıra hadisələr - dənizdə baş verən fırtınadan orduya Həştərxandan un gətirən gəmilərin qəzaya uğraması nəticəsində unun xarab olması, alaf çatışmazlığı və üzücü istidən atların kütləvi tələf olmasına və bəzi səbəblərə görə I Pyotr yürüşünü yarımçıq qoyaraq Rusiyaya qayıtmalı oldu.[2] Onun Rusiyaya qayıtmaq qərarı qəbul etməsinə Osmanlı imperiyasının rus çarının hərbi yürüşünə kəskin etiraz etməsi də səbəb olmuşdu.[3]

I Pyotr özü bu məsələ ilə bağlı Senata məkubunda yazırdı ki, o, Dərbəndə daxil olduqdan sonra, yürüşü davam etdirmək məqsədilə cənuba hərəkət edərək 15 verstliyində Milukənd (Mollkənd) çayı yanında düşərgə qurdu ki, Tverdə hazırlanmış 13 gəmidə gətirilən ərzaq boşaldılsın və burada ağaclar bol olduğu üçün undan çörək bişirilsin. Lakin bu zaman güclü çovğun baş vermiş və bütün gəmilər parçalanmışdır. Çar kapitan Vilbaonun başçılığı ilə gəlməkdə olan 17 gəmini gözləmək qərarına gəlmişdir. Lakin, təəsüf ki, bu gəmilər də qəzaya uğramışdır. Bədbəxtlikdən bir gecədə 1700 at ölmüşdür. Əldə olan ərzaq yalnız bir aya çatacağından Pyotr Rusiyaya dönməyi qərara almışdır.[4]

---

1 АВПРИ, ф.77, оп.1,1722г, д.13, лл.102 об.-103; Дмитрий Бутурлин. Göst.,c.21

2 Викентий Лысцов. Göst. əsəri, s.124; Материалы для истории, т 4, с.531; Петр Бутков.Göst. əsəri,I his., s. 30.

3Ольга Маркова.Göst.əsəri, 111

4 Сб.РИО,т.11.СПб.:1873,сс.497,498.

Sentyabrın 5-də I Pyotr Dərbəndə döndü, 6-da yürüşün dayandırılması barədə əmr verdi, 7-də Yungerin başçılığı ilə qarnizon qoyub Rusiyaya qayıtdı·.[1]

Rusiyaya dönsə də I Pyotr Xəzəryanı vilayətlərin işğalını davam etdirmək niyyətindən əl çəkməmişdir. Polkovnik Şipovun başçılıq etdiyi hərbi-dəniz ekspedisiyası 1722-ci ilin dekabrında Rəşt şəhərini tutdu.[2] 1723-cü ilin iyul ayında isə general-mayor Mixaylo Matyuşkinin başçılıq etdiyi rus hərbi dəniz ekspedisiyası bakılıların müqavimətini qırıb Xəzər dənizinin bu ən önəmli limanını zəbt etdi. Rus hakimiyyəti hərbi əməliyyatlarla yanaşı öz işğallarına hüquqi don geyindirmək üçün bəzi diplomatik addımlar da atırdı. I Pyotr İrandakı konsulu S.Avramova göstəriş vermişdi ki, şah sultan Hüseyni Rusiyadan ediləcək hərbi yardım əvəzinə Xəzəryanı vilayətlərin bu dövlətə güzəştə getməsinə razı salsın. Ancaq bu zaman İsfahan artıq əfqanların mühasirəsində olduğuna görə Avramov şahla görüşə bilmədi, Qəzvində olan şahın oğlu və vəliəhdi Təhmasib İsmayıl bəyi müqavilə şərtlərini müzakirə etmək üçün Peterburqa göndərməyi qərara aldı.[3] Lakin elə bu arada (1722-ci ilin oktyabrı) İsfahan üsyançı əfqan qəbilələri tərəfindən alındı və Sultan Hüseyn taxt-tacı əfqanların başçısı Mir Mahmuda təslim etdi. Belə olduqda vəliəhd özünü II Təhmasib adı ilə şah elan etdi.[4] II Təhmasib İsmayıl bəyin Rusiyaya göndərilməsi haqqında atasının qərarını təsdiqləsə də Rəştin artıq ruslar tərəfindən zəbt olunduğunu eşidib, İsmayıl bəyin geri dönməsi barədə göstəriş verdi. Ancaq Rəştdəki rus

---

[1] РГВИА, ф.846,оп.16,д.1539,л.1-3; Дмитрий Бутурлин. Göst.əsəri, II hissə, s.22; Материалы для истории русского флота, IV hissə, s.531; Евгений Козубский. əsəri, s.79

[2] Виссарион Комаров. Персидская война.., сс.577-579

[3]Тофиг Мустафазаде. Азербайджан и русско –турецкие.., с.71

[4]Yenə orada, s.51.

hərbçiləri İsmayıl bəyin arxasınca gəlmiş çaparı yalandan İsmayıl bəyin artıq Rusiyaya üzdüyünü bildirərək geri qaytardılar. Beləcə müqavilə bağlamaq səlahiyyətlərinin ləğv olunduğundan xəbəri olmayan İsmayıl bəy Peterburqa gəldi. Sentyabrın 12-də rus hökuməti onunla Xəzərsahili vilayətlərin,o cümlədən Dərbənd və ətafının Rusiyaya verilməsi barədə «müqavilə» imzaladı.[1]

II Təhmasib nəinki bu müqaviləni təsdiqləmədi, hətta müqavilə mətnini gətirən knyaz Meşerskini təhqir edib geri qaytardı.[2]

Qeyd olunduğu kimi I Pyotrun yürüşü Rusiyanın bu regionda möhkəmlənməsini istəməyən osmanlı hökumətinin kəskin narazılığına səbəb olmuşdu. 1711-ci il Prut savaşında Osmanlılar tərəfindən ağır məğlubiyyətə uğradılmış Pyotr yenidən bu dövlətlə üz-üzə gəlməkdən çəkinirdi və buna görə də Səfəvi mülklərini bölməyi təklif etdi. Osmanlı sarayı əvvəlcə kəskin etirazını bildirsə də Istanbuldakı Fransa elçisi markiz de Bonakın vasitəçiliyi ilə rus nümayəndəsi İ.Neplyuyevlə danışıqlara getməli oldu. Danışıqlar uzun və çox gərgin keçdi.

Nəhayət, 1724-cü il iyunun 13 (24)–də tərəflər arasında razılıq əldə edildi. İyunun 27-də təntənəli şəkildə imzalanan müqaviləyə görə Osmanlı imperiyası Xəzəryanı vilayətlərin Rusiyaya, Rusiya isə Şərqi Gürcüstanın, Azərbaycanın çox hissəsinin və Qərbi İranın Osmanlı dövlətinə keçməsinə razılıq verdi.[3]

İstanbul müqaviləsi bağlandıqdan sonra 1724-1727-ci illərdə Rusiya Gilanın dəniz kənarı hissəsi də daxil olmaqla Xəzərin bütün dənizsahili zolağını öz nəzarəti altına aldı. Rus

---

[1] Yenə orada,s.75

[2] РГАДА, ф.4 (Госархив), оп.1, д.51, л.7

[3]АВПРИ, ф.89 (СРТ), оп.1, 1724 г., д.7,лл.1-15; Договоры России с Востоком. Политические и торговые (Собрал и издал Трофим Юзефович) СПб., 1869, сс.1869,сс.186-187

işğal zonasının eni Dərbənd yanında dənizdən təxminən 100 verst qərbədək, Gilanda isə Rəştdən cənub-şərqə 124 verstədək idi.[1]

Rusiya işğalı dövründə Dərbənd sultanlığının ərazisi cənubda Samurdan şimalda Darbaqa qədər olan ərazini əhatə edirdi. Gerber yazır ki, Müşkür, Niyazabad, Rustov və Bərmək mahalları da Dərbənd sultanlığına tabe idi.[2] Ancaq, öncədə də qeyd etdiyimiz kimi, əslində adı çəkilən mahallar Şirvan bəylərbəyinə tabe idilər və yalnız hərbi əməliyyatlar zamanı öz silahlı dəstələri ilə birlikdə Dərbənd sultanlığının hərbi dəstələrinə qoşulmalı idilər. Yeri gəlmişkən 1718-ci ildə Dərbənd sultanlığının ərazisindən keçmiş dvoryan A.Lopuxin də Dərbənd sultanının mülklərinin Samur çayından şimalda yerləşdiyini yazırdı.[3] Daxili müstəqilliyə malik Quba xanının və Tabasaran kadisinin dəstələri də Dərbənd sultanının qoşunları ilə birgə hərəkət etməli idilər. Dərbənd sultanlığı Şahın təyin etdiyi sultan tərəfindən, Dərbənd şəhərinin özü isə naib tərəfindən idarə olunurdu.[4]

Dərbənd rus qoşunları tərəfindən tutulduqdan sonra sultanlıq ləğv edilib yerində eyni adlı əyalət təşkil olundu. Bu əyalət rus hərbiçilərinin arasından təyin olunan komendant tərəfindən idarə olunurdu. Dərbəndin ilk komendantı polkovnik Yunger olmuşdur. Əyalətin mülki idarələrinə isə Dərbənd naibi başçılıq edirdi.[5] Dərbənd naibi ildə 1000 rubl, yüzbaşı və digər hərbi qulluqçular hamısı bir yerdə 1000 rubl, 600 süvari döyüşçü hərəsi 5 rubl və 5 çətvər taxıl alırdılar.[6]

---

[1] Петр Бутков. Материалы.., ч.1, сс.87-90

[2]Yenə orada,s.87-89

[3] Андреян Лопухин. Путешествие.., с.8

[4]Иоганн Гербер.Описание стран и народов вдоль Западного берега Каспийского моря. История, география и этнография Дагестана, с.86

[5] Yenə orada, s.85; Владилен Гаджиев. Роль России в истории Дагестана, с.101.

[6] Тофиг Мустафазаде, Азербайджан и русско-турецкие.., с.129.

Xəzərsahili vilayətləri tutduqca rus hökuməti buradakı mövcud qalaları və istehkamları möhkəmləndirməyə, yenilərini inşa etməyə başladı. Hələ, 1724-cü ilin mayında I Pyotr Dərbənddə dəniz tərəfdə qala və limanın inşası barədə general M.Matyuşkinə göstəriş vermişdi.[1] I Pyotrun planına əsasən 10 il ərzində yerli sakinlərin qüvvəsi ilə Dərbənddə daş hasarlar və liman inşa olunmalı idi. Sonralar Dərbəndin qala divarlarının bərpasını sürətləndirmək məqsədilə buraya Rusiyadan əsasən qeyri-ruslar arasından toplanmış işçilər göndərilməsi qərara alındı. Çar Dərbəndə 1200 kazak və 2 tabordan artıq piyada döyüşçü göndərməyi də tapşırmışdı.[2] Onun göstərişinə görə Dərbənd dəniz duracağını qorumaq üçün torpaq səddin inşasına başlanmışdır.[3]

1725-ci ilin payızında Dərbənd qala divarlarının inşasında 2510 nəfər, o cümlədən 1300 Ukrayna kazakı iştirak edirdi. İşin sürətləndirilməsi, 1726-cı ilin yazına işin başa çatması üçün general Matyuşkin Rusiyadan alətləri və köməkçi işçiləri ilə birlikdə daha 6000 dasyonan, 700 dəmirçinin göndərilməsini tələb edirdi.[4] Bunu da qeyd etmək lazımdır ki, rus hakimiyyət orqanları işçilərə qəti qayğı göstərmirdilər, mənbədə yazıldığı kimi onlar “paltarsız və ayaqqabısız” idilər, aclıqdan iztirab çəkirdilər.[5]

I Pyotr Xəzəryanı vilayətləri Rusiyanın xammal bazasına çevirməyə çalışır və buna görə də bu yerlərin iqtisadi cəhətdən mənimsənilməsinə böyük diqqət yetirirdi. Hələ Dərbənddə

---

[1] Русско-дагестанские отношения.., сс.53-54
[2] Виссарион Комаров. Персидская война..,с.52.
[3] Виссарион Комаров. Göst.əsər, с. 52; Викентий Лысцов.Göst.əsər,s.141.
[4] АВПРИ, ф.77 (СРП), оп.1,1725г.,д.5,л.204 об.; РГВИА, ф. 20, оп.1/47, д.11,1.8
[5] СИРИО, г.84, с.245.

olduğu zaman çar yerli üzümlüklərə heyran qalmış və burada şərab istehsalını yaxşılaşdırmaq üçün Macarıstandan təcrübəli usta gətirilməsinə göstəriş vermişdi.[1] 1723-cü ilin mayın 22-də Pyotrun şəxsən öz xətti ilə yazdığı maddələrdə faydalı qazıntılar, ilk növbədə mis haqqında məlumat toplamaq tapşırıldı.[2]

Yeni işğal olunmuş torpaqlarda xəzinə təsərrüfatları da yaradılırdı. Ən böyük xəzinə təsərrüfatı Dərbənddə yerləşirdi. Burada incir, alma, armud, tut, gavalı, nar və xeyli miqdarda üzüm yetişdirilirdi. Həmin təsərrüfatda "çaxır" adlanan şərab hazırlanırdı. Üzüm plantasiyalarının salınması işini təşkil etmək və şərab istehsalını genişləndirmək üçün Macarıstandan xüsusi olaraq məhşur şərabçı mayor Turqul dəvət olunmuşdu.[3] Xarici ustaların yardımı nəticəsində Dərbənddə yaxşılaşdırılmış ağ və qırmızı şərab növləri hazırlamağa başladılar.[4] Artıq 1723-cü ilin yayına Həştərxana göndərilmək üçün təcrübəli fransız, macar və avstriyalı mütəxəssislərinin hazırladığı sınaq şərab vahidləri hazır idi,[5] payızda isə 20 çəllək ağ və 2 çəllək qırmızı şərab hazır idi.[6]

Dərbənddəki xəzinə təsərrüfatında zəfəran yetişdirilməsinə də böyük diqqət yetirilirdi. Əgər 1724-cü ildə Dərbəndin xəzinəyə məxsus tarlalarında 119 funt və yaxud 8 batman və 7 funt zəfəran toplanıb, qurudulub Həştərxana göndərilmişdirsə, 1728-ci ildə bu rəqəm artıq 13 batman və 5 funta çatdırılmışdı.[7]

---

[1] Тофиг Мустафазаде.Азербайджан и русско-турецкие.. ,с..с.134-135.
[2] Виссарион Комаров.Göst. əsəri, s.606.
[3] Владилен Гаджиев. Роль России.., с.120.
[4] Петр Бутков. Göstr. əsəri, I c., s.147; Григорий Мельгунов. Göst. əsəri, s. 17.
[5] РГАДА, ф. 9 (Кабинет Петра Великого). Отд. 2, кн. 68,л.1188.
[6] РГАДА,ф.9, кн.68,л.1188.
[7] Yenə orada, kitab 68, v.1188.

Səfəvilər dövründə mövcud olan vergi və mükəlləfiyyətlər Rusiya işğalı dövründə əsasən olduğu kimi saxlanılmışdır. Dərbənddə rus xəzinəsinin gəlirləri başlıca olaraq şəhərə gətirilən və şəhərdən aparılan mallardan alınan gömrükdən ildə (1000-1100 rubl), şərab satışından (ildə 1000 rubla yaxın) və xəzinə bostanlarından satılan məhsullardan alınan gəlirdən ibarət idi.[1]

Rus xəzinəsinin Dərbənd ətrafındakı kəndlərdən götürdüyü gəlirlər sənədlərdən məlum olduğu kimi mal cəhətdən (sinonimi bəhrə, dəh-yek), (buğda. arpa, çəltik və digər dənli bitkilərdən məhsulun 1/10-i həcmində alınırdı), cütbaşıdan (kotana görə vergi-hər qoşqu öküzünə görə 50 qəpik), çöpbaşıdan (yay və qış otlaqlarından istifadə üçün alınırdı. Otlağın sahəsindən asılı olaraq 10 və 50 rubl arasında olurdu) gələn gəlirlərdən ibarət idi.[2]

Xəzəryanı vilayətlər işğal edildikdən sonra rus hökuməti bu vilayətlərə münasibətdə mövcud olan bəzi məhdudiyyətləri ləğv etdi. 1723-cü il aprelin 19-da Həştərxan qubernatoru A.Volinskiyə əmr etmişdi ki, Həştərxandan yerli sakinlərə satılmaq üçün Dərbəndə 5000 çətvər ərzaq göndərsin. Həmin əmrdə qeyd olunurdu ki, Dərbənd sakinləri Gilandan sərbəst sürətdə taxıl satın ala bilərlər və bu məqsədlə onlara müəyyən miqdarda bus (yüngül yelkənli gəmi növü) ayrılmalıdır.[3]

Senatın 1724-cü ilin avqustunda verdiyi fərmana əsasən yeni işğal olunmuş vilayətlərə taxıl, ət. şərab və digər ərzaq ixrac oluna bilərdi.[4] Ancaq əvvəlkitək silah, barıt, qurğuşun ixracı ya məhdudlaşdırılır ya da qadağan olunurdu. Dəmir ixracına yalnız

---

[1] АВПРИ, ф.77 (СРП), оп.1, 1721 г, д.10,1.18 ; Евгений Зевакин. Прикаспийские.., табл.4

[2] АВПРИ, ф.77 (СРП), оп.1,1727 г., д.8, л.23

[3] АВПРИ, ф.77(СРП), оп.1, 1723 г., д.5, л.4

[4] Fuad Əliyev. XVIII əsrin I yarısında Azərbaycanda ticarət, s.76

istisna hallarda icazə verilirdi. Məsələn, 1724-cü ilin noyabrında tanınmış sənayeçi Demidova Dərbənd, Bakı və başqa yerlərə sakinlərin məişət tələbatı üçün sibir dəmiri aparmasına icazə verilmişdir.[1]

Çar hökuməti yeni işğal etdiyi torpaqlarda, o cümlədən Dərbənddə özünə sosial dayaq yaratmaq üçün xristianları, xüsusən erməniləri buralara köçürməyə çalışırdı. Dərbənd və Bakı ətrafında gürcüləri və erməniləri məskunlaşdırmaq nəzərdə tutulurdu ki, onların içərisindən əsgərlər toplamaq mümkün olsun.[2]

I Pyotrun 10 noyabr 1724-cü il tarixli fərmanında general Matyuşkinə əmr olunurdu ki, ermənilər Dərbəndə və digər Xəzəryanı məntəqələrə gəldikdə onlara hər cür qayğı göstərməli, məskunlaşmaları üçün yer ayırmalı, Rusiyaya qarşı etibarsızlıq göstərən sakinlər sürgün olunub evləri gəlmə ermənilərə verilməlidir.[3]

Həmin ilin noyabrında xarici işlər kollegiyasında Dərbənd komendantı Yungerə göstəriş verildi ki, keşiş Antoni gəldikdə boş evlərdən birini onun üçün ayırsın, eləcə də onunla gələcək ermənilər üçün əlverişli yerlər ayrılsın.[4] Dərbəndə köçən keşiş Antoni və ətrafındakılar guya əvvəllər kilsə olmuş məscid binasının onlara kilsə kimi verilməsini tələb etdilər. Lakin rus komandanlığı həmin məscidin 300 il əvvəl tikildiyini bildirib ermənilərin bu həyasız tələbini rədd etdi.[5]

---

[1] Петр Бутков. Göst. əsər, I his, s.147-148.

[2]Георгий Пайчадзе.Русско-грузинские политические отношения в первой половине в.Тбилиси: 1970,с.71.

[3] АВПРИ, ф.100 (СРА), оп. 1, 1724 г., д.2, лл.68-69; Герасим Эзов. Göst. əsər, sənəd 259.

[4] РГАДА, ф.15, д.97.г.2, л.234

[5] АВПРИ, ф.77 (СРП), оп.1, 1725г., д.5,лл.41-42

1735-ci il martın 10 (21)-də bağlanan Gəncə müqaviləsinə görə Rusiya yeni ələ keçirdiyi digər Xəzəryanı məntəqələrlə birlikdə Dərbəndi və onun ətrafını da Şahlıq dövlətinə qaytardı.

## 1.3. Dərbənd Nadir Şah Əfşarın hakimiyyəti dövründə

Nadir şah Əfşar dövründə (1736-1747) Dərbənd inzibati baxımdan Azərbaycan vilayətinin tərkibində olmuşdur. 1737-ci ildə Şirvanın əvvəlki hakimi Muradəli sultan Ustaclı Surxay xanla ittifaqda Dərbəndə hücum etmiş, Şirvan bəylərbəyi Mehdiqulu xanı öldürmüşdü. Lakin Dərbənd əhalisinin mühüm hissəsi Nadir şah tərəfdarı olmaqla, Muradəli sultana qarşı çıxaraq, onu ələ keçirmiş və Əfşar hökmdarına vermişdi. Bundan sonra Sərdar bəy Qırxlı Şirvan hakimi, Nəcəf Sultan isə Dərbənd hakimi təyin olunmuşdur.[1] Muradəli sultanı edam etdirən Nadir şah Dərbənddən əleyhdarı olan 100-dək ailəni Həmədana sürgün etdirmişdi.[2] Burada bir məqama aydınlıq gətirmək istərdik. XVIII əsr Azərbaycan tarixinin görkəmli tədqiqatçısı F.M.Əliyev rus konsulunun məlumatına istinadən Nadir şahın guya bütün Dərbənd əhalisini köçürmək niyyətində olduğunu söyləyir.[3] Halbuki əvvəla, A.Bakıxanovun verdiyi məlumatlardan aydın olduğu kimi, Muradəli sultanın təhriki ilə bəzi dərbəndlilər tərəfindən Mehdiqulu xan qətlə yetirilmişdi. Bu fakt Y.Kozubski tərəfindən də təsdiq edilir.[4] İkincisi, qonşu Dağıstan feodallarının daim hücum və təhdidləri ilə üzləşən Dərbənd sakinləri ümumən götürdükdə siyasi pərakəndəliyə son qoyacaq vahid mərkəzləndirilmiş dövlətə meylli idilər. Təsadüfi deyildir ki, o dövrün

[1]Аббскули Ага Бакиханов.Гюлистани-Ирам (1991), с.145
[2] Фуад Алиев.Антииранские..,сс.128-129
[3] Yenə orada, s. 128-129.
[4] Евгений Козубский. с.46; Аббаскули Ага Бакиханов. (1991),с.189

mənbələri əksər dərbəndliləri Nadir şahın tərəfdarları kimi səciyyələndirir; elə Muradəli sultanın məhz dərbəndlilər tərəfindən yaxalanaraq Nadir şaha təslim edilməsi faktının özü onların siyasi meyllərindən xəbər verirdi.

1741-ci il yürüşündə Nadir şah dağıstanlılar üzərində bir neçə qələbə qazanıb, Dağıstanın müəyyən yerlərini tabe edə bilsə də, hələ Avarıstan və bəzi başqa yerlər itaətə alınmamışdı. Buna görə də Şah dağlılara qarşı mübarizəni davam etdirmək üçün Dərbənddən şimalda möhkəmləndirilmiş düşərgə saldı və vaxtaşırı buradan dağlara cəza dəstələri göndərməyə başladı. Sonralar həmin düşərgə "İran xarab" adını almışdır.[1]

1742-ci ilin sonunda Nadir şah Məhəmmədəli xanı Dərbənd sultanı təyin etmişdi. Rusiya səfirliyinin tərcüməçisi və o zaman səfir öldüyünə görə müvəqqəti olaraq onun səlahiyyətlərini icra edən V.Bratişev Məhəmmədəli xanın ona çox yaxşı münasibət bəslədiyini, hətta onun yavərinin Bratişevə gümüş  üzəngili bir at bağışladığını yazırdı.[2]

Məhəmmədəli xan Bratişşevdən xahiş etmişdi ki, rus sərhəd komandirlərinə yazsın ki, xanın özü üçün 30 dəvə almasına imkan versinlər. Sonra da xan bildirmişdir ki, arzulayır ki keçmişdə olduğu kimi rus tacirləri Dərbəndə gəlsinlər, onlara hər cür şərait yaradar, rüsumlar alınmasına imkan verməz. Üç gün sonra Vasili Bratişşev Səfyar sultanın evinə dəvət olunmuşdur. Burada ondan xahiş olunmuşdu ki, Həştərxandan satılmaq üçün Dərbəndə taxıl və digər digər ərzağın gətirilməsinə icazə verilsin.[3] Bratişşev Məhəmmədəli xan haqqında yazırdı: "Правда хотя он и в свойстве Его Величеству [т.е. шаху-Т.М.] причитается только будучи неоднократно от шаха публично

[1] Владилен Гаджиев. Göst. əsəri, s. 133.
[2] ГААО, ф.344, оп.4, д.76, л.28 об.
[3] Yenə orada v.29 a.ü.

обруган и побоями умочен да еще недавно веревка ни за что на нею ево была"(O,Əlahəzrətə (Nadir şaha) yaxın olsa da Şah onu camaatın gözü qarşısında söymüş və döydürmüş, belə ki,bir qədər əvvəl kəndir onun boynunda idi).[1]

Dərbənd bəhs etdiyimiz dövrdə Nadir şahın Azərbaycanın şimal bölgələrində və Dağıstanda apardığı hərbi əməliyyatlar üçün bir növ dayaq bazası kimi xidmət edirdı. Məlum olduğu kimi,1741-ci ilin yayında başlamış və tarixə "Nadir şahın Üçüncü Dağıstan yürüşü" kimi daxil olan yürüş, ilk uğurlarına baxmayaraq, bütövlükdə şahın gözlədiyi nəticəni verməmişdi.

1743-cü ilin fevralında Əfşar hökmdarı paytaxtına geri dönərək, Osmanlı dövlətinə qarşı yeni savaşa başlayır. Bu dövrdə Şirvanda II Sam Mirzənin başçılığı altında baş vermiş üsyan Dərbəndə də sirayət etmişdi. Dərbənd yaxınlığında Kəbir qalasının muğanlı tayfasından ibarət qarnizonu üsyançıların tərəfinə keçir. Dərbənd sultanı Məhəmmədəli xan üsyandan ehtiyatlanaraq, Dərbənddə yaşayan 700 muğanlının gözlərini çıxardır və şəhərdən qovur.[2]

Lakin sərt cəza tədbirlərinə baxmayaraq Dərbənddə asayişi bərpa etmək mümkün olmadı. Dərbənd sultanının xahişi ilə Nadir şah Şirvan hakimi Heydər xanı sultana yardıma göndərdi. Lakin, Şabran şəhərinin yaxınlığında Heydər xan üsyançılar tərəfindən ələ keçirildi və edam olundu. Bundan sonra Şah, Gəncə hakimi Hacı xanı və Təbriz hakimi Aşur xan Papalını yardıma göndərdi. Ancaq Muğan çölündə Kürün sahilində baş vermiş döyüşdə II Sam Mirzə onlara qalib gəldi.[3]

---

[1] ГААО, ф.394, оп.4, д.76, л.32 об.

[2]Гаси Абдуллаев. Азербайджан в XVIII веке, сс.83-84

[3] Фуад Алиев. Антииранские.., с. 177-178

Yalnız 1743-cü il dekabrın 20-də şahın oğlu Nəsrullah Mirzənin başçılıq etdiyi şah qoşunları II Sam Mirzəni məğlubiyyətə uğrada bildilər.[1] Şirvan və Dərbəndin yenidən tabe olunmasını başa çatdıran Nəsrullah Mirzə atasının ordusu ilə birləşməyə yönəldi.[2]

Dağıstanda və Şimali Azərbaycanda silahlı çıxışlar və xalq üsyanları tədricən Nadir şah dövlətinin dayaqlarını laxladırdılar. Bu üsyanlar həmin dövlətin süqutunun başlıca səbəblərindən biri  oldu. Həmçinin Əfşar imperiyasında tədricən iri feodal torpaq sahibliyinin möhkəmlənməsi mərkəzdənqaçma meyllərinin güclənməsinə gətirib çıxarırdı, müstəqil və yarımmüstəqil feodal qurumlarının meydana gəlməsinə şərait yaradırdı.

1747-ci ildə Dərbənd demək olar ki, dağılmış vəziyyətdə idi. İngilis taciri və səyyahı Conas Hanvey şəhərin bu vəziyyəti ilə bağlı yazırdı ki, bu şəhərin,4 il əvvəl, Nadir şah dağıstanlılara qarşı yürüşə çıxdığı zaman başına gələn müsibətləri sözlə ifadə etmək çətindir.[3]

---

[1]Лоуренс Локкарт.Надир шах, сс.285-286

[2] Yenə orada,s.286

[3] Джонас Ханвей.Göst.əsəri,s.84.

# II FƏSİL. DƏRBƏND ŞƏHƏRİ XANLIQ DÖVRÜNDƏ

## 2.1. Əfşarlar imperiyasının süqutu. Dərbənd xanlığının yaranması

1747-ci ilin iyununda Nadir şah qətlə yetirildikdən sonra Azərbaycan ərazisində yaranmış xırda dövlətlər qurumlarından biri də Dərbənd xanlığı idi. E.İ.Kozubuskinin yazdığına görə, Nadir şahın qətlindən bir qədər əvvəl dağıstanlılar qiyam qaldırmış və Dərbənd şəhərini mühasirəyə almışdılar. Dərbənd hakimi Qəni xan dağıstanlılardan, daha çox Dərbənd sakinlərindən ehtiyat edərək tabeçiliyindəki hərbi qüvvə ilə şəhərdən çıxıb Qubaya getmiş, lakin burada üsyan etmiş sakinlər tərəfindən öldürülmüşdür.

Nadir şah qətlə yetirildikdən sonra Dərbənd sakinləri sultan Məhəmmədəli Qırxlını qovub XVIII əsrin 20-30-cu illərində Dərbənd hakimi olmuş İmamqulu xanın oğlu Məhəmməd Hüseyn bəyi xan seçmişdilər.[1] Qeyd edək ki, İmamqulu xan 1727-ci ildə öldükdən sonra rus çarı onun yerinə oğlunu təyin etmişdi. Yeni hakim azyaşlı olduğundan Məhəmməd Yusif və Mustafa bəy ona qəyyum təyin olunmuşdular.[2] Nadir Əfşar Dərbəndə nəzarəti ələ keçirdikdən sonra burada sultan vəzifəsini bərpa etmişdi. Məhəmməd Hüseyn bəy isə yüzbaşı vəzifəsinə keçirilmişdi.

Nadir şah Əfşar öz əyanları tərəfindən qətlə yetirildikdən sonra Dərbənd sakinləri Nadir şahın təyin etdiyi Məhəmmələli

---

1Евгений Козубский. История города Дербента.Темир-хан-Шура, 1906, с.91.

[2] Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом и финансовом отношениях.Ч.IV. СПб., 1836, с.151.

sultanı qətlə yetirib Məhəmməd Hüseyn bəyi xanlıq taxtına çıxardılar.[1]

Dərbənd xanlığının ərazisi  şimalda Darbaq, cənubda Samur çayları ilə, qərbdə isə Tabasaranla əhatə olunmuşdu. Dərbənd xanlığının  şimal qonşusu Tarki şamxallığı, qərb qonşuları Qazıqumuq xanlığı və Tabasaran camaatları, cənub qonşusu isə Quba xanlığı idi.[2]

Azərbaycanın ən şimal-şərq nöqtəsində yerləşən Dərbənd xanlığı həm mühüm hərbi-strateji əhəmiyyətə malik idi, həm də ölkənin ticarət-sənətkarlıq mərkəzləri içərisində özünəməxsus yer tuturdu. Cənubdan şimala yönəlmiş karvan yolu Dərbənddən keçirdi, bununla yanaşı Dərbənd həm də Xəzər dənizi sahilində yerləşən mühüm limanlardan biri idi. Dərbənd dəniz vasitəsilə Bakı, Həştərxan, Rəşt və başqa şəhərlərlə əlaqə saxlayırdı.

XVIII əsrin 60-70-ci illərində Dərbənddə olmuş S.Q.Qmelin bu şəhərin "alınmaz qala" olduğunu qeyd edərək yazırdı ki, Dərbənd şəhərini hücumla almaq olduqca çətindir, düşmən görünən kimi Narınqaladan xəbərdarlıq siqnalı verilir, bütün qapılar dərhal bağlanır, şəhər ələkeçməz bir qalaya çevrilirdi.[3]

Ərazicə kiçik və əhalisi az olduğu üçün Dərbənd xanlığının hərbi qüvvəsi o qədər də çox deyildi. Digər tərəfdən Dərbənd sakinlərinin onlardan ağır vergilər alan Məhəmməd Hüseyn xandan narazı olması şəhərin qonşu hakimlər, ilk növbədə Quba xanı tərəfindən ələ keçirilməsi üçün əlverişli şərait yaradırdı. XVIII əsrin II yarısında yaşamış rus tarixçisi Mixail Çulkov yazır

---

[1] Петр Бутков.Сведения о Кубинском и Дербенском владениях. ИГ И и Дагестана,с.209.
[2] Петр Бутков.Сведения о Кубинском и Дербенском владениях. ИГ И и Дагестана, s. 198-199.
[3]Yenə orada.

ki, Məhəmməd Hüseyn xan təbəələrinə zülm etməklə yanaşı onlardan zorla həddən artıq vergi tələb edir, verməyənlərin gözünü çıxartdırırdı. Xanın belə hərəkəti xalqı hiddətləndirmişdi.[1]

Bunu da qeyd etmək lazımdır ki, yarandığı ilk vaxtlarda Dərbənd və Quba xanları arasında münaqişə baş vermişdi. 1748-ci ildə qubalı Hüseynəli xan Dərbənd xanlığına məxsus bir neçə kəndi qarət etmiş, dərbəndli Məhəmməd Hüseyn xan da əvəz olaraq 60 qubalını, o cümlədən Hüseynəli xanın bir oğlunu və bir qızını girov götürmüşdü. Quba xanı Dərbənddən cənuba, Dərbənd xanı isə Qubadan şimala gedənləri saxlayırdılar.[2]

## 2.2. Dərbənd xanlığının Quba xanlığına birləşdirilməsi. Dərbənd şəhəri birləşmiş xanlığın mərkəzi kimi

Məhəmməd Hüseyn xan hakimiyyəti ələ aldıqdan sonra əhalini ağır vegilərlə yükləmişdi. Zəif iradəli Məhəmməd Hüseyn xan iri feodalların əhaliyə qarşı törətdikləri özbaşınalığının qarşısını ala bilmirdi. S.Q.Qmelin yazırdı ki, Məhəmməd Hüseyn xan sakinlərlə pis davranır, tacirləri və sənətkarları sıxışdırır, onların üzərinə ağır vergilər qoymuşdu, buna görə də sonuncular zülmkar xanın hakimiyyətindən xilas olmaq üçün yollar axtarırdılar.[3]

Dərbənd tacirləri və sənətkarları nəzərlərini sənətkarlıq və ticarət üçün əlverişli şərait yaradılmış Quba xanlığına yönəltdilər. Onlar Fətəli xanı “adil” və “yaxşı” xan sayırdılar. Bu səbəbdən

---

[1] Михайло Чулков.Историческое описание российской коммерции при всех портах и границах от прежних времен до ныне настоящих времен..,т.2,кн.2,СПб,1785,с.622.
[2] ГААО, Ф.349, оп.1, дополнения, дело 90, л.15
[3] Самуил Гмелин. Путешествие по России..,ч.3, половина 1-ая,с.23

də nümayəndələrini onun yanına göndərərək himayə xahiş etmiş və şəhəri Quba xanına təslim edəcəklərinə söz vermişdiılər.[1] Dərbənd məmurlarının və feodalların bir hissəsi də Quba xanlığına birləşməyi arzulayırdılar.[2] Dərbənd sakinlərinin Quba xanlığına meyl etmələrinin bir səbəbi də qubalılarla eyni etnik kökə,dilə malik olmaları, onlar kimi islamın şiəlk məzhəbinə etiqad etmələri idi.[3]

Həmin dövrdə Dərbənd xanlığında iki qruplaşma mövcud idi. İri feodalların və əyanların daxil olduğu azsaylı qrup öz imtiyazlarını və gəlir mənbələrini itirəcəklərindən qorxaraq Məhəmməd Hüseyn xanı müdafiə edirdilər. Onlar Quba xanının rəqibi olan Qaraqaytaq usmisi ilə sıx əlaqə saxlayırdılar.[4]

Əsasən xırda feodallardan, tacirlərdən və sənətkarlarından ibarət daha çoxsaylı qrup Quba xanına meyl edirdilər. Burada tədqiqat mövzusundan bir qədər kənara çıxaraq qeyd edək ki, demək olar ki, bütün tarixçilər Quba xanlarının mənşəyinin Qaytaq usmilərinin nəslindən başladığını yazırlar. Lakin nədənsə Qaytaq sakinlərinin hansı dildə danışdığını göstərmirlər. XVIII əsrin 20-ci illərində uzun müddət Qafqazdakı rus ordusunda xidmət etmiş İohan Qerberin yazdığına görə Qaytaq dili kumık dili ilə bir qədər oxşarlığa malik idi, usminin özü və əyanlar isə türk və tatar dillərinin qarışığından ibarət dildə danışırdılar.[5] 1758-ci ildə vəfat etmiş Hüseynəli xanın yerinə keçmiş oğlu Fətəli xan olduqca ağıllı bir dövlət xadimi, bacarıqlı sərkərdə və diplomat idi. Yeritdiyi uzaqgörən siyasət nəticəsində qonşu xanlıqların əhalisi içərisində də nüfuz qazanmışdı və bəziləri ona

---

[1] Самуил Гмелин. Путешествие по России..,ч.3, половина 1-ая, s.25.
[2] Петр Валуев. Фатали-хан Кубинский. Баку: Изд-во АзФАН,1942,сс.3-4
[3] РГВИА, ф.846,оп.16,д.18474,лл.21-22
[4] Евгений Козубский.Göst.əsəri,s.91
[5] Иоганн Гербер.Описание..,с.83

əhalini məşəqqətdən xilas edəcək bir şəxsiyyət kimi baxır, ondan yardım umurdular.

Dərbəndi tutmağı planlaşdıran Fətəli xan bu şəhərin sakinlərinin yerli xandan narazılığından istifadə etmək qərarına gəldi. Dərbəndlilər öz nümayəndələrini Fətəli xanın yanına göndərərək onları himayəsi altına almağı xahiş etdilər.[1] Dərbənd məmurları və feodallarının bir hissəsi də Quba xanlığına birləşməyi arzulayırdılar.[2] İri feodallar isə öz hakimiyyətlərini və imtiyazlarını itirmək istəməyərək Quba xanlığına birləşməyin əleyhinə idilər.[3] Fətəli xan Məhəmməd Hüseyn xandan narazı olan Dərbənd sakinləri ilə gizli əlaqə yaratdı.

Qonşu Dağıstan hakimlərinin də Dərbənddə gözü olduğunu nəzərə alan Fətəli xan bu şəhərə hücum etməzdən əvvəl onların bir hissəsini öz tərəfinə çəkmək qərarına gəldi. Şamxal Murtuzəli, Qaraqaytaq usmisi Əmir Həmzə və Tabasaran kadisi ilə anlaşdı.[4] Əmir Həmzə Dərbənd xanı ilə sıx əlaqədə olduğundan uzun müddət Fətəli xanla razılığa gəlməmişdi. Lakin gözlənilmədən Əmir Həmzə ilə Məhəmməd Hüseyn xan arasında müəyyən məsələ ilə bağlı olaraq ixtilaf yarandı, Fətəli xan bundan istifadə etdi. Müttəfiqlər Dərbəndə birgə hücum etmək qərarına gəldilər.[5]

Böyük strateji əhəmiyyətə malik Dərbənd xanlığına qonşu Dağıstan hakimlərinin də Dərbəndə maraqları olduğundan oranın zəbt edilməsi Quba xanlığının əleyhinə düşmən koalisiyasının

---

[1] Иоганн Гербер.Описание.., s.215.
[2] Иван Березин.Путешествие по Дагестану и Закавказье..,ч.1,с.12;Евгений Козубский.Göst.əsəri,s.44
[3] Назим Магомедов.Дербент и Дербентское..,с.29
4 Петр Бутков.Göst.əsəri,I hissə,s.250
[5] Гаси Абдуллаев.Из истории Северо-восточного Азербайджана в 60-80-е гг. XVIII века.Баку:1958,с.39

yaranmasına səbəb ola bilərdi. Bir yandan da Quba xanlığı ilə Şamaxı xanlığı arasında düşmən münasibətlər olduğundan çox ehtiyatlı hərəkət etmək lazım idi. Fətəli xan Dərbənd bəyləri ilə gizli əlaqə yaratdı, onlara hədiyyələr göndərdi. Bəylərin bir hissəsi Qubaya köçdülər. Bu yolla Dərbənddə özünə xeyli tərəfdar qazanan Fətəli xan əvvəlcə Dərbənd xanlığının Ulus mahalını ələ keçirdi. Daha sonra isə Dərbənd qalasını mühasirəyə aldı. Fətəli xan Dağıstan feodallarının bir hissəsinə müəyyən güzəştlər vəd etməklə onları öz tərəfinə çəkdi. Tarki şamxalı, usmi Əmir Həmzə, Tabasaran kadisi isə ittifaq bağladı; Qazıqumuqlu Məhəmməd xanı isə bitərəfləşdirdi.[1]

A.A.Bakıxanov yazmışdır ki, 1759-cu ildə Məhəmməd Hüseyn xanın qardaşı Tahir bəyin təhqiramiz əməllərindən qəzəblənən dərbəndlilər gizlicə Fətəli xanın yanına getmiş, ondan kömək istəmişdilər, Fətəli xan qoşunla gələrək qısa müddətli mühasirədən sonra şəhəri tutdu.[2] Hacınski bu məsələ ilə bağlı yazırdı ki, Dərbənd xanından narazı olan Dərbənd bəyləri ilə Fətəli xanın gizli əlaqəsi hələ bir neçə il bundan əvvəl başlamışdır: "...onlara o qədər bəxşişlər verdi və nəzakət göstərdi ki, onların bəziləri Qubaya köçdülər. Fətəli xan onların vasitəsilə Dərbəndin özündə çoxlu tərəfdar əldə etdi və 1759-cu ildə güclü qoşun toplayıb şəhərə hərəkət etdi, ona tərəfdar dərbəndlilərin köməyi ilə şəhəri döyüşsüz ələ keçirdi. Mülkü əlindən çıxmış Məhəmməd Hüseyn xan Fətəli xanın əmri üzrə bütün ailəsi ilə Bakıya köçərək, ömrünün sonuna qədər orada yaşadı".[3]

Petros İvanov adlı bir ermәninin 1781-ci ilin noyabrında II Yekaterinaya yazdığına görə isə Fətəli xan Dərbənd xanı

---

[1] Гаси Абдуллаев.Из истории.., с. 89.

[2] Аббаскули Ага Бакиханов. Гюлистани-Ирам,с. 78

[3] İbrahim bəy Hacınski. Göst.əsəri,s.23.

Məhəmməd Hüseyn (keçmiş Dərbənd hakimi İmamqulu xanın oğlu) guya danışıq aparmaq adı ilə yanına çağırıb ələ keçirərək Bakıya kürəkəninin Məlik Məhəmməd bəyin yanına göndərib orada həbsxanaya saldırmışdı; Məhəmməd Hüseyn xanın azyaşlı oğlunu da Bakı həbsxanasına salmışdılar.[1] Bu məlumatda yanlışlıq nəzərə çarpır. Fətəli xan Dərbəndi tutanda hələ Bakı xanı ilə qohum deyildi.

Digər mənbələrdə Dərbəndin tutulması ayrı cür təsvir edilir. Fətəli xan üç dəfə Məhəmməd Hüseyn xanın yanına elçi göndərərək xoşluqla təslim olmasını təklif edibmiş, Məhəmməd Hüseyn xan isə sözdə razılığını bildirsə də[2] müdafiə olunmaqda davam edirdi. Dərbənd sakinləri Fətəli xanın elçisinə gizli surətdə bildirdilər ki, Fətəli xan heç nədən ehtiyat etmədən şəhərə girə bilər, onlar qala qapılarını açacaqlar. Ancaq Fətəli xan ehtiyat edərək əvvəlcə kiçik bir dəstə ilə Əmir Həmzəni şəhərə göndərdi, onun dalınca isə Quba qoşunları şəhərə daxil oldular.[3]

Məhəmməd Hüseyn xan qoşunları ilə Narınqalaya sığındı. Şəhərin cənub hissəsini ələ keçirən Fətəli xan yenə də Dərbənd xanına təslim olmasını təklif etdi. Uzun danışıqlardan sonra Məhəmməd Hüseyn xan onun həyatının toxunulmazlığına təminat verilməsi şərtilə təslim təklifini qəbul etdi.[4]

Belə bir məlumat var ki, Məhəmməd Hüseyn xan şəhəri Quba xanına vermək istəməyərək Əmir Həmzəyə təklif etmişdi ki, şəhəri onunla birgə idarə etsinlər. Lakin şəhər sakinləri buna kəskin etirazlarını bildirmiş, ticarət-sənətkar dairələrinin

---

[1] РГВИА, f.52, siy.1, iş.270, v.35.
[2] Назим Магомедов.Дербент и Дербентское…,с.51
[3] Yenə orada,s.52; Гаси Абдуллаев.Из истории..,сс.40-41
[4] Назим Магомедов.Дербент и Дербентское..,с.53

nümayəndələri bildirmişdilər ki, əgər şəhər usmiyə təslim edilsə onlar əldə silah Quba xanınım tərəfindən çıxış edəcəklər.[1]

Əmir Həmzə şəhər sakinlərinin ovqatını görüb separat danışıqlardan imtina etdi. Yalnız bundan sonra Məhəmməd Hüseyn xan şəhəri Fətəli xana təslim etdi. Fətəli xan Narınqalaya daxil olub buradakı sarayı öz iqamətgahına çevirdi. Məhəmməd Hüseyn xana isə şəhərin aşağı hissəsində yaşamağı və "farağat durmağı" əmr etdi.[2] Həsi Abdullyev Dərbəndin 1759-cu ilin noyabrında alındığını[3], Nazim Maqomedov isə 1760-cı ilin yanvarında alındığını yazır.[4] Biz Abdullayevin fikrini daha doğru sayırıq.

Məhəmməd Hüseyn xan həbs edilib, əvvəlcə Qubada saxlandı, sonra isə Salyana sürgün olundu və ömrünün sonuna kimi burada qaldı. Ölümündən sonra oğlu Əli bəyə Bakıda yaşamağa icazə verildi.[5]

Dərbəndi tutmaqda yardım göstərdiklərinə görə Quba xanlığının Qaracalı, İzaql (Zağlı-T.M.), Naburlu, Cici, Bəbəşli (və ya Bəbişli) kəndləri Tarki şamxalına, Dərbənd xanlığının Mollaqalıl (Mollaxəlil-?) adlı bölgəsi, həmçinin Dərbənd vergilərinin toplanması hüququ Qaraqaytaq usmisi Əmir

---

[1] Гаси Абдуллаев.Из истории..,с.41; Назим Магомедов.Дербент и Дербентское..,с.55-56

[2] Сара Ашурбейли. Очерк истории средневекового Баку. Баку: 1964, с.181

[3] Гаси Абдуллаев. Азербайджан во второй половине XVIII века. Труды Института истории АН Аз.ССР,том 14,Баку: Изд.АН Аз.ССР,1960,с.74; Гаси Абдуллаев.Азербайджан в XVIII.., с.204

[4] Назим Магомедов.Дербент и Дербентское.., с.34

[5] Аверян Серебров.Историко-географическое описание Дагестана. ИГ и ЭД,с..183

Həmzəyə, pul mükafatı isə Tabasaran kadisi Rüstəmə verildi[1]. Həm də Fətəli xan Əmir Həmzənin bacısı Tuti Bikə ilə evləndi.[2]

Usmi ona verilmiş imtiyazlardan çox istifadə edə bilmədi. Fətəli xan onun zərərli fəaliyyətindən xəbər tutub usmiyə verdiyi kəndləri və Dərbənd gömrükxanasının gəlirlərindən istifadə etmək hüququnu ondan aldı. Müvəqqəti (1768-ci ilədək) Mollaxəlilli kəndi usminin idarəçiliyində qaldı.[3]

Quba xanlığına birləşdirildikdən sonra Dərbənd bu xanlığın birinci siyasi və inzibati mərkəzinə çevrildi, Quba xanlarının mühüm strateji dayağı oldu.

Fətəli xan hakimiyyətini və mərkəzləşdirməni gücləndirmək üçün gömrük rüsumlarının toplanması qaydasını dəyişdi. Əvvəllər naib gömrük rüsumlarını toplayır və özü bildiyi kimi xərcləyirdisə, indi xan bu işi xüsusi məmurlara tapşırdı.[4]

Əmir Həmzə Dərbəndə yiyələnmək niyyətindən əl çəkmirdi. Qubada Fətəli xanın yanında qonaqlıqda olan usmi geri qayıdarkən Dərbənddə olduğu zaman Dərbəndin idarəçiliyinə məsul şəxslərdən biri olan İlyas bəylə gizli əlaqə yaradib öz tərəfinə çəkdi.[5] 1765-ci ildə İlyas bəy, Həsənqulu və Ziyadəli bəy başda olmaqla Dərbəndin mühafizəsinə məsul olan bir qrup Fətəli xana xəyanət edərək Əmir Həmzə ilə razılığa gəldilər və sonuncu qoşunu ilə Dərbəndə yaxınlaşdığı zaman qapıları açıb qalanı

---

[1] Аббаскулу Ага Бакиханов А. Göstr. əsəri. S.259; Azərbaycan tarixi (üç cilddə) I c., Bakı, 1961, s.363-364; История многовековых взаимоотношений и единения народов Дагестана с Россией. Махачкала: 2009,с.84

[2] История многовековых взаимотношений и единения народов Дагестана с Россией.Махачкала:2009(732 с.)??

[3] Назим Магомедов. Дербент и Дербентское..,с.63

[4] Гаси Абдуллаев. Из истории..,с.37-38

[5] Аверян Серебров. Историко-географическое описание Дагестана.ИГ и Э Дагестана...,с.183

təslim etdilər.[1] Usmi 2 minlik qoşunu ilə şəhərə daxil oldu və Narınqalada möhkəmləndi.[2]

Məmmədxan bəy və Hacı başda olmaqla bir qrup Əmir Həmzəyə tabe olmaqdan imtina etdi. Buna görə də onlardan 8 nəfər həbs olundu. Usmi Məmmədxan bəyi və Hacını edam etdirmək niyyətində idi.[3]

Lakin Əmir Həmzə Dərbənddə iki həftədən çox qala bilmədi. Fətəli xanın döyüşçüləri nərdivanlar düzəldib gecə yarısı Dərbəndin aşağı qalasının divarlarını aşdılar, usminin qoyduğu mühafizəçilərin bir hissəsini öldürdülər, digərlərini isə əsir götürdülər. Bundan sonra Fətəli xan Narınqalaya hücum etdi. Qaraqaytaqdan usminin qardaşının başçılığı ilə usmiyə yardım üçün gələn yeni qüvvələrin qarşısı alındı. Avar hökmdarı Mürsəl xan Fətəli xanla Əmir Həmzəni barışdırmağa cəhd göstərdi, İlyas bəyə aman verməsini istədi.[4] Fətəli xan İlyas bəyə aman verəcəyini vəd etsə də ,bir qədər sonra onun əmri ilə İlyas bəy qətlə yetirildi.[5] Usmi tərəfdarları ilə Dərbənddən qaça bildi.[6] Dərbəndin azad olunmasında Fətəli xanın müttəfiqi Tarki şamxalı mühüm rol oynamışdır. Tarki qüvvələri Qaraqaytaqa hücum etməklə buradan Əmir Həmzəyə yeni yardım göstərilməsinə mane olmuşdular.[7] Yenidən Dərbəndə daxil olan Fətəli xan xainləri sərt cəzalandırdı. İlyas bəy edam olundu.[8] Bu hadisədən

---

[1] РГВИА,ф.846,оп.1,д.18486,лл.6-8
[2] РГВИА,Ф.848,д.18846,л.8;Аверяи Серебров.Göst.əsəri,s.183
[3] Труды Института Истории АН Азерб.ССР, т.XIV. Баку: 1960,с.95; Гусейнбала Гусейнов. Краткая энциклопедия города Дербента. Махачкала: 2005, с.168
[4] РГВИА,ф.846,оп.д.18486,л.19
[5] Аверян Серебров.Göst.əsəri,s.184
[6] Гаси Абдуллаев. Азербайджан в XVIII веке..,с.252
[7] Yenə orada, 253
[8] Назим Магомедов. Дербент и Дербентское..,с.36

sonra Fətəli xan Əmir Həmzəni Dərbənd gömrükxanasının gəlirlərindən istifadə etmək hüququndan məhrum etdi.[1]

Fətəli xan hərbi cəhətdən xeyli gücə malik olan Əmir Həmzəni bitərəfləşdirmək üçün 1766-cı ildə onun bacısı Tuti Bikə ilə evləndi və öz bacısı Xədicə Bikəni də ona verməyi vəd etdi. Ancaq, bir müddət sonra öz vədini pozaraq bacısını Bakı hakimi Məlik Məhəmməd xana verdi.[2]

Fətəli xan xanlıq daxilində qardaşı Abdulla bəyin ətrafında cəmləşmiş mərkəzləşdirmə əleyhdarı olan bir qrup feodalla mübarizə aparmalı oldu. Abdulla bəy 1769-cu ildə xanlığın bölüşdürülməsini və bir hissəsinin ona verilməsini tələb etdi. Fətəli xan qardaşının təklifini qətiyyətlə rədd edib bildirdi ki, ona kiçik bir ərazi də verməyəcək.[3] Abdulla bəy Şamaxı feodalı, 1768-ci ildən Qubada həbsdə saxlanan keçmiş Yeni Şamaxı xanı Hacı Məmmədəli xanın oğlu Manaf bəylə birləşməyə cəhd göstərdi. Abdulla bəy Qubada tərəfdar tapmadığından Manaf bəyi də götürüb 30 nəfərlə Qaraqaytağa, usminin yanına getdi.[4] Lakin Tarki şamxalının müdaxiləsi Abdulla bəyə Qaraqaytaqda qüvvə toplayıb Fətəli xana qarşı çıxmağa imkan vermədi.[5]

Nazim Maqomedovun da düzgün olaraq qeyd etdiyi kimi, Fətəli xanın birləşdirmə siyasətinin əleyhdarları hüquq və imtiyazlarının məhdudlaşdırılması ilə barışa bilmirdilər, ona görə də Fətəli xana qarşı çıxaraq xarici qüvvələrlə əməkdaşlıq edirdilər.

---

[1] Аверян Серебров.Göst.əsəri,s.184

[2] İbrahim bəy Hacınski.Qubalı Fətəli xanın həyatı.Bakı:Azərb.SSR EA nəşriyyatı,1959,s.103

[3] Центральный Государственный Архив Республики Дагестан,ф. 379, оп.1, д.727,л.78

[4] Гаси Абдуллаев.Азербайджан в XVIII веке.., с.217; Самуил Гмелин. Путешествие.., ч.3,пол.1-ая,сс.22-23

[5] Назим Магомедов.Дербент и Дербентское..,с.37

Fətəli xanın adekvat tədbirləri əleyhdarlarınının məqsədlərinə çatmalarına imkan vermədi.[1]

Bu hadisələrdən bir qədər sonra Dərbənddə olmuş S.Qmelin Dərbənd sakinlərinin Fətəli xanı sevdiklərini yazırdı. Qmelin bunu da yazırdı ki, Fətəli xanın hakimiyyəti qeyri-məhduddur, onun gəlirlərinin dəqiq miqdarını müəyyənləşdirmək mümkün deyil, çünki o, vergiləri şəraitə uyğun təyin edir.[2]

Dərbənd xanlığı Quba xanlığına birləşdirildikdən sonra, yuxarıda qeyd etdiyimiz kimi, bəzi kəndlərin qonşu Dağıstan feodallarına verilməsi səbəbi ilə ərazi cəhətdən xeyli azalmışdı. Buna baxmayaraq, Fətəli xan və onun varisləri Dərbənd şəhəri və bölgəsinə xüsusi önəm verirdilər. Xanlar yayda Qubada, qışda isə Dərbənddə yaşayırdılar. Səyyah Marşal Biberşteyn qeyd edirdi ki, Fətəli xan və onun xələfləri Dərbəndə həmişə özlərinin ən mühüm mülkləri kimi baxırdılar, bura onların əsas iqamətgahları idi.[3] Xanlar yayda Qubada, qışda isə Dərbənddə yaşayırdılar. Xanlar adətən Dərbənddə, şəhərin yuxarı hissəsində, yəni Narınqalada yaşayırdılar.

Quba xanlarına tabe olduğu dövrdə keçmiş Dərbənd xanlığının ərazisində iki mahal mövcud idi: Dərbənd və Ulus Dərbənd şəhərinin də daxil olduğu Dərbənd mahalı naib Qədir bəy tərəfindən idarə olunurdu. Dərbənd şəhərində 2180 ev, Dərbənd mahalının 6 kəndində isə 265 ev vardı. Ulus mahalı da

---

[1] Назим Магомедов. Дербент и Дербентское..,с.37

[2] Yenə orada,c.38

[3] Маршал фон Биберштейн. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. 1798. Пер.с немец.яз. С.Саламовой. Научный Архив Института истории НАН, инв.466, 467, л.3

adı xatırlanan Qədir bəy tərəfindən idarə olunurdu və 780 evi olan 15 kənddən ibarət idi.[1]

Fətəli xan Dərbənd şəhərini tutandan sonra iqtisadi cəhətdən çox zəngin olan Bakı xanlığını ələ keçirmək qərarına gəldi. Bakı xanlığı hərbi cəhətdən zəif idi və cəmi 500-1000 nəfər döyüşçüsü vardı. Nikah diplomatiyasından istifadə edən Fətəli xan Bakı xanlığını dinc yolla öz nəzarəti altına aldı. 1767-ci ildə Fətəli xan bacısı Xədicə Bikəni Mirzə Məhəmməd xanın vəliəhdi və o dövrdə Bakını idarə edən oğlu Məlik Məhəmməd bəyə verdi. Mənbələrin verdiyi məlumata görə görə Fətəli xan əvvəlcə Xədicə Bikəni qaynı Əmir Həmzəyə söz verib, sonra sözünə əməl etmədiyindən qəzəblənən Əmir Həmzə Dərbəndi ələ keçirib Narınqalada möhkəmlənmişdi. Yalnız Avar xanının vasitəçiliyi ilə Əmir Həmzə Dərbəndi tərk etmişdi və əvəz kimi Molla Xəlilli kəndini almışdı. Dövrünün ağıllı qadınlarından biri olan Xədicə Bikə qardaşının məsləhətləri ilə Bakı xanlığının idarəçilik işlərinə qarışır, həmişə Quba xanlığının xeyrinə çalışırdı. Tarixi mənbələrin verdiyi məlumata görə, Məlik Məhəmməd xan müxtəlif işlərlə bağlı Bakıdan çıxdıqda xanlığı Xədicə Bikə idarə edirdi. Məsələn, əri iki il Qarabağ xanının əsiri olduğu vaxt, habelə Məkkəyə ziyarətə getdiyi zaman bu igid və bacarıqlı qadın Bakını idarə etmişdir.[2] Fətəli xan 1780-ci ildə Məlik Məhəmmədin oğlu Mirzə Məhəmmədi Bakı xanı elan etmiş, Məlik Məhəmmədin anası Xədicə Bikə isə qəyyum olmuşdu.[3]

Fətəli xana rəsmən müraciət edənlər onu "Quba, Dərbənd, Bakı və Salyan rəisi" adlandırır, Rusiya dövlətinin nümayəndəsi

---

[1] Серебров [Аверьян], майор. Описание Кубинского ханство.ИГ ЭД, С. 201-202; РГВИА, ф. 846, оп. 16, д. 18414, л. 88; Гаси Абдуллаев. Из истории…, с. 91

[2] Гаси Абдуллаев. Азербайджан в XVIII веке, с. 210.

[3] Аббаскули Ага Бакиханов.Göst. əsəri, s.164.

ilə imzaladığı ticarət öhdəyində onun adı “Quba, Dərbənd və Bakı hakimi” kimi yazılmışdı.[1]

Xədicə Bikəni Məlik Məhəmməd xana verməklə Bakı xanlığını özündən asılı vəziyyətə salan Fətəli xan əvvəllər Xədicə Bikəni arvadı Tuti Bikənin qardaşı Qaraqaytaq usmisi Əmir Həmzəyə vəd etdiyindən Quba xanının barışmaz düşməninə çevrildi.[2]

Bakı xanlığını özündən asılı hala saldıqdan sonra Fətəli xan Şamaxı və Cavad xanlıqlarını birləşdirmək uğrunda mübarizəyə başladı. Quba və Şamaxı xanları arasında mübarizə hələ Quba xanının Dərbəndə hücumundan əvvəl başlamışdı. O zaman Şamaxı ərazisində iki xanlıq mövcud idi. Biri mərkəzi Köhnə Şamaxı şəhəri olan və Sərkərlər sülaləsinin başçılıq etdiyi, digəri isə mərkəzi Yeni Şamaxı olan və Hacı Məhəmmədəli xanın başçılıq etdiyi xanlıq. Hacı Məhəmmədəli xan Quba ilə müttəfiqlik münasibətində, sərkərlər isə düşmən münasibətdə idilər. 1758-ci ildə Hüseynəli xanın vəfatından istifadə edən sərkərlərin hərbi dəstəsi Quba xanlığının Bərmək mahalına basqın edib oranı talan etmiş və 200 ailəni özü ilə Şamaxıya aparmışdı.[3] Bu zaman atasının dəfni ilə məşğul olan Fətəli xan həmin hadisədən atasının vəfatının yeddinci günü xəbər tutmuş, xanlıq taxtına çıxmaq mərasimini yüngülcə keçirib, qoşun toplayıb şamaxılılara qarşı hərəkət etmişdi. Şamaxılı Məhəmməd Səid xan Fətəli xanı sərhəddə qarşılanmış, baş verən vuruşmada Məhəmməd Səid xanın qardaşı Ağa Razi bəy həlak olmuş, qalib gələn Fətəli xan

---

[1] Yaqub Mahmudov, Kərim Şükürov. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi.1639-1828.I cild.Bakı: 2009, s. 263

[2] Гаси Абдуллаев. Азербайджан в XVIII веке, с.209

[3] Yenə orada,s. 214.

geri dönərkən bir çox ailəni Şamaxı xanlığından Qubaya köçürmüşdu.[1]

Dərbənd birləşdirildikdən və Bakı xanlığı asılı vəziyyətə salındıqdan sonra Quba xanlığı xeyli güclənmişdi. Fətəli xan Şamaxı xanından onun ərazisini dağıstanlıların hücumlarından qoruduğu üçün müəyyən məbləğdə pul tələb etmiş, lakin rədd cavabı almışdı.[2] Nəticədə 1765-ci ildən 1769-cu ilədək davam edən qanlı mübarizə başlandı. Şəkili Hüseyn xanın Şamaxı xanlarına kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu. Buna görə Fətəli xan hiylə işlədib Hüseyn xanla Məhəmməd Səid xanın arasını vurdu və Hüseyn xan Fətəli xanla müttəfiq oldu. 1768-ci ilin mayında bir tərəfdən Fətəli xanın, digər tərəfdən isə Hüseyn xanın qoşunları Şamaxı xanlığının ərazisinə daxil oldular. Xanlığın bütün ərazisi tutuldu və Şamaxı şəhərinin özü mühasirəyə alındı. 1768-ci ilin iyun ayında Şamaxı şəhəri təslim oldu.[3] Bu zaman Məhəmməd Səid xan və Ağası xan qardaşları Fətəli xana yox, Hüseyn xana təslim olmağı üstün tutdular. Fətəli xan Hüseyn xana cavan və enerjili Ağası xanın gözlərini çıxartmağı, daha yaşlı Məhəmməd Səid xanı isə həbs etməyi məsləhət gördü. Ağası xanın gözləri çıxardıldı, o zaman 60 yaşı olan Məhəmməd Səid xan isə azacıq sonra azadlığa buraxıldı.[4]

Şamaxı xanlığının ərazisi Fətəli xanla Hüseyn xan arasında bölüşdürüldü. Sədari və Qəsari mahalları yeni Şamaxı ilə birlikdə Şəki xanına, xanlığın yerdə qalan hissəsi isə Köhnə Şamaxı ilə birlikdə Quba xanına çatdı. Bu yerlərin idarə olunması

---

[1] İsmayıl bəy Hacinski. Qubalı Fətəli xan (Tərcüməçi F. Babayev). Bakı -1959, s. 8-9

[2] Петр Бутков. Материалы для новой истории.., ч.1,с.253

[3] АВПРИ, ф.77, siy.1, 1768-ci il, iş 17, v.84

[4] Гаси Абдуллаев.Азербайджан..,с.22

üçün onlar öz naiblərini təyin etdilər.[1] Bir müddət sonra Fətəli xan Şamaxı xanlığının Hüseyn xanın payına düşən hissəsinə nəzarəti də öz əlinə aldı.[2]

Gözləri çıxarılmış Ağası xan isə 1769-cu ildə Qarabağa qaçdı[3] və Hüseyn xanın himayəsindən istifadə edərək Kür çayının sahilində Kotevan (P.Q.Butkov buranın adını "Elevli" kimi yazır-T.M.) adlı yerdə məskən salıb[4], Şəki, Qarabağ, Avar və digər xanlıqların köməyi ilə 16 il ərzində buradan şimali-şərqi Azərbaycan torpaqlarına basqınlar etmiş və Şamaxıda öz hakimiyyətini bərpa etməyə çalışmışdır.[5]

Fətəli xan 1768-ci ildən Dərbənddə sürgündə saxladığı Məhəmməd Səid xanı 1775-ci ildə yenidən Şamaxıya hakim təyin etdi və o,10 il yenidən, ancaq Fətəli xandan asılı vəziyyətdə xan titulu idarə etdi. Sonra Fətəli xan bu vəzifəyə kürəkəni, Məhəmməd Səid xanın oğlu olan Məhəmməd Rza bəyi təyin etdi. 1786-cı ildə isə Fətəli xan Sərkərlər sülaləsini tamamilə ləğv etdi və Şamaxını təyin etdiyi canişin vasitəsilə idarə etməyə başladı.[6] Şamaxı xanlığının birləşdirilməsi ilə təxminən eyni vaxtda 1768-ci ildə Kür və Araz çaylarının qovuşduğu yerdə yerləşən, çox da böyük olmayan Cavad xanlığı könüllü surətdə Fətəli xandan asılılığı qəbul etdi.[7]

Şamaxını özünə tabe etdikdən sonra Fətəli xan faktiki olaraq Şimal-Şərqi Azərbaycanı vahid dövlət çərçivəsində birləşdirməyə nail oldu. O, həmçinin Şəki, Qarabağ, Gəncə və

---

[1]Аббаскули Ага Бакиханов. Göst. əsəri s.160.
[2]Tofiq Mustafazadə. Quba xanlığı, s.111-112
[3]Петр Бутков. Göst.əsəri,II his.,s323
[4]Аббаскули Ага Бакиханов.Göst.əsəri, s.161
[5] Гаси Абдуллаев. Азербайджан в XVIII веке, с. 264.
[6]Yenə orada, s.269-271, Петр Бутков П. Göst. əsəri I hissə., 523.
[7] Гаси Абдуллаев.Азербайджан в XVIII..,с.231

digər Şimali Azərbaycan xanlıqlarını, daha sonra isə Cənubi Azərbaycan torpaqlarını birləşdirmək niyyətində idi. Lakin Fətəli xanın birləşdirmə siyasəti böyük maneələrlə üzləşirdi. Bir tərəfdən öz hakimiyyətini itirmək istəməyən xanlar müqavimət göstərir, digər tərəfdən Dağıstan hakimləri və gürcü çarı II İrakli Fətəli xanın çox güclənməsini istəmədiyindən ona qarşı çıxırdılar. Rusiya imperiyası da Fətəli xanın yalnız müəyyən həddə kimi güclənməsini istəyir, Azərbaycanın birləşdirilməsini gələcəkdə bu ölkənin işğalına maneə yaradacağını düşünərək buna qarşı çıxırdı.

Quba xanlığının güclənməsi qonşu feodal hakimlərini narahat etdi. Qarabağ və Şəki xanları, Cənubi Dağıstan hakimləri daha çox təlaş keçirirdilər. Quba xanlığına qarşı iki düşmən blok yarandı: birinə Şəki və Qarabağ xanları, sonradan həm də Şamaxıdan qovulmuş Ağası xan daxil idi. Digərinə Qaraqaytaq usmisi Əmir Həmzə, Qazıqumuxlu Məhəmməd xan, avar xanları Mürsəl ( Nutsal) və Ömər (Ümmə), Tabasaran kadisi Rüstəm, Canqutaylı Əli sultan, Dişsiz Məhəmməd, Tavlin hakimləri, Kostyukovlu Həmzə Əlişov daxil idi. Əndəri feodalları Temuf Həmzə, Əmirsultan Kazanalınov və başqaları da onlara yardım edirdilər.[1]

Mürsəl xan Fətəli xana qarşı sonuncu Dərbənd əyanı İlyas bəyi edam etdiyinə görə daha çöx qəzəbli idi.[2] O, nəinki Fətəli xana, eləcə də onun Dağıstandakı müttəfiqi şamxal Murtuzəliyə zərbə endirmək istəyirdi. Şamaxıdan qaçıb Elevlidə məskən salmış Ağası xan da ona qoşuldu. 1773-cü il noyabrın sonu-dekabrın əvvəllərində Şəki, Avar Qarabağ xanlarının və Qubaya düşmən digər feodal hakimlərinin birləşmiş qüvvələri Şamaxıya

[1] Петр Бутков.Материалы..,ч.2, с.510.
[2] Yenə orada,s.17.

hücum etdilər. Fətəli xan qüvvəsi az olduğundan Şamaxını tərk etməli oldu. Baş verən toqquşmada Fətəli xanın müttəfiqi olan Şahsevən tayfa başçısı Həsən xan həlak oldu.[1]

Fətəli xan məğlubiyyətlə barışmayaraq Aquşa, Tabasaran, Dərbənd və Qubadan çoxlu qüvvə toplayıb (P.Q.Butkova görə - 20 min[2]) Şamaxı xanlığı ərazisində düşmənlərini məğlubiyyətə uğratdı. Avar hakimi Mürsəl xan həlak oldu. Ağası xan Elevliyə qaçdı.[3]

1774-cü ildə Əmir Həmzənin başçılğı ilə Dağıstan hakimlərinin qüvvələri Qubaya doğru hərəkət etdilər və Xudatın yaxınlığındakı Gavduşan düzündə həlledici döyüş oldu. Fətəli xan yaralandı və məğlubiyyətə uğrayıb Salyana çəkildi.[4] Əmir Həmzə Dərbəndə yaxınlaşaraq şaiyə yaydı ki, guya Fətəli xan həlak olmuşdur. O, həlak olmuş Dişsiz Məhəmmədin cənazəsini Fətəli xanın cənazəsi kimi qələmə verərək bu zaman Dərbəndi idarə edən bacısı, eyni zamanda Fətəli xanın zövcəsi olan Tuti Bikədən Dərbənd qapılarının açılmasını istədi. Lakin Tuti Bikə qardaşının hiyləsini anladı və qala qapılarını açmadı. Əmir Həmzə Dərbəndi hücumla ala bilməyərək mühasirəyə aldı.[5] Dərbəndin müdafiəsində şəhərin naibi Həsən bəy də fərqlənirdi. Mühasirənin uzanmasından istifadə edən Fətəli xan dəniz vasitəsilə Dərbəndə gəldi və qalanın müdafiəsinə başçılığı öz əlinə aldı.[6]

Mühasirə uzandı, Dərbəndi və ətrafını aclıq bürüdü. Quba xanının müttəfiqi Tarki Şamxalının qoşunları, buynaklılar bir

---

[1] АВПРИ,ф.77, оп. 6, д.647, л.3 и об.
[2] Петр Бутков.Материалы..,ч.2,с.17.
[3]İbrahim dəy Hacinski. Göst. əsəri, s.12-13, s.225.
[4]Аббаскули Ага Бакыханов. Göst. əsəri, s.162.
[5]Петр Бутков. Материалы..,ч.1,с.19.
[6]Yenə orada.

neçə dəfə Dərbəndin mühasirəsini yarmağa cəhd göstərsələr də buna nail ola bilmədilər.

Fətəli xan hələ Salyanda olarkən dərbəndli Mirzə Bayatı kömək və himayə xahişi ilə Peterburqa II Yekaterinanın yanına göndərdi. İmperatriçə bir neçə piyada və topçu alayının Qara-qaytaq usmisinə qarşı göndərilməsini Qafqaz xəttindəki rus qoşunlarının komandanı general de-Medemə əmr etdi. II Yekaterina bununla həm də rus akademiki S.Qmelini həbs etdiyinə və sonuncu həbsxanada öldüyünə görə cəzalandırmaq istəyirdi. Əmri yerinə yetirən de-Medem 1775-ci ilin martında Əmir Həmzənin mülklərinə qoşun yeritdi. Əmir Həmzə Dərbəndin mühasirəsindən əl çəkib de-Medemə qarşı çıxdı, lakin məğlubiyyətə uğradı. Fətəli xan de-Medemə Dərbəndi tutmağı və onu Rusiya himayəsinə qəbul etməyi təklif etdi. De-Medem Dərbəndə daxil oldu.[1]

De-Medemin başçılığı ilə rus hərbi hissəsinin Dərbəndə daxil olması Türkiyədə böyük narahatlıq doğurdu. Osmanlı sarayında hesab edirdilər ki, Rusiya bu hərəkəti ilə yenicə bağlanmış Kiçik Qaynarca sülh müqaviləsini pozmuşdur.[2] Osmanlı vəziri Rusiyanın Cənubi Dağıstandakı niyyətləri barədə rəsmi sorğu verdi.[3] Osmanlılarla münasibətləri yenidən kəskinləşdirmək istəməyən II Yekaterina geri çəkilməli oldu və Dərbənddə saxlanan kiçik rus hərbi dəstəsinin çıxarılmasını əmr etdi.[4]

Tədricən öz gücünü bərpa edən Quba xanı itirdiyi əraziləri geri aldı və öz mövqelərini möhkəmləndirdi.

---

[1] Tofiq Mustafazadə. Quba xanlığı, s.127.

[2] АВПРИ,ф.77, оп.6,д. 478,л.104.

[3] Yenə orada, f.77,siy.6,iş 443,v.47-48; Гаси Абдуллаев Г.Азербайджан в XVIII..,c.531.

[4] Гаси Абдуллаев.Азербайджан в XVIII..,cc.532-535; Ольга Маркова. Göst.əsəri,s.157.

Lakin rus hərbi hissəsinin Dərbəndə daxil olması Osmanlı hakim dairələrində böyük narahatlıq doğurmuşdu. Osmanlılarla münasibətləri yenidən kəskinləşdirmək istəməyən rus hökuməti geri çəkilməli oldu. II Yekaternanın göstərişi ilə rus hərbi dəstəsi Dərbəndi tərk etdi.[1]

Eyni zamanda rus komandanlığının tələbi ilə Əmir Həmzə və Tabasaran kadisi Rüstəm 1776-cı ıı aprelin 17-də Fətəli xanla münasibətləri normallaşdırmaq haqqında öhdəlik götürdülər.[2] Ancaq, mayın 5-də Əmir Həmzə və Rüstəm Qızlar komendantı İ.İ.Ştenderə yazırdılar ki, onlar Fətəli xanla barışmaq istəyirlər, lakin Fətəli xan bununla razılaşmır və Tabasaranın işlərinə qarışır.[3] Sonda Əmir Həmzə və Fətəli xan barışdılar. Müəyyən bir iş üçün Dərbəndə göndərilmiş Həştərxan qoşunu mirzəsi Y.Canbulatov 1777-ci il noyabrın 17-də Qızlar komendantı İ.D.Zametaevə yazırdı ki, o, Dərbənddə olarkən Əmir Həmzə və Fətəli xanın barışdıqlarını və hətta dost olduqlarını eşitmişdir. Onlar Şamaxı xanının yanına nümayəndə göndərərək Şəki xanına xərac verməməsini, həmin xəracın onlara verilməsini tələb etmişdilər.[4]

Fətəli xanın dağınıq Azərbaycan torpaqlarını birləşdirmək siyasəti yalnız qonşu xanlıqların deyil, həm də gilanlı Hidayət xanın müqavimətinə rast gəlirdi. Hidayət xan 1778-ci ildə Fətəli xanın himayəsində olan Cavad xanlığına basqın edib Cavad şəhərini dağıtdı.[5]

Qarabağlı İbrahimxəlil xan da Azərbaycan torpaqlarını öz ətrafında birləşdirməyə çalışırdı və buna görə də Fətəli xana qarşı

---

[1]Tofiq Mustafazadə. Quba xanlığı,s.127-128.
[2] АВПРИ, ф.77, оп.6.1776-1777 гг.,д.478, л.58.
[3]Yenə orada,v.57.
[4] ЦГА РД,ф.379,оп.1,д.1055,лл.83-84.
[5] АВПРИ ф.77, оп.6, 479 (1776-178), л.155, д.481, л.222.

çıxırdı. Lakin Fətəli xan iki xanlıq arasında sülhə nail olmaq istədi və bu məqsədlə kürəkəni, Bakı xanı Məlik Məhəmməd xanı 1779-cu ildə Şuşaya göndərdi. Lakin İbrahimxəlil xan Məlik Məhəmməd xanın səmimiliyinə inanmayıb onu zindana atdı və Bakı xanı iki il Şuşa həbsxanasında qaldı. 1781-ci ildə Məlik Məhəmməd xan Nəcəfə ziyarətə getdi və orada vəfat etdi. Onun 11 yaşlı oğlu II Mirzə Məhəmməd xan taxta çıxdı, Fətəli xan isə bacısı oğlunun qəyyumu oldu.[1]

1780, 1781 və 1783-cü illərdə Fətəli xan Qarabağa yürüşlər etdi, lakin İbrahimxəlil xanı sarsıdıcı məğlubiyyətə uğrada bilmədi.[2]

Fətəli xan nəzərlərini Azərbaycanın cənubuna da dikmişdi. O, öz yanında qondarma bir şahzadəni- "Abbas Mirzəni" saxlayır, onu şah taxtına oturtmaq, bu yolla əslində bütün keçmiş səfəvi ərazilərinə nəzarəti əlinə almaq istəyirdi. Lakin rus hökuməti özü Cənubi Qafqaz, ilk növbədə Azərbaycanı ələ keçirmək niyyətində olduğundan burada vahid dövlətin yaranmasını gələcək planlarına əngəl sayırdı. Buna görə də 1784-cü ildə Fətəli xan cənuba yürüş edib, Ərdəbili döyüşsüz tutsa da Rusiyanın tələbi və Dağıstan hakimlərinin onun mülklərini hədələmələri səbəbilə geri dönməli oldu.[3]

1783-cü ildə Kartli–Kaxeti çarlığı ilə Georgiyevck traktatını imzalayıb onu himayəsi altına alan Rusiya Qafqazda ekspansionist səylərini gücləndirdi və Fətəli xana münsibətdə də təzyiq diplomatiyasına keçdi. Qafqaz xəttindəki rus qoşunlarının komandanı general P.S.Potyomkin hətta bir arada Fətəli xana qarşı hərbi əməliyyatlar açmaq, Dərbəndi tutaraq, xan və ailəsini

---

[1] Аббаскули Ага Bakıxanov. Göst. əsəri, s.165.
[2] Tofiq Mustafazadə. Quba xanlığı, s.142-143.
[3] АВПРИ,ф.77,оп.6, д.479, л.156; д.481,л.222 об.

həbs etmək niyyətində idi. O, 1786-cı ildə erməni S.Davıdova rus təbəəliyinə can atanları himayəyə almaq üçün Dərbəndə 6 alay göndərəcəyini vəd etmişdi.[1] Doğrudur rus komandanı bu məkrli niyyətini həyata keçirmədi, bu hər şeydən əvvəl Osmanlıya qarşı yeni cəbhə açmamaq üçün 1787-ci ildə rus qoşunlarının Gürcüstandan çıxarılması ilə izah oluna bilər. Belə bir şəraitdə rus komandanlığı Fətəli xanla münasibətləri yaxşılaşdırmağa üstünlük verdi.

1789-cu ilin əvvəllərində Şəmkir çayın sahilində gürcü çarı II İrakli ilə görüşü zamanı Fətəli xan qəfil xəstələndi, geri dönərkən Bakıda vəfat etdi.[2] Fətəli xanın ölümündən sonra onun yaratdığı şimali-şərqi Azərbaycanın dövlət birliyi dağıldı. Fətəli xanın oğlanları Əhməd xan (1789-1793) və Şeyxəli xan (1793-1811) yalnız Qubanı və Dərbəndi öz hakimiyyətləri altında saxlaya bildilər.

## 2.3.Dərbənd şəhəri Şeyxəli xanın hakimiyyəti dövründə

1791-ci ildə Əhməd xanın ölümündən sonra xan taxtına onun 13 yaşlı qardaşı, o vaxtlar Salyanda naib olan Şeyxəli ağa yiyələndi. O,Şimal-Şərqi Azərbaycanın azadlıq mübarizəsinə başçılıq etmiş, illər boyu rus işğalına qarşı vuruşmuş, xalqımızın qəhrəmanları arasında layiqli yer tutmuşdur.

Şeyxəli xanın hakimiyyəti dövründə Qafqaz və onun ətrafında olduqca mürəkkəb hadisələr cərəyan edirdi. Bir tərəfdən isti dənizlərə çıxış uğrunda Rusiyanın Qafqaza ekspansiyasının güclənməsi, digər tərəfdən Ağa Məhəmməd xan Qacarın 1790-cı

[1] Евгений Козубский. Göst. əsəri, s.104-105.
[2] Аббаскули Ага Бакиханов. Göst.əsəri,s.169.

illərdə Azərbaycanın şimal xanlıqlarını zəbt etmək yolunda fəaliyyəti müşahidə olunurdu.

Azərbaycan xanlarının heç birinin ölkənin birləşdirilməsinə nail olmadıqları və xanlıqlar arasında müharibələr geniş vüsətlə davam etdiyi bir zamanda əslən Azərbaycan türkü olan Ağa Məhəmməd xan Qacar İran və Azərbaycanın cənubunu əhatə edən vahid dövlət yaratmaq üzrə idi. Qacar şimal xanlıqlarını da tabe etmək niyyətində idi.

1795-ci ilin yayında Ağa Məhəmməd xan 80-85 minlik ordusunu 3 hissəyə bölüb şimala yönəltdi. Əliqulu xan Şahsevən İrəvan qalasının üzərinə hərəkət etdi. Ordunun digər hissəsi Lənkəran xanlığına daxil oldu. Ağa Məhəmməd xanın özünün başçılıq etdiyi əsas hissə isə Arazı keçib Qarabağ xanlığının mərkəzinə doğru irəlilədi. 1795-ci il iyunun axırlarında Şuşa qalası mühasirəyə alındı. İbrahimxəlil xan müdafiəyə yaxşı hazırlaşdığından qalanı almaq mümkün olmadı. Qacarın əsas məqsədlərindən biri Şərqi Gürcüstanı yenidən tabeçiliyə məcbur etmək idi. Şuşanın mühasirəsinin uzanması isə gürcü çarı II İrakliyə müdafiəyə daha yaxşı hazırlaşması və Rusiyadan hərbi yardım alması üçün imkan verirdi. Buna görə də Ağa Məhəmməd xan Şuşanın təslim olmasını gözləmədən şəhər ətrafını tərk edib avqustun əvvəllərində Gürcüstana tərəf yola düşdü. II İraklini Tiflis yaxınlığında darmadağın edən Ağa Məhəmməd xan sentyabrın 12-də Tiflisi tutub yandırdı.[1] Bundan sonra Qacar qışı keçirmək üçün qoşunlarını Muğan çölünə topladı.

Rəsmən Rusiyanın himayəsində olan gürcü çarlığına Qacarın hücum etməsi Rusiyanın regiondakı nüfuzuna böyük zərbə idi. Buna görə də Qacarı cəzalandırmaq və Cənubi Qafqazı

[1]Ольга Маркова. Göst.əsəri,s.288.

işğal etmək üçün rus hökuməti 1796-cı ilin aprelində 30 minlik bir ordunu general V. Zubovun başçılığı ilə regiona göndərdi.

Hələ Zubovun başçılığı ilə əsas qüvvələrin hərəkət etməsindən əvvəl 1795-ci ilin dekabrında general Savelyevin komandası altında 3 piyada taboru, bir kazak eskadronu, 250 kazak, 500 kalmık, 6 səhra topundan ibarət hərbi qüvvə ilə Qızlardan Dərbənd istiqamətinə yola düşmüşdü.[1]

Quba xanlığının ərazisinə daxil olan Savelyev Şeyxəli xanın yanına elçi göndərib Ağa Məhəmməd xana qarşı müdafiə ittifaqı bağlamaq üçün nümayəndə göndərməsini tələb etdi. Şeyxəli xan isə cavabında bildirdi ki, əvvəla rus qoşunlarının şəhərə buraxılmasına dair imperator fərmanını görmür. İkincisi, doğrudur o, əvvəllər Ağa Məhəmməd xana qarşı müqavimət göstərmək üçün yardım istəmişdir. Ancaq indi Qacarın gücünü görür və yəqindir ki, azsaylı rus dəstəsi ona müqavimət göstərə bilməyəcək. Belə azsaylı dəstəni Dərbəndə buraxsa həm özünü, həm də rus dəstəsini təhlükəyə atmış olacaq. Rus qoşununu Dərbəndə buraxmamağı  Şeyxəli xan həm də belə əsaslandırırdı ki, buna razılaşsa rus əsgərlərini sakinlərin evlərində yerləşdirməli olar ki,buna şəriət yol vermir.[2]

Savelyevin Dərbəndə göndərdiyi mayor Axverdovu xan geryə buraxmadı və onunla pis rəftar edildi. Hətta Axverdovu Qacarın düşərgəsinə göndərmək istəyirdi. Lakin Qaytaq usmisi Şeyxəli xana bunu məsləhət görmədi və nəhayət Axverdov geri buraxıldı.[3]

---

[1] Петр Бутков. Материалы.., ч.II,с .349.

[2] Николай Дубровин.История войны и владычества русских на Кавказе.т.3 ,СПб.:1886,с.97.

[3] Yenə orada,s.98.

Savelyevin dəstəsi Dərbəndə yaxınlaşdıqda Şeyxəli xan ona qarşı süvari dəstəsi göndərdi və rus kazaklarına atəş açıldı. Saveiyev bir qədər geri çəkildi və şəhərdən iki verst məsafədə düşərgə saldı. Ertəsi günü Savelyev şəhərə hakim olan yüksəkliyi tutdu və burada şəhər divarından 200 sajen aralıda top batereyaları qurdu. Batereyalar işə düşdükdən sonra Şeyxəli xan Ağa Məhəmməd xandan yardım alanadək vaxt qazanmaq məqsədilə danlşıqlara başlamağı təklif etdi. Savelyev Şeyxəli xanın niyyətini anlasa da danışıqlara başladı, eyni zamanda ikinci batereyanı quraşdırdı. Ağa Məhəmməd xanın yardım göndərməkdən imtina etməsi məlum oldu.[1]

Şeyxəli xan qazıqumuqlu Xanbutay xandan və digər qonşu Dağıstan hakimlərindən yardım aldı və Dərbənd müdafiəçilərinin sayı 10 min nəfərə çatdı. Savelyevin dəstəsinin vəziyyətinin çətinləşdiyini görən V.Zubov ona Dərbənddən aralanıb rus ordusunun əsas hissəsini gözləməyi əmr etdi.[2]

Dərbəndə hərəkət əsnasında Zubov general. Bulqakovu bir dəstə ilə göndərdi ki, Dərbəndin qərbindəki meşə cığırlarından keçib şəhərin cənubuna çıxsın.[3]

Rus ordusunun əsas hissəsinin yaxınlaşdığını görən Şeyxəli xan yardım xahişi ilə Osmanlı sultanının yanına elçi göndərdi. Lakin İstanbuldan heç bir cavab gəlmədi.[4]

Mayın ilk günlərində Zubovun ordusu Darbaq çayına çatdı və burada Savelyevin dəstəsilə birləşdi.[5]

---

[1] Николай Дубровин. История войны и владычества русских на Кавказе.т3,СПб.:1886,s.98-99.

[2] Yenə orada, s.101.

[3] Yenə orada,s.103.

[4] Yenə orada,s.104-105.

[5] Yenə orada,s.105.

V.Zubovun qoşunlarının tərkibində Cənubi Qafqazdan olan xristianlar, o cümlədən Rusiyadakı erməni kilsəsinin arxiyepiskopu İ.Arqutinski də vardı. Rus qoşunları Dərbəndi zəbt etdikdən sonra İ.Arqutinski buradakı xristianları müsəlmanalara qarşı qaldırmağa çalışırdı.

Kəskin dirənişə baxmayaraq rus artilleriyasının qala divarlarında yarıq əmələ gətirdiyini görən əyanlar Şeyxəli xanı şəhəri təslim etməyə məcbur etdilər. Mayın 10-da Şeyxəli xan məiyyətilə birlikdə şəhərdən boynundan qılınc asılmış halda Zubovun düşərgəsinə gəldi. Rus baş komandanı xanı qəbul etməyib böyük çadırda yerləşdirdi. Şəhər qarnizonu tərksilah edildi.[1]

II Yekaterina Dərbəndin alınmasından çox məmnun oldu, baş komandanı, generalları ordenlərlə təltif etdi, sıravi əsgərlərin hər birinə 1 rubl gümüş pul verildi.[2] Mayın 13-də Zubov təntənəli şəkildə Dərbəndə daxil oldu.[3]

Şeyxəli xan həbs olunmasa da onu rusların düşərgəsində saxladılar. V.Zubov güman edirdi ki, bu yolla sakinlər sakitləşdiriləcək, əsir alınmış xanın özü və bacısı isə rus komandanlığının "humanistliyinə" əmin olacaq və onlarda imperatriçənin onların taleyini rəhmli surətdə həll edəcəyinə ümid yaradılacaq və beləlklə onların sədaqəti təmin ediləcək və "sədaqətli olacaqlar". V.Zubov Dərbəndi rus ordusunun deposuna çevirmək fikrində idi. Zubov əsir götürülmüş muzdla xidmət edən dağıstanlı döyüşçüləri evlərinə buraxıb, silahlarını isə Dərbənddə saxlamaq fikrində idi.[4]

---

[1]Николай Дубровин.История войны и владычества русских на Кавказе.., s.114-115.
[2] Yenə orada, s.117.
[3] Yenə orada.
[4]АВПРИ,ф.77 (СРП), оп.7, д.159,л. 17 и об.

Eyni zamanda qatı antirusiya ovqaltı bir neçə Quba əyanı Rusiyaya sürgün olundu. Şeyxəli xanı Rusiyaya qarşı mübarizəyə təhrik etməkdə təqsirli bilinib Həştərxana sürgün edilən məmurlar aşağıdakılar idi: Əhməd bəy, Hacı Tahir, İbrahim bəy, Əlmuxtar, Məmmədseyid, Hacı Allahqulu, İmamqulu, Zülfüqar, Hacı Abı-cəmi 11 nəfər.[1]

V.Zubov Dərbəndin idarəsini Pəricahan xanıma–Şeyxəli xanın böyük bacısına həvalə edib, Xıdır bəyi də ona köməkçi təyin etdi. Xıdır bəydən və digər məmurlardan girovlar alındı. Həm Pəricahan xanım, həm də Xıdır bəy qaladakı rus qarnizonunun rəisinin nəzarəti altında hərəkət etməli idilər.[2]

Ruslar Dərbəndin idarəsini Pəricahan xanıma təsadüfi tapşırmamışdılar. Qeyd edək ki, Dərbəndin mühasirəsi zamanı o, bir neçə dəfə öz sədaqətini izhar edərək nümayəndəsini Zubovun düşərgəsinə göndərmiş və ona bir neçə vacib məsləhət vermişdi.[3]

V.Zubov yazırdı ki, Dərbənd və ətraf kəndlərdən təzminat almaq məsələsinə gəldikdə isə sakinlər çox yoxsuldurlar, zəruri yeməklərdən başqa heç nələri yoxdur, onların mal-qarası mühasirə zamanı divarlar arasında qapandığından çox üzülmüş vəziyyətdədir, əkin və bağlar düşərgə yerlərinə çevrildiklərindən məhv olmuşlar.[4]

Çox qəribədir ki, Dərbənddə bu qədər cüzi pravoslav məzhəbli xristian-6 kişi və 1 qadın gürcü olduğu halda V.Zubov burada pravoslav məzhəbinin sıxışdırıldığını iddia edərək "bu məzlumların hüquqlarını bərpa etməyi öz borcu saydığını" yazırdı.[5]

---

[1] АВПРИ,ф.77 (СРП), оп.7, д.159,л. 17 и об.
[2] Yenə orada,iş 158, v.72.
[3] АВПРИ,ф.77 (СРП), оп.7, д.159,л. 17 и об., v.82 a.ü.
[4] АВПРИ,ф.77(СРП),оп.7,д.160, л.21об.
[5] Yenə orada, v.18 a.ü.

V.Zubov 15/26 may 1796-cı il tarixli relyasiyasında Dərbənddən yazırdı ki, aldığı məlumatlara görə Ağa Məhəmməd xan həmişə qubalılara və bakılılara ümid verib ki, rusların təcavüzünə qarşı mübarizədə onlara lazım olduqda kifayət qədər yardım göstərəcək. Şeyxəli xan dəfələrlə Ağa Məhəmməd xanın yanına öz elçilərini göndərmişdir. Sonuncu dəfə Şeyxəli xanın Xıdır bəyə öz sədaqətini izhar etmiş və yardım göstərəcəyini vəd etmişdir. Bakı və Quba xanları həmişə həmrəy olmuşlar. Qazıqumuqlular və tabasaranlılar həmişə dərbəndlilərin müttəfiqi olmuşlar. Bir çox qaraqaytaqlılar və tarkililər də Dərbənddə xidmət edirdilər.[1]

Şeyxəli xanın mirzəsi Əsgərin izahatına görə Şeyxəli xan və xanlıq əhalisi Ağa Məhəmməd xan Salyana gəldikdə vahiməyə düşərək rus hökmdarına içdikləri sədaqət andından imtina etmişlər ki, Ağa Məhəmməd xan onların torpaqlarını var-yoxdan çıxartmasın.[2] Ağa Məhəmməd xan dərbəndliləri və Dağıstan xanlarını ruslara qarşı müqavimətə ruhlandırır.[3]

Mirzə Əsgərin dediyinə görə Şeyxəli xanın əvvəllər Ağa Məhəmməd xanla heç bir əlaqəsi olmamış və hətta onun ilk əmrini yerinə yetirməmişdir. Yalnız Ağa Məhəmməd xan bir çox yerləri tutub Qarabağa həmlə etdikdən və Şeyxəli xana Qızlara kimi getmək niyyətində olduğu barədə xəbər göndərəndən sonra, Quba xanı ona hədiyyə olaraq 20 dəvə, 15 at, 500 yapınçı, və xeyli ərzaq göndərmişdir.[4] Mirzə Əsgərin söylədiyinə görə Quba xanının osmanlılarla heç bir əlaqəsi olmamışdır, yalnız 8 ay əvvəl Məkkəyə ziyarətə getmiş xanlıq təbəələri vasitəsilə Yusif paşadan

[1] АВПРИ,ф.77(СРП),оп.7,д.160, v.24.
[2] АВПРИ,ф.77(СРП),оп.7,д.160, л.21об., v.25 a.ü.-25
[3] АВПРИ,ф.77(СРП), оп.7, д.158 ,д.57 об.
[4] Yenə orada, v.80: АВПРИ, ф.77(СРП), оп.7, д.160, л. 26.

rus qoşunlarının basqına hazırlanması barədə xəbərdarlıq almışdır. Sonra təxminən 3 ay əvvəl Şeyxəli xan İstanbula öz elçisini göndərmişdir. Mirzə Əsgərin sözlərindən belə məlum olur ki, əvvəllər Şeyxəli xan öz bibisi oğlu Mirzə Məhəmmədi Bakı xanlığının taxtına çıxartmağa çalışdığından Bakı xanı Hüseynqulu ilə araları soyuq olmuşdu. Lakin onunla uğursuz müharibədən sonra barışmış və bibisini ona ərə vermişdir. O vaxtdan dost münasibətlərdədirlər, ruslar Dərbəndi mühasirədə saxladıqları zaman Bakı xanı bir qədər barıt və öz topçularını göndərmişdir. Mirzə Əsgərin dediyinə görə Şeyxəli xan Tarki şamxalının qızını almaqdan imtina etdiyi üçün bir çox Dağıstan hakimləri ilə düşmən münasibətdə idi. Şeyxəli xan ancaq Qazıqumuqlu Xambutaydan və akuşalılardan yardım gözləyirdi.[1]

Xanın möhürdarı Zülfüqar Mirzə Əsgərin söylədiklərini təsdiqləyərək əlavə etmişdir ki, 3-4 ay bundan əvvəl Qubadan Türkiyəyə göndərilmiş Hacı adlı şəxsin yolda öldürüldüyü haqqında xəbər yayılmışdır. Şeyxəli xanın Ağa Məhəmməd xanın yanına göndərdiyi şəxsin adı isə Qədir bəydir. Qədir bəy geri dönüb demişdir ki, Ağa Məhəmmədin yanında 50 min nəfərə qədər döyüşçü var, rus ordusu yaxınlaşanda Quba xanına yardım göndərəcəyinə söz vermişdir.[2]

Şeyxəli xan özü istintaq zamanı etiraf etmişdi ki, aprel ayında Hacı adlı məmurunu İstanbula yola salmaq üçün Ərzuruma göndərmişdir. Nümayəndə Sultana Şeyxəli xanın sədaqətini izhar etməli və yardım xahiş etməli idi. Bu məmura sultana hədiyyə etmək üçün təqribən 30 min manat məbləğində bahalı hədiyyələr və 10 min manat qızıl manat verilmişdi. Bundan

[1] АВПРИ,ф.77(СРП),оп.7,д. 160, л. 26 об.
[2]Yenə orada,v.26 a.ü.-27;Yenə orada, iş 158, v.81a.ü.-82

sonra Şeyxəli xan Ağa Məhəmməd xana da məktub göndərmiş, ancaq hədiyyələr göndərməmişdir.[1]

Dərbəndi aldıqdan sonra V.Zubovun başçılıq etdiyi ordu birləşməsi- Kaspi korpusu iki həftə yerində qalıb öz arxasının təmin edilməsini gözlədi.[2] General-mayor Çuquyevin komandasına gələn birinci Çuquyev alayını və general. mayor Platovun komandasına gələn Orlovun don alayını öz qüvvələrinə birləşdirən V.Zubov mayın 24-də Bakı istiqamətində hərəkət etdi. General. Savelyevi 3 piyada taboru, 200 kazak və 4 səhra topu ilə Dərbənddə saxladı.[3] Geneneral Qudoviç öz komandası ilə gəlib Dərbənddə yerləşməli idi. İyunun əvvəlində rus qoşunları Samur çayını keçdilər. V.Zubov Qubadan yarım mil aralı olan Təpələr adlı bir yerdə üç gün dayandıqdan sonra Şabrana gəldi, oradan da Bakıya tərəf üz tutdu. O, hakimiyyətdən devrilmiş Şeyxəli xanı da özü ilə apardı.

Hakimiyyətdən məhrum olan və ya Rusiya işğalı ilə barışmayan bəylər sui-qəsd hazırladılar və dağıstanlıları qəflətən rus qoşununa basqın etmək üçün çağırmaq istədilər.[4]

Tezliklə Şeyxəli xan rusların nəzarəti altından qaçmağa nail oldu. At çapma yarışı keçirilərkən qəfildən gözdən itdi. A. Bakıxanovun yazdığına görə Pir Xəlil kəndinə yaxın bir yerdə Şeyxəli xan at sürmək bəhanəsi ilə qaçdı və bu hadisədən Quba vilayətində qarmaqarışıqlıq başlandı, əhali şəhəri tərk etdi.[5]

V.Zubov P.Zubova 7(18) avqust 1796-cı il tarixdə yazırdı ki, Şeyxəli xan qaçdığı üçün Dərbənddə və Qubada hər cür ehtiyat tədbirləri görülmüşdür. Zubov güman edirdi ki, Şeyxəli xanın

[1] АВПРИ,ф.77(СРП),оп.7,д. 160,л..27; Yenə orada,iş.158.v.82
[2]Николай Дубровин. Göst.əsəri, III his., s.118
[3] Yenə orada, s. 124
[4]Аббаскули Ага Бакиханов. Göst.əsəri,s. 176
[5] Yenə orada, s. 176

qaçmasında Pəricahan xanımın və Dərbənd naibi Xıdır bəyin rolu olmuşdur. Yəqin ki, bu onlar güman edirlərdi ki, Şeyxəli xan qaçarsa xanlıqda bütün hakimiyyət onlara keçər. Baş komandan hər ehtimala qarşı Şeyxəli xanın anadan ögey qardaşı Həsən ağanı Dərbəndə gətirdiyini yazırdı. [1]

Bir neçə kəndin sakinləri də evlərini tərk edib dağlara qaçdılar. Şeyxəli xan Quba xanlığının bütün əhalisini rus qoşunlarına qarşı qaldırmaq istəyirdi. Bir məlumata görə o, Qrız kəndində məskən salıb buradan xanlığı idarə etməyə başladı. Digər məlumata görə isə, Şeyxəli xan Buduq kəndinə getdi və onun ailə üzvləri də bura gəldilər. Qraf Zubov aranı sakitləşdirməkdən ötrü Bulqakova 5 minlik bir qoşun verib, onu Buduq istiqamətinə yolladı, şəhərdə, həmçinin kəndlərdə bir qədər sakitlik yarandı. Şeyxəli xan Buduqda dayanmayaraq Qrız kəndindən Axtıya və Misgəncəyə yönəldi.[2]

Köhnə Şamaxı istiqamətində hərəkət edən rus qoşunları Qurdbulaq yaylağında düşərgə saldılar və istilər düşdüyündən bütün iyun ayını burada qaldılar. Avqustda Pirsaat çayını keçib qışlamaq üçün Cavada getdilər. Peterburqdan verilən göstərişə uyğun olaraq V.Zubov kontradmiral Fyodorova Lənkəran xanlığı ərazisinə və Salyana desant çıxarmağı əmr etdi və bu əmr yerinə yetirildi.[3]

Şamaxılı Mustafa xan V.Zubova böyük inamsızlıqla yanaşırdı. Mustafa xan təzyiq altında II Yekaterinaya sədaqət andı içsə də onu hakimiyyətdən kənar edəcəklərini güman edir və rus qoşunlarına müqavimət göstərmək üçün müttəfiqlər axtarırdı.

---

[1] Николай Дубровин. История,III c., s.137-139.
[2]Аббаскули Ага Бакиханов. Göst.əsəri, s.176.
[3]Вадим Левиатов.Göst.əsəri, s. 182.

Mustafa xanın təbii müttəfiqi bu cür vəziyyətdə olan şəkili Səlim xan idi.[1]

Qarabağlı İbrahimxəlil xan oğlu Əbülfət xanı Qarabağın bir neçə əsilzadəsi ilə birlikdə töhfə, hədiyyələr və cins atlarla V.Zubovun hüzuruna göndərib, "Rusiya dövlətinə səmimi qəlbdən itaət edəcəyini və sədaqətini" bildirmişdi. Baş komandan da öz növbəsində bir knyaz vasitəsilə İbrahim xana qiymətli töhfə və hədiyyələr göndərərək, onu "əzəmətli padşahın mərhəmətinə ümidvar etmişdi..."[2] Rus baş komandanı qiymətli daşlarla bəzənmiş bir əsanı Molla Pənah Vaqifə göndərdi.[3] Əslində İbrahimxəlil xan Zubovun işğalçı yürüşünün Qarabağ məliklərinin güclənməsi və onun hakimiyyətinin devrilməsi ilə nəticələnəcəyini yaxşı dərk edirdi və ona bəzi şeylər məlum idi. II İrakli bir dəfə qəzəbli vaxtında İbrahimxəlil xana bildirmişdi ki, o mülklərindən məhrum ediləcəkdir.[4]

İbrahimxəlil xan məqsədini həyata keçirmək üçün rus qoşunu qərargahında olan Zəndlər nəslinə mənsub Nurəli xan adlı bir cavandan istifadə etməyi qərara aldı. V.Zubovun yanına gəlmiş Qarabağ elçiləri Nurəli xanla gizli əlaqəyə girdilər, İbrahimxəlil xanın göndərdiyi 3 min manat məbləğində pulu ona verib bildirdilər ki, əgər Nurəli xan, Mustafa xan və Səlim xanın qüvvələrini birləşdirməyə kömək etsə və onların köməyi ilə V.Zubovun qətlini təşkil etsə Qarabağ xanı özünün Cənubi Qafqazın birinci gözəli hesab edilən qızını ona ərə verəcəkdir.[5]

---

[1] Джамал Мустафаев. Россия и северные ханства Азербайджана в конце XVIII-XIX в. Баку, 1989, с. 96.

[2] Mirzə Camal Cavanşir.Tarix-e Qarabağ Qarabağnamələr, I c., Bakı, Yazıçı, 1989, s 28-29.

[3] Mirzə Adıgözəl bəy.Qarabağnamə/Qarabağnamələr,Ic., Bakı, Yazıçı, 1989, s. 55.

[4] Вадим Левиатов. Göst.əsəri, s. 183.

[5] Yenə orada, s. 183.

Bu vədlərdən ruhlanan Nurəli xan razılıq verdi. O, Səlim xan və Mustafa xanla gizli əlaqə yaratdı. Düşünülmüş plana görə xanların birləşmiş qüvvələri rus düşərgəsini mühasirəyə almalı, Nurəli xan baş komandanın çadırına soxulub onu öldürməli idi, sonra isə rus qoşununu məhv etmək lazım idi. Lakin axmaq təsadüf nəticəsində Azərbaycan xanlarının V.Zubova qarşı təşkil etdikləri qəsdin üstü açıldığından Nurəli xan həbs edildi və Həştərxana sürgün olundu.[1]

V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana işğalçı yürüşü Osmanlı imperiyasını və şəxsən sultan III Səlimi xeyli narahat etdi. Türkiyə bütün vasitələrlə rusların Cənubi Qafqazdakı əməliyyatına mane olmağa çalışırdı. Rus qoşunlarının Azərbaycanda hərəkətinə mane olmaq üçün osmanlı ordusunun komandanlığı karvan yolları və körpüləri sıradan çıxartmağa çalışır və bu işə yerli hakimləri cəlb edirdi. Bu məqsədlə Axısqa paşası Şamaxı və Şəki xanlıqlarına öz adamlarını göndərdi. [2] Rus ordusunun cəzasından ehtiyat edən Şamaxılı Mustafa xan və şəkili Səlim xan osmanlı komandanlığının səsinə bu dəfə səs vermədilər. Şeyxəli xan və Qazıqumuqlu Surxay xan isə fəal surətdə ruslara qarşı mübarizə aparırdılar.

Sentyabrın sonunda Qazıqumuq xanı və Şeyxəli xanın 13-15 min nəfərlik qoşunu Quba xanlığının şimal hissəsinə daxil oldu.[3] Dəstələr Alpan kəndinə yaxınlaşdılar. Qarşılarına çıxan polkovnik-leytenant Bakuninin başçılıq etdiyi azsaylı dəstə (500 nəfərə qədər) pusquya düşdü və ağır itkilərə məruz qaldı. Yalnız

---

[1]Петр Бутков. Материалы.., ч.II,.397-398; Дубровин Н.Ф. История.., т.III, сс. 149-153.
[2] Həsənbala Sadıqov. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1789-1828-ci illər). Bakı: Elm, 1991, s.40-41.
[3] Петр Бутков. Материалы..,ч.2, с.402.

general Bulqakovun yardıma dəstə göndərməsi sayəsində Bakuninin dəstəsi tamamilə məhv edilməkdən xilas oldu.[1]

General Bulqakovun verdiyi məlumata görə vuruşma nəticəsində qarşı tərəfdən 1600 döyüşçü həlak olmuş, o cümlədən Surxay xanın oğlu Bayram və çoxlu yaxın adamı həlak olmuş, 68 yaralı döyüşçü əsir götürümüşldü.[2] Ruslardan polkovnik-leytenant Bakunin, 2 kapitan,2 poruçik, bir neçə unter zabit və sıravi yeger, qrenader və muşketyor, cəmi 46 nəfər həlak olmuş, 94 nəfər yaranmışdı.[3]

Rusiya qoşunlarının qələbəsinə baxmayaraq, V.Zubov Rusiyaya itaət edən Dağıstan feodallarından Qaytaq usmisinə və Tarki şamxalına tapşırdı ki, Qazıqumuq xanlığına basqın edib, rusların əleyhinə çıxdıqlarına görə oranı darmadağın etsinlər.[4]

Qubada baş verən hadisədən sonra rus ordusu komandanlığı öz mövqeyini möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü. İlk növbədə ordunun arxa hissəsi möhkəmləndirildi. Dərbənd qalasında yerləşən Narınqala tamamilə rus qarnizonunun ixtiyarına verildi və qalanın müdafiəsi xeyli möhkəmləndirildi.[5]

Zubov Quba xanlığında Rusiyaya sadiq hakimiyyət yaratmağa çalışaraq Fətəli xanın kiçik, İlisu sultanının qızından doğulmuş azyaşlı oğlu Həsən ağanı noyabrın 3-də Həsən xan Quba xanı elan olundu. Baş komandanın müəyyənləşdirdiyi bir neçə ağsaqqal Quba xanlığının idarəsini həyata keçirməli idi.[6]

Xorasanda üsyanı yatıran və Nadir şahın varislərindən biri olan Şahruxun zəngin sərvətini ələ keçirən Ağa Məhəmməd

[1] АВПРИ,ф.77 (СРП),оп.7,д.158, лл. 231об.-232.
[2] Yenə orada, v. 239.
[3] Yenə orada, v. 235.
[4] Yenə orada, v. 42.
[5] Yenə orada, v. 43.
[6] Вадим Левиатов.Göst.əsəri, s. 184.

şah 1796-cı ildə nəhayət ki, tacqoyma mərasimini həyata keçirmişdi, daha böyük ordu təşkil etməyə, Gilan və Mazandaranı möhkəmləndirməyə başladı. O, rus qoşunlarının tezliklə Cənubi Azərbaycana soxulacağını güman edir və onları dəf etməyə hazırlaşırdı.

1796-cı il oktyabrın əvvəllərində rus qoşunları Qurdbulaq düşərgəsini tərk etdilər və yeni Şamaxıya yaxınlaşdılar. 1796-cı il oktyabrın əvvəllərində V.Zubov Rusiyadan yeni qüvvələr aldı.[1] Bundan sonra 4 min nəfərlik güclü bir dəstə ayrıldı və ona Gəncəyə hərəkət edib şəhəri tutmaq tapşırıldı. Şəki xanlığının ərazisi ilə irəliləyən dəstə Mingəçevirdə üzən körpülərlə Kür çayını keçdi və dekabrın 13-də Gəncəyə çatdı. II İrakli və İbrahimxəlil xan onun mülklərini tutmağa çalışdığından rus komandanlığı ilə gərgin münasibətlərə malik olmaq istəməyən Cavad xan da ruslara münasibətini dəyişməli oldu və Gəncəyə rus hərbi dəstəsini şəhərə buraxmağa razılıq verdi, Gəncə qalasının qapılarını Rimski-Korsakov üçün açdı.[2]

Rus ordusunun əsas qüvvələri isə Yeni Şamaxıdan hərəkət edib noyabrın 21-də Kür və Araz çaylarının qovuşuğunda dayandı. Gələn ilin yazına kimi qışı burada keçirtmək nəzərdə tutulurdu. Rusiyanın nəzərləri artıq Cənubi Azərbaycana və Xəzər dənizinin cənub sahillərinə yönəlmişdi.[3] Yazda Ağa Məhəmməd şahın hakimiyyətinə güclü zərbə endirməli idi.

Azərbaycanda möhkəmlənməyi qarşısına məqsəd qoymuş rus hakimiyyət orqanları bir sıra siyasi-iqtisadi tədbirlər həyata keçirməyə çalışırdılar. Zubov rus qoşunlarının mövqeyini

---

[1]Вадим Левиатов.Göst.əsəri, s. 185.
[2]Джамал Мустафаев.Göst.əsəri, s. 96.
[3] Акты Кавказской Археографической Комиссии, т.VI, ч.2.Дополнения, док. 38.

möhkəmləndirmək və diyarın iqtisadi mənimsənilməsini təmin etmək üçün layihə hazırlamışdı. Bu layihəyə görə Kürlə Arazın qovuşduğu yerin yaxınlığında-Cavadın yanında II Yekaterinanın şərəfinə Yekaterinaserd adlanan qala salınmalı idi. Bura iki min cavan rus əsgəri göndərilməli, gürcü və ermənilər onlara gəlin verməyə məcbur edilməli idilər.[1] Həmin qala cənuba qarşı yönəlmiş dayaq məntəqəsi olmalı idi. Bununla yanaşı, bu qala ticarət qovşağı, Xəzər, Cənubi Qafqaz, qismən Orta Asiya və İran ticarətinin iri bazarı olmalı idi.[2]

Digər qala-liman, qoşunların başlıca təchizat bazası və eyni zamanda iri ticarət mərkəzi Bakı olmalı idi. V.Zubova 1796-cı il fevralın 19-da verilmiş fərmanda buyurulurdu ki, Bakı şəhəri və limanını alıb orada baş depo təsis etsin. Həyatı və hərbi sursatların gətirilməsini təmin etsin.[3] Bakı limanında işlərin görülməsi və Kürün mənsəbində Yekaterinaserd qalasının tikintisi üçün hətta Peterburqdan ustalar müəyyənləşdirilib göndərilmişdi.[4]

1796-cı ilin noyabrın 6-da II Yekaterinanın ölümü hadisələrin gedişini dəyişdirdi. Hakimiyyətə gələn I Pavel əks siyasət yeritməyə başladı. O, rus qoşunlarının tezliklə Cənubi Qafqazdan çıxarılması barədə sərəncam verdi. V.Zubova II Yekaterinanın vəzifəyə təyin etdiyi adam kimi nifrət bəsləyən I Pavel birbaşa bütün alay komandirlərinə qoşunların Qafqaz xəttinə-geri qayıtması barədə buyruqlar göndərdi. V.Zubov istefaya çıxdı və Bakıdan Həştərxana yola düşdü. Qafqaz xəttinə gələn bütün qoşunlara komandanlıq yenidən qraf Qudoviçə

---

[1]Платон Зубов.(1873),сс.889-890.
[2] Вадим Левиатов. Göst.əsəri, s. 187.
[3] Yenə orada.
[4] Петр Бутков.Göst.əsəri, II his., 418-419.

tapşırıldı. Rus qoşunlarının çıxarılması başladı, lakin bəzi hissələr 1797-ci ilin martına kimi Muğanda qaldılar.[1] Bu qışda adamların və atların yolda hərəkətinin, artilleriya və qoşquların aparılmasının çətinliyi ilə bağlı idi.

Bulqakov 1797-ci il martın 12-də yazırdı ki, Həsən xan əhalinin Şeyxəli xana tərəfdar olduğunu görüb Qubadan Dərbəndə köçmüşdür. Şeyxəli xan əhaliyə məktublar göndərərək rus qoşunları xanlıq ərazisini tərk etməkdə olduğu üçün yenidən ona tabe olmalarını tələb edirdi.[2] Şeyxəli xan, Qazıqumuq xanı və bir sıra başqa hakimlər geri çəkilən rus qoşunlarını təqib etməyə cəhd göstərdilər. Bir neçə dəfə rus qoşunlarını mühasirəyə almaq, Dərbənd yanında yolu bağlamaq cəhdlərinə baxmayaraq bütün qoşunlar Qafqaz xəttinə çıxdılar.[3]

İşğalçı rus qoşunları Azərbaycanı tərk edər-etməz Şeyxəli xan Qubada hakimiyyətini bərpa etdi. Martın 13-də Bulqakov Şeyxəli xanın artıq Qubada olduğunu, ətrafına xeyli döyüşçü topladığını yazırdı.[4]

Qeyd edək ki, hələ general. Savelyevin başçılığı ilə rus qoşunları Dərbənddə olduğu zaman sakinlər Şeyxəli xanın kiçik qardaşı Həsən ağaya sədaqət andı içmişdilər. Lakin mayın 20-də rus qoşunları Dərbəndi tərk etdikdən[5] sonra qardaşına müqavimət göstərə bilməyəcəyini anlayan Həsən ağa öz anası Hurizad

---

[1]Вадим Левиатов. Göst.əsəri, s. 188.

[2] Российский Государственный Военно-Исторический Архив, оп. 41, д. 199; д. 420, л. 43.

[3] Вадим Левиатов. Göst.əsəri, s. 188.

[4] РГИА,ф.41,оп.1, д. 420, л.43.

[5] Владилен Гаджиев. Роль России в истории Дагестана. Махачкала:1965,сс.84-85.

xanımla birlikdə Dərbəndi tərk edib Kozubskiyə görə Tarki şamxalının, A.A. Bakıxanova görə isə Qaytaq usmisinin himayəsinə söğındı. Naib Xıdır bəy isə Tabasaran kadisinin yanına qaçdı.[1]

Hələ ruslar Dərbənddə ikən Fətəli xanın qızı Pəricahan xanım atası Məhəmməd xanın vəfatından sonra Tarki şamxalı olan Mehdi bəyə ərə getmişdi. O, eyni zamanda Şeyxəli xandan icazəsiz bacısı Çimnaz xanımı Tabasaran qazisi Rüstəmin oğıu Abdulla bəyə ərə verdi.[2]

Xeyli ərazini işğal etmiş rus qoşunlarının I Pavel tərəfindən geri çağırılması bir tərəfdən böyük xərclər (31.700 min rubl), digər tərəfdən Avropada vəziyyətin mürəkkəbliyi ilə izah oluna bilər. Yerli xalqların işğalçı rus qoşunlarına münasibəti, hakimiyyətdən kənar edilmiş xanların müqaviməti, İranda Ağa Məhəmməd şahın güclənməsi də öz təsirini göstərmişdi.

Ayrıca qeyd edək ki, Rusiya ordusunun 1796-cı ildəki hərbi müdaxiləsi Azərbaycanda xeyli insanın həlak olmasına və dağıntılara səbəb oluşdur. O cümlədən, rus toplarından atılan mərmilər Dərbənddəki tarixi “Bala Məscid” adlandırılan məscidi dağıtmışdı. Sonradan, 1812-ci ildə həmin məscid bərpa edilmişdir.[3]

Dövlətinin ağır maliyyə durumunu və mürəkkəb beynəlxalq şəraiti nəzərə alan yeni çar I Pavel Cənubi Qafqazda möhkəmlənmək üçün diplomatik vasitələrə üstünlük verirdi. Yenicə hakimiyyətə gəlmiş Fətəli şah da əmisinin müharibə taktikasından əl çəkib strateji məqsədlərinə siyasi yol ilə çatmaq siyasətinə keçmişdi. I Pavel İ.Qudoviçə 1797-ci il 5 yanvar fərmanı ilə Rusiyaya xeyirxah münasibətdə olan Azərbaycan və

[1] Евгений Козубский. Göst.əsəri,s.120; Орхан Назаралиев.Göst.dis-sı,s.78
[2] Аббаскули Ага Бакиханов. Göst.əsəri, s. 177.
[3] tarixistitutu.az/pace/derbend.Mür.tar.07.02.2022-ci il.

Dağıstan hakimlərinə bir federativ dövlət halında birləşməyi təklif etməsini buyurdu. Bu hakimlərdən Rusiyaya sədaqət tələb olunur, rus hökuməti onlardan xərac tələb etməyəcəyini, daxili işlərinə qarışmayacağını vəd edirdi.[1]

I Pavel federasiya yolu ilə ayrı-ayrı xanlıqların qacarların təsiri altına keçməsinə yol verməmək, yumşaq rəftarla onları Rusiyaya daha sıx bağlamaq istəyirdi. Belə bir siyasət xanlıqların Rusiyanın tərkibinə qatılması üçün özül hazırlamalı idi.

I Pavelin federasiya haqqında təklifinin gerçəkləşməsi üçün Qafqaz ordusunun yeni komandanı Y.F.Knorrinq yerli hakimləri və yaxud onların nümayəndələrini dəvət edib, rəqabət aparmağın zərərini və əmin-amanlıq şəraitində yaşamağın zərurətini başa salmalı, onların aralarında baş verən çəkişmələri, adət-ənənə, qanun və ya münsiflər məhkəməsi vasitəsi ilə həll etməyə çağırmalı idi. Bu da mümkün olmasa onlar Rusiya imperatoruna müraciət etməliydilər. Yerli hakimlər Şahın basqın niyyətinə qarşı birləşməli idilər. Bu ittifaqa şamxalın, usminin və Tabasaran qazisinin təbəələrini cəlb etməli, onlar təbəələrini qarətlə məşğul olmaqdan çəkindirəcəklərinə and içməli idilər.

Real siyasi vəziyyət o zaman Fətəli şahı da Rusiya dövləti və Azərbaycan xanları ilə yumşaq davranmağa vadar edirdi. O. 1797-ci ilin sonunda I Pavelin yanına elçi göndərdi. Elçilərin ticarət haqqındakı təqdimatına Rusiya hökuməti müsbət yanaşdı, lakin bildirdi ki, Qacar şahı Gürcüstana, Tarki şamxalına, Dərbənd, Bakı xanlarına, Xəzər dənizi ilə Gürcüstan arasında yerləşən torpaqlara qarşı iddialarından əl çəkməlidir.[2] Şeyxəli xan da öz növbəsində Şahı taxta çıxması ilə təbrik edib, onunla münasibətləri normal saxlamağa cəhd etdi.

---

[1] Евгений Козубский. Göst.əsəri, s. 123; Вадим Левиатов. Göst.əsəri, s. 143
[2] Azərbaycan tarixi(1996).s.574-575.

Rus qoşunları Azərbaycanı tərk etdikdən sonra Şeyxəli xan Quba ilə yanaşı Dərbənddədə hakimiyyətini bərpa etsə də bir müddət sonra qardaşı Həsənəli xan Dərbəndin idarəçiliyini yenidən ələ keçirmişdi. Qafqazdakı rus qoşunlarının komandanı K.F.Knorrinq 1800-cü il mayın 28-də I Pavelə raport verirdi ki, Qaraqaytaq usmisi və Tabasaran kadisi Dərbəndin yüksək rütbəli məmurları ilə razılığa gələrək Qazıqumuq hakimi Surxay xanın himayəsində olan Həsən xanı çağırıb Dərbənd xanı vəzifəsinə bərpa etmişlər. Bir çox Dərbənd sakinləri bundan narazı olduqlarından Qaraqaytaq usmisi və Tabasaran kadisi bəyan etmişdilər ki, guya bu addımı Həsən xanı Qazıqumuq xanının təsirindən qurtarmaq üçün, elə Şeyxəli xanın öz razılığı ilə atmışlar.[1] Knorrinq daha sonra yazırdı ki, Şeyxəli xanın basqınından ehtiyat edən Həsən xan öz elçisi Hacı Tağını rus sarayına göndərərək Dərbəndin ayrıca xanlıq kimi Rusiya himayəsinə qəbul olunmasını xahiş etdi.

1799-cu ildə Quba xanlığında taxıl məhsulu az toplandığından Şeyxəli xan Tarki şamxalından Qubaya taxıl göndərilməsini xahiş etmişdi.[2] Tarki şamxalı 400 araba taxıl göndərsə də, Şeyxəli xandan bir qədər narazı olan dərbəndlilər (çox güman ki, azacıq əvvəl Quba xanı tərəfindən oraya gətirilən iki min muzdlu dağıstanlı döyüşçüsünün əhaliyə verdikləri əziyyətə görə -T.M.) həmin arabaların öz torpaqlarından keçib Qubaya getməsinə yol vermədilər. Şeyxəli xan arabaların buraxılması haqqında Dərbəndə göstəriş göndərsə də dərbəndlilər nəinki bu tələbi yerinə yetirmədilər, üstəlik Sultan bəy Bayatın başçılığı ilə qiyam qaldırıb Şeyxəli xanın naibi Məhəmməd Hüseyn bəyi şəhərdən

---

[1] АКАК, т.1, сс. 642-643.
[2] Tofiq Mustafazadə. Quba xanlığı,204-205.

qovdular.[1] Şeyxəli xan özü Dərbəndə gəlib, bacısı-Bakılı II Mirzə Məhəmməd xanın zövcəsi Xan Bikə xanımı yeni naib, Sultan bəy Bayatı isə ona köməkçi təyin etmişdi.[2]

Lakin, Qazıqumuqlu II Surxay xan bu vəziyyətlə razılaşmayaraq, Şeyxəli xan Qubaya qayıdandan az sonra Həsən xanı Qaytaqdan öz yanına çağırmış və may ayının sonunda Dərbəndi yenidən ələ keçirmişdi. Surxay xan Həsən xanı Dərbənd hakimliyinə bərpa edərək, özü mülklərinə qayıtdı.[3]

Tezliklə, yenidən Dərbənddə iğtişaş başladı. Buna səbəb xan sarayında Sultan bəy Bayatla Xıdır bəy Qorçi arasında baş verən mübahisə və döyüş oldu. Nəticədə Xıdır bəy öldürülmüş, Sultan bəy isə yaralanmışdı. Öz evinə qayıdan Sultan bəy hadisənin ertəsi günü Həsənəli xanın əmri ilə tutulub edam olundu. Sultan bəyin edamı dərbəndlilərin qəzəbinə səbəb oldu. Bundan istifadə edən Şeyxəli xan Şamaxı, Şəki və Bakı xanlarının, habelə şamxalın və akuşalıların köməyi ilə Dərbəndi mühasirə etdi. Mühasirədəkilərə yalnız Tabasaran qazisi yardım edirdi. Heç nəyə nail olmayan Şeyxəli xan 12 gündən sonra Qubaya qayıtmağa məcbur oldu.[4] Onun səhhəti yenidən pisləşmişdi. Çox keçmədi ki, ətrafa Şeyxəli xanın vəfatı barədə yalan şayiə yayıldı və bu xəbər Surxay xana da çatdı. Qazıqumuq xanı Qubaya yeni hücuma keçdi və Ənik kəndi ətrafında Quba döyüşçülərini məğlubiyyətə uğratdı. Sonra o, Qubadan bir mil məsafədə yerləşən Zizik kəndinə gəlib dayandı, Şeyxəli xan xəstəlikdən ayağa durmasına baxmayaraq hələ çox zəif olduğundan özünü

---

[1] Гусейнбала Гусейнов. Энциклопедия города Дербента. Москва: 2009, с., 390; Орхан Назаралиев. Göst.dis-sı,s .79.

[2] Аббаскули Ага Бакиханов. Göst.əsəri, s.181; Орхан Назаралиев. Göst.dis-sı,s.79.

[3] Yenə orada, s. 182.

[4] Tofiq Mustafazadə. Quba xanlığı,s.205.

müdafiəyə hazır deyildi. Belə bir böhranlı vəziyyətdə Quba xanının zövcəsi Ziba Nisə bəyim (II Mirzə Məhəmmədin bacısı) özünə ikinci ata saydığı Surxay xana xeyli hədiyyə yolladı. Düşmən tərəfindən olan ehtiram Surxay xanı Quba xanlığını tərk edib, öz mülkünə qayıtmağa vadar etdi. Surxayla Quba yürüşündə iştirak edən Həsənəli xan da, onun ardınca geri çəkildi.

Bir müddət sonra Şeyxəli xan qisas əlaməti olaraq Həsənəli xanın idarəçiliyində olan Ulus mahalına hücum edərək, bir neçə kəndin əhalisini Qubaya köçürdü. Beləliklə, Həsənəli xanın idarəçiliyində yalnız Dərbənd şəhəri qaldı.[1]

Tezliklə, Şeyxəli xan rus hökumətinə müraciət edərək onun sərəncamına altı min nəfərlik qoşun göndərilməsini xahiş etdi. Bu qoşunun köməyi ilə o, nəinki Dərbəndi geri almaq, həm də Bakı və Salyanı yenidən tabe etmək istəyirdi. Lakin rus hökuməti nə Şeyxəli xana, nə də Həsənəli xana yardım göstərmədi. Onların elçiləri hələ Rusiyada olduğu bir vaxtda qardaşlar barışdılar. Bu barışıq rus sarayı tərəfindən də bəyənildi. Heç bir tərəflə münasibətlərini korlamaq istəməyən rus hökuməti 28 avqust 1801-ci il tarixli fərmanla Həsənəli xanı Dərbənd, Şeyxəli xanı isə Quba xanı kimi tanıdı.[2]

Rus çarı I Aleksandr 28 avqust 1800-cü il tarixli fərmanında Həsənəli xanın qardaşı Şeyxəli xanla barışması Quba xanlığı mülklərini öz aralarında bölüşdürmələri təqdir olunurdu. Dərbənd şəhəri və Samur çayına qədərki ərazilər Həsənəli xana Quba xanlığı ərazisinin çox hissəsi isə Şeyxəli xana çatmışdı. Çar bu bölgünü bəyəndiyini Həsənəli xanı Dərbənd xanı, Şeyxəli xanı isə Quba xanı kimi tanıdığını bəyan edirdi. Qeyd edək ki, Şeyxəli

[1] Аббаскули Ага Бакиханов.Göst.əsəri, s. 183.
[2]Жалованная грамота Дербенскому Гасан-Али-Хану-на утверждение его в Полное собрание законов Российской империи,т.26, сс.726-765.

xan Mirzə Əskəri Həsənəli xan isə Hacı Tağını göndrərək bu barədə rus sarayına məlumat vermişdilər.[1]

Qafqazdakı rus qoşunlarının komandanı K.F.Knorrinq Asiya departamentinin idarəçisi S.L.Laşkarevə iyulun 5-də yazırdı ki, iyunun 21-də Dərbənd xanı Həsənəli xan çiçək xəstəliyindən vəfat etmişdir. Şeyxəli xan Dərbəndə daxil olub hakimiyyəti ələ keçirməyə cəhd göstərmiş, lakin əhali onu qəbul etməmişdir. Əhalinin xahişinə əsasən Fətəli xanın Tarki şamxalı Mehdinin arvadı olan Pəricə Xanım Dərbəndə daxil olub şəhəri idarə edir.[2] Lakin bu məlumat  yanlışdır, çünki, 1802-ci il dekabrın 28-də Georgiyevskdə bağlanmış müqavilənin mətnində Dərbəndi idarə edən adam kimi Şeyxəli xan göstərilmişdir.[3] Həsənəli xanın və Şeyxəli xanın əmisi qızı, həm də Ziba Nisə bəyim Şeyxəli xanı bağışladığını bildirib Dərbəndə çağırmış. Şeyxəli xan da Dərbəndə gələrək, Həsən xanı bütün ədəb-ərkanı ilə dəfn etmişdi. Beləliklə də, yenidən Dərbənddə hakimyyətini bərpa edən Şeyxəli xan İmam Qulu bəyi Dərbənd naibi təyin edib Bakıya qayıtmışdı.[4]

1800-cü avqust ayının 29-də imzalanan məktublarda yuxarıda adları çəkilən hakimlərə öz aralarında ümumi bir razılığa gəlmək və ittifaq yaratmaq təklif edilmişdi.[5] Qeyd edək ki, belə bir təklif I Pavel tərəfindən 3 il əvvəl də Qafqaz qoşunları komandanı general Qudoviç vasitəsilə Azərbaycan və Dağıstan hakimlərinə bildirilmişdi. Bu zaman Rusiyanın başı Avropada bir sıra qlobal məsələlərə qarışmışdı. 1798-ci ildə Rusiya, İngiltərə və Avstriyanın iştirakı ilə, o zamanlar Avropa və Aralıq dənizi

---

[1] АВПРИ,ф.77,оп.1,1801 г.,д.10,лл.119-120.

[2] Yenə orada.164.

[3] АКАК, Т.2, с.1009; Русско-дагестанские отношения..,с.263

[4] Аббаскули Ага  Бакиханов. Göst. əsəri,s. 183-184

[5] Yenə orada, s. 182

hövzəsində geniş işğalçılıq siyasətinə keçən Fransaya qarşı yeni birlik yaranmışdı. O vaxta qədər iki müttəfiq sayılan Fransa və Osmanlı imperiyası arasında Napoleon Bonapartın Osmanlı imperiyasının tərkibində olan Misirə yürüş etməsi ilə əlaqədar münasibətlərin kəskinləşməsi Osmanlı imperiyasını Rusiyaya yaxınlaşdırdı və tarixdə ilk dəfə olaraq bu iki dövlət arasında 1799-cu ilin yanvar ayının 3-də İstanbulda ittifaq müqaviləsi imzalandı. "Əbədi ittifaq" müqavilənaməsi adlandırılan həmin sənədlə "padşahi-Ali-Osman" həzrətləriylə bütün rusiyalıların imperatoru arasında "əbədi dostluğun" yaranmasından bəhs edilir, Avstriya, İngiltərə və Prussiya da bu ittifaqa qoşulmağa dəvət edilirdi. "Türkiyə-Rusiya ittifaqı" 8 il müddətinə bağlanmış olsa da, bir il içərisində qüvvəsini itirmiş oldu. Napoleonun Misirdən getməsi, onunla I Pavelin yaxınlaşması ilə bu əbədi ittifaq lazımsız bir kağıza çevrildi. Rusiyanın Misirə hücum etmiş fransızlara qarşı mübarizə üçün göndərdiyi hərbi donanma 1799-cu ilin oktyabrında Qara dəniz istiqamətində geriyə hərəkət etdi.[1]

İngiltərə ilə Qacarlar İranı arasında 1800-cü ilin dekabrında və 1801-ci ilin yanvarında imzalanan müqavilələr də nəticəsiz qaldı. Çünki tezliklə Fransaya qarşı Rusiya və İngiltərənin yaxınlaşması ingilislərin İran fəaliyyətini zəiflətdi.

1800-cü ilin sonunda Quba xanının elçisi Mirzə Əsgər yenidən Peterburqa səfər etdi. Xanın I Pavelə məktubunda Qubaya rus döyüşçülərinin göndərilməsi təklifi irəli sürülür, "əgər Siz bizə döyüşçü göndərsəniz...biz onların köməyi ilə mənim düşmənim şirvanlı Mir Mustafa xanı məhv edərik... Talışdan Şəkiyə qədərki bütün torpaqları Rusiyaya birləşdirərik"

[1] Azərbaycan tarixi (1996), s. 572-573

[1] deyilirdi. Amma, Rusiya Şeyxəli xanın təklifini qəbul etmədi, hələlik tələsməməyi məsləhət gördü.

Qeyd edək ki,1801-ci ilin mart ayının 12-də Rusiya imperatoru I Pavel sui-qəsd nəticəsində öldürüləndən sonra yerinə keçən oğlu I Aleksandr (1801-1825) dərhal Qafqaza, o cümlədən Azərbaycan xanlıqlarına qarşı bir sıra ciddi tədbirlər həyata keçirməyə başlayaraq, ilk növbədə Şərqi Gürcüstanı Rusiyaya birləşdirmişdi (1801). Qarşıda Qafqazın başqa vilayətlərinin birləşdirilməsi kimi mühüm məsələ dururdu.

Lakin Avropadakı müharibələrə görə bu məqsəd üçün kifayət qədər qüvvə ayırmaq imkanına malik olmayan I Aleksandr əvvəlcə atası I Pavel kimi Rusiyanın himayəsi altında Şimali Qafqaz birliyi yaratmaq ideyasını sınaqdan keçirdi. 1801-ci ildə Şeyxəli xan bu zaman Dərbənd hakimi olan Həsən xan və lənkəranlı Mir Mustafa xan I Aleksandrı taxta çıxması münasibətilə təbrik etmək üçün öz elçilərini Peterburqa göndərdiyi zaman yeni imperator elçiləri yardımla ümidləndirməklə yanaşı, xaricdən basqın təqdirində birləşib, onu öz qüvvələri ilə dəf etməyi məsləhət gördü. Danışıqlar zamanı rus hökuməti yenidən Azərbaycan və Dağıstan hakimlərinin federasiyasını yaratmaq məsələsini qaldırdı. I Aleksandr bu federasiyanın yaradılması üçün müvafiq buyruqlar verdi.[2] Çarın tapşırığı ilə general Sisianov xanlarla danışıq aparmaq üçün Georgiyevsk şəhərində görüş təşkil etdi. Sisianov qraf Voronsova yazırdı ki, yaradılmalı koalsiyada birinci yeri tutmalı olan Şeyxəli xan ona hərbi qüvvə verilməsini xahiş edir: Nə üçün? Mustafa xanı Şamaxıda hakimiyyətdən kənarlaşdırıb yerinə qardaşı Qasım xanı gətirmək üçün. Qasım, balıq vətəgələrindən ildə 150 min manat gəlir

[1] Гевхар Мамедова. О походе В.Зубова.., с. 164
[2] Джамал Мустафаев. Göst.əsəri. s. 102

götürülən Salyanı Quba xanına qaytarmağı vəd etmişdir. Sisianov sual verirdi: Dərbənd xanının güclənməsinin Rusiyaya nə xeyri var ki? Quba və Dərbənd ərazilərinin birləşməsi sayəsində Şeyxəli xan onsuz da güclüdür. Hələ o, Bakıya da iddia edir. Əgər Şeyxəli xan rus qoşunlarının yardımı ilə göz dikdiyi torpaqları ələ keçirərsə, Tarki şamxalı da onun yeznəsi olduğundan lap güclənər.[1]

Georgiyevskə Azərbaycandan yalnız Quba və Lənkəran xanlarının nümayəndələri getdilər. Dekabrın 26-da "Georgiyevsk müqaviləsi" imzalandı. Giriş və 12 maddədən ibarət olan bu müqaviləyə görə xanlar aralarında olan düşmənçilik, narazılıq və çəkişmələri bir tərəfə qoyacaqlarına, mübahisələri dinc yolla həll edəcəklərinə, qacarların hücum edəcəyi halda ona qarşı birgə çıxış edəcəklərinə söz verdilər. Müqavilənin bəndlərindən beşi ticarət məsələlərinin tənzimlənməsinə həsr edilmişdi. Yerdə qalan bəndlər hərbi-siyasi məsələlərdən, ilk növbədə güclənməkdə olan Qacar təhlükəsinin dəf edilməsindən bəhs edirdi. Müqavilənı imzalayan tərəflər belə bir təhlükənin yarandığı şəraitdə Qafqazdakı rus qoşunlarının baş komandanının rəhbərliyi altında öz qüvvələrini birləşdirməyi öhdələrinə götürdülər.[2]

Əslində, bu müqavilənin imzalanması bir tədqiqatçının da qeyd etdiyi kimi, XVIII əsrin 80-ci illərində rus diplomatiyasının alüdə olduğu Rusiyanın cənub sərhədlərində İran və Türkiyə təhlükəsinə qarşı "sədd" yaratmaq ideyasının davamı idi.[3] Lakin "birliyə" qoşulan tərəflər tezliklə Qacarlar İranının deyil, məhz Rusiyanın təcavüzünə məruz qaldılar.

---

[1] Николай Дубровин. История войны и владычества русских на Кавказе.т.4, СПб.: 1886, с.30

[2] Azərbaycan tarixi(1996),s.576

[3] Джамал Мустафаев. Göst.əsəri,s.142

Azərbaycanın daxili siyasi vəziyyəti rus işğalları üçün əlverişli şərait yaradırdı. Rusiyaya bir o qədər də etibar etməsələr də öz qüvvələri ilə Rusiya və Qacarlara müqavimət göstərə bilməyəcəklərini anlayan Azərbaycan xanları Rusiyanın onların istiqlaliyyətini qoruyacağı haqqında yalan vədlərə uyaraq müəyyən dərəcədə Rusiyaya meyl edirdilər. Bu isə Azərbaycan xanlarının Rusiya təcavüzünə qarşı vahid cəbhəsini təşkil etməyə imkan vermirdi.

1802-ci ilin sentyabr ayında Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilmiş gürcü kökənli, ancaq rus şovinisti general P.D.Sisianov (Pavel Dmitriyeviç Siskişvili) Cənubi Qafqazda rus müstəmləkə siyasətinin icraçısı oldu. Sisianov Azərbaycan xalqına həqarətli və amansız münasibəti ilə fərqlənirdi.

1802-ci ildə Həsən xan öldükdə Şeyxəli xan yenidən Dərbəndi Quba xanlığına birləşdirib, eyni zamanda Bakı xanlığına öz iddiasını bildirdikdə Sisianov bundan bərk hiddətlənərək 1803-cü ilin yanvar ayında qraf Vorontsova yazırdı ki, əlverişli halda Dərbəndi tutmaq lazımdır, çünki bu ona verilmiş göstərişin ümumi planına uyğundur.[1] Çar bütün dağlı hakimlərin etimadını itirməkdən qorxaraq hələlik buna icazə vermədi.[2]

---

[1] AKAK, c.1, sənəd 757

[2] Yenə orada, s. 782

## 2.4.Xanlıq dövründə Dərbənd şəhərində sosial-iqtisadi və ictimai vəziyyət

Dərbənd xanlığının ərazisi XVIII əsrin sonuna aid məlumata görə şimaldan Qaraqaytaq usmiliyi, qərbdən Tabasaran, cənub-dan Quba xanlığı, şərqdən isə Xəzər dənizi ilə həmsərhəd idi.[1] Xanlıq şimal-qərbdən cənub-şərqə doğru 60 verst, eninə 10-20 verst uzanaraq 680 verst əraziyə malik idi.[2]

Dərbənd şəhəri dağlardan dəniz sahilinədək 2 verst 375 sajen məsafədə uzanırdı. Butkovun yazdığına görə qalanın eni 470 addımdan çox deyildi.[3] Hündür enli qala divarları ilə əhatə olunmuşdu. Şəhər üç hissədən ibarət idi. Şəhərin əsas hissəsi Narınqala qeyri-düzgün dördbucaqlı şəklində tikilmiş. 2 hektar ərazini tutur və Xəzər dənizindən 340 m yüksəklikdə yerləşirdi.[4] Narınqala şəhərin "Dərbənd" adlandırılan orta hissəsindən doqquz müdafiə bürcü olan divarla ayrılmışdı. Şəhər əhalisinin böyük hissəsi orta hissədə yaşayırdı.[5]

Narınqalada xan və əyanlar yaşayırdılar. Buradakı təbiət təsvirləri və ornamentlə bəzədilmiş xan sarayında təmtəraqlı otaqlar və evlər vardı. Onların ortasında səkkizguşəli hovuz vardı. Şəhəri qoruyan qoşun da burada yeləşirdi.Narınqala qəsrinin özü şəhər üzərində hakim mövqeyə malik idi. Burada yeraltı yol vardı, qüllələrinin zirzəmilərində barıt və artilleriya vasitələri

---

[1] Федор Симонович. Описание Южного Дагестана.1796 год. ИГ и Э Дагестана, с.142
[2] ОРВЗ,ч.4,с.151
[3]Tofiq Mustafazadə.Quba xanlığı. Əlavə № 60, s. 364.
[4] П.И.Спасский.Дербентские укрепления. Отд.оттиск из 4-го выпуска Известий Азкомстариса.Баку: 1928, с.270
[5] Bax: Tofiq Mustafazadə. Quba xanlığı. Əlavə № 3, s. 372; Иоганн Г. Гербер. Описание, с. 86.

saxlanırdı.[1] Şəhər əhalisini su ilə təmin etmək üçün qəsrin yanında Xan bulağı adlı içməli su mənbəyi vardı. Xan sarayının ərazisindəki iki böyük quyu müharibə zamanı sakinləri su ilə təmin edirdi. Dağlardan yeraltı borularla su gətirilirdi.[2] Dərbənd şəhəri XVIII əsrdə də öz müdafiə əhəmiyyətini saxlayırdı. S.Qmelin qeyd edirdi ki, Dərbənd şəhərini hücumla almaq çox çətindir və Dərbənd qalası böyük qəsrdir.[3] Narınqalanın ümumi sahəsi 4,5 hektar, divarlarının ümumi uzunluğu isə 900 m-ə yaxın idi. Qəsrin divarlarının qalınlığı 2,5-3,5 m təşkil edir, divarlar elə bil ki, təpənin zirvəsini əhatə edirdi və çox kəskin mailliyə malik idi.[4] Qeyd etmək lazımdır ki, Narınqaladakı xan sarayı, xan hərəmxanası, xan dəftərxanası XVII-XVIII əsrlərdə inşa olunmuşdu.[5] Möhkəm hasarların olması, qəsri üç tərəfdən əhatə edən dik yamaclar, böyük su ambarlarının mövcudluğu Narınqalanı düşmən üçün demək olar ki, alınmaz edirdi.[6] Narınqala bir növ şəhər içərisində şəhər idi. Qəsrin şəhərin orta hissəsindən daş divarla ayrılması sayəsində Narınqala nəinki xarici düşmən üçün, eləcə də şəhər sakinlərinin ola biləcək qiyamı üçün alınmaz olurdu. 1796-cı ildə Dərbənddə olmuş P.Q.Butkov yazırdı ki, Narınqalada yerləşən xan sarayı iki mərtəbəlidir, çay daşından inşa olunmuşdur, bütün şəhəri nəzarət altında saxlayan hündür yerdə yerləşir.[7] Sarayın qərb tərəfində ambarları, mətbəxləri olan yardımçı bina yerləşirdi. Qəsrin iki qapısından biri-şərq qapısı dağa tərəf olub Narınqala qapısı adlanırdı. Digər qapı qərb tərəfdə

[1] Гаси Абдуллаев(1965),с.197
[2] Евгений Козубский.Göst.əsəri,s.230
[3] Самуил Гмелин. Путешествие..,ч.2,с.15
[4] Гусейнбала Гусейнов.Энциклопедия города Дербента,с.301-392
[5] П.И.Спасский.Дербентские укрепления.с.271
[6] Гусейнбала Гусейнов.Энциклопедия города Дербента.Махачкала, 2005, с.303-3-4
[7] ИГ и ЭГ Дагестана,с.46

dağa baxan Dağ qapıları idi. Sonuncu qapı şəhər hakiminin xarici aləmlə əlaqələrində mühüm rol oynayırdı. Bu qapını xalq arasında "Gizli qapılar" adlandırırdılar.[1]

Şəhərin "Dubarı" adlanan dənizə bitişik hissəsində əvvəllər nə vaxtsa yunanlar və başqa xristianların yaşaması haqqında məlumat var. Görünür, sonralar iqtisadi tənəzzül səbəbindən onlar Dərbəndi tərk edib getmişdilər. Bu hissədə XVIII əsrdə heç kim yaşamır, şəhər sakinləri mühasirə vaxtları burada öz mal-qarasını otarırdılar.

Əsrin 70-ci illərində Dərbənddə olmuş S.Q.Qmelinin məlumatına görə XVIII yüzilliyin 70-ci illərində Dərbənddə 4 min ev vardı, bunlardan 100-ü ermənilərə məxsus idi. Şəhərdə hindli tacirlər də vardı.[2] 1796-cı ildə Dərbənd xanlığı ərazisində 3230 həyət vardı ki, bunun da 2180-i Dərbənd şəhərində yerləşirdi.[3] P.Q.Butkovun hesablamalarına görə əsrin sonunda Dərbənddə 1700 ev qalmışdı.[4] Butkov ayrı bir əsərində həmin dövrdə Dərbənd şəhərində 2189 ev olduğunu və bu evlərdə 9300 kişi (cəmi 18600 nəfər) yaşadığını qeyd edir.[5] Göründüyü kimi əslində Butkov sakinlərin sayını göstərərkən yanlışlığa yol vermiş, demək olar ki ikiqat artıq rəqəm göstərmişdir. Hər ev 3 döyüşçü verməli idi. 1796-cı ilə aid mənbədə Dərbənddə 2189 evin olduğu, bunlardan 90-da qriqoryan məzhəbli sakinlərin yaşadığı qeyd edilir.[6] Mənşəcə erməni rus mayoru A.Serebrovun 1796-cı ildə tərtib etdiyi təsvirə görə o zaman Dərbənd şəhərində

---

[1] Гусейнбала Гусейнов.Энциклопедия города Дербента,с.117

[2] Самуил Гмелин. Путешествие..,ч.3,пол.1-ая,с.20

[3] Аверян Серебров. Историко-еографическое описание Дагестана.1 796 год. ИГ и ЭД,с176

[4]Петр Бутков.Материалы..,, II his., s.582

[5] Петр Бутков.Выдержки из отчета..,ИГ и ЭД,с.202; Yenə onun. Сведения о Кубинском и Дербентском владениях.1798 год.ИГ и ЭД, с.210

[6] РГВИА, ф.846, оп. 1, д.18474, ч., л,18 и об

2180 ev, şəhər ətrafında isə 1050 ev olmuşdur. Serebrov Dərbənd şəhəri və ətrafındakı əhalinin kumık dilində danışdığını, burada vaxtilə Səfəvi I Şah Abbas tərəfindən köçürülmüş kürdlər və tatların da yaşadığını yazırdı.[1] A.Serebrovun hansı səbəbdənsə yanlışlığa yol verdiyini qeyd etməmək olmaz. O, nədənsə Azərbaycan türkcəsinin əvəzinə kumıkca qeyd etmişdir. N.F.Rtişşevin 1810-cu ilə aid məlumatına görə o zaman Dərbənddə 1435 müsəlman evi və 3953 müsəlman kişi, 28 erməni evi və 56 erməni kişi, 59 yəhudi evi və 166 yəhudi kişisi, cəmi 4175 kişi qeydə alınmışdı.[2] Deməli bütövlükdə şəhərdə təqribən 8350 nəfər yaşayırdı.

İ.Berezinin yazdığına görə 1825-ci ildə Dərbənddə cəmi 10294 nəfər yaşayırdı. O cümlədən, 89 yəhudi və 40 erməni evi vardı. 3 karvansara, 4 hamam, 8 dəyirman vardı.[3]

Dərbənd şəhərində müxtəlif sənətkarlıq məhsulları istehsal olunur, pambıq və ipək parçalar toxunurdu. Burada buğda, arpa, düyü və s. bitkilər becərilirdi. Dərbənddə bağçılıq və üzümçülük də inkişaf etmişdi. Üzüm, nar, badam, heyva, alma, qoz, qovun və qarpız yetişdirilirdi. Abşeronda olduğu kimi, burada da yerli sakinlərin başlıca məşğuliyyətlərindən biri zəfərançılıq idi.[4]

1832-ci il siyahıyaalınmasına görə Sabunoba kəndi ilə birlikdə Dərbənd şəhərində 1795 evdə 5139 kişi nəfəri qeydə alınmışdı.[5] Əhali zümrələr üzrə belə bölünmüşdü: bəylər və zadəganlar-68; ruhanilər: 4 axund, 39 molla, 11 müəzzin, 43 şeyx,

---

[1] История,География и этнография Дагестана,с.77
[2] Ртищев. ген.-лейтенант. Сведения о Дагестане. 1810 г.ИГ и ЭД, с.249
[3] Иван Березин. Путешествие по Дагистану и Закавказью. Казан: 1850, Приложение IV
[4] Гаси Абдуллаев Г.Из истории..,с.56
[5] ОРВЗ,ч.4,с.175

digər dinlərdən olan ruhanilər-4 erməni, 3 yəhudi.[1] Konfessiyalar üzrə əhalinin tərkibi aşağıdakı kimi idi: müsəlmanların onda bir hissəsi-sünnüməzhəb müsəlmanlar, qalanları şiəməzhəb müsəlmanlar. Sünnülərin 1 əfəndisi və 9 mollası vardı. Şiələrin 3 axundu və 34 mollası vardı.[2] Şəhərdə 17 məscid,1 sinaqoq və bir erməni kilsəsi vardı.[3]

A.İ.Axverdov 1804 cü ildə yazırdı ki, Dərbənd şəhərinin şimal tərəfində iki qapı var. Bulardan ən mühümü "Qırxlar qapısı",yaxud Dəmir qapı" adlandırılan qapı idi. Bu darvazadan bir qədər yuxarıda yerləşən qapı "Carçı qapısı" adlanırdı. Şimal divarında daha iki qapı varmış və onlar daşla hörülmüşdülər.[4] Şəhərin cənub hasarında yerləşən qapılardan biri "Xan qapı",digəri "Bayat qapı" adlanırdı. Bu hasarda olan üçüncü qapı "Orta qapı", dördüncü qapı isə "Yeni qapı" adlanırdı. Bunlardan başqa şəhərin üfüqi hasarlarında daha dörd qapı olubmuş və onlar sonradan hörülmüşdülər. İşlək vəziyyətdə olan bütün qapıların üzərinə hər iki tərəfdən kifayət qədər qalın olan dəmir lövhələr bərkidilmişdi.[5]

Dərbənd əhalisinin xeyli hissəsi sənətkarlıqla məşğul olurdu. Şəhərdə ipək, pambıq parçalar, mis qablar, dəmir əşyalar və s. istehsal olunurdu. Təkcə ipək parça istehsal edən 200-dən çox dəzgah vardı.[6] Sənətkarlıq məhsullarının xeyli hissəsi evlərdə qadınlar tərəfindən istehsal olunurdu. Onlar başlıca olaraq xalça-palaz toxuyur, həyətdə ipək qurdları bəsləyirdilər. Dərbənddə

---

[1] ОРВЗ,ч.4,s.175-176
[2] ОРВЗ,ч.4,cc.176-177
[3] Yenə orad,s.177
[4] Александр Ахвердов. Описание Дагестана.1804 г.ИГ и Э Дагестана,с.214
[5] Yenə orada,s.218-219
[6] ОРВЗ, ч. 4,с.178

papaqçı, dəmirçi, başmaqçı, sərrac, silahsaz, boyaqçı və s. sənətkar vardı.[1] Şəhər sənətkarlarının əsas hissəsini toxucular təşkil edirdi. XVIII əsrin sonralarında Dərbənddə 30 ipək, 115 pambıq parça istehsal edən karxana vardır.[2]

Şəhər əhalisinin böyük hissəsi orta hissədə yaşayırdı.[3] Bu hissədə xana məxsus ikimərtəbəli iki ev, ictimai binalar, 500-ə qədər dükan və 195 sənətkar emalatxanası, habelə 15 məscid, 6 karvansara və bir zərbxana yerləşirdi.[4]

Dərbənddə toxunan pambıq parçalar yerli tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də ixrac edilirdi. Dərbənddə 11 dəmirçinin fəaliyyət göstərməsi haqqında məlumat var.[5]

Dərbəndin yerləşdiyi ərazi demək olar ki, susuz olduğundan, ən yaxındakı Rubas çayı və Ulluçay 15-20 km aralıda yerləşdiyindən şəhər üçün yeganə su mənbəyi şəhərin qərbində yerləşən bulaqlar idi. Su bu bulaqlardan öz axarı ilə borulalarla şəhərə axırdı.

Dərbənd şəhərində başlıca vergilər gömrük rüsumları və ticarətdən toplanan vergilər idi. Xəzinənin əsas gəlir mənbələri malların çəkilməsinə görə alınan rüsum,heyvan satışından alınan rüsum, mal kəsiminə görə alınan rüsum, balıq ovuna görə toplanan vergi, tütün satışından, parçaların boyanmasından, xan və fərdi dükanlardan, hamamlardan toplanan vergilər idi.[6] Ən

---

[1] ARDTA, f.24, siy.1, iş 36, v.10

[2] Петр Бутков. Göstr. əsəri, II his., 202

[3]Иоганн Гербер. Описание..,с.86.

[4]Петр Бутков. Выдержки из отчета.., с.202.

[5]Обозрение Российских областей за Кавказом.ч.III,с.312.

[6] Назим Магомедов.Дербентское ханство в русско-иранских и русско-турецких взаимоотношениях во второй половине XVIII -начале XIX в.Махачкала:2000,с.48

gəlirli maddə rəhdar vergisi idi. Bütün mallardan və sənətkarlıq məhsullarından  rüsumlar alınırdı.

Dərbənd sakinlərinin məşğuliyyətləri içərisində balıqçılığın müəyyən yeri vardı. Sakinlər kütüm balığını daha yüksək qiymətləndirirdilər.[1]

Dərbənddən şimal tərəfdə neft çıxarılırdı.[2] Dərbənd ətrafındakı göllərdən duz toplanırdı. Duz həm yerli sakinlərin ehtiyacını ödəyirdi həm də ixrac olunurdu.[3]

Dərbənd şəhərində sənətkarlıq çox inkişaf etmişdi. Dərbənd sənətkarları əsasən yerli xammaldan istifadə edirdilər. Pambıqçılığın və qoyunçuluğun inkişafı toxuculuq sənətinin inkişafı üçün zəmin yaradırdı.[4] Şəhərin ənənəvi sənətkarlıq sahələrindən biri xalçaçılıq idi. Yüksək keyfiyyətli yunun olması və təbii boyadıcıların bolluğu  xalçaçılığın inkişafı üçün əlverişli şərait yaradırdı.[5] Şəhərdə hazırlanan boyalar parlaq və möhkəm idilər. Parça və ipliklərin boyanması ilə ayrıca ustalar məşğul olurdular.[6]

Dərbənd şəhərində toxunan xalçalar xalı adlanan xovlu və cecim adlanan xovsuz xalçalardan ibarət idi. Kiçik ölçülü xovsuz xalçalar da toxunurdu.[7]

Xalçaçılıq və toxuculuğun inkişafı boyaqçılığın inkişafına təkan verirdi.

---

[1] ИГ и Э Дагестана, с.12; Гаси Абдуллаев.Из истории…,с.125

[2] Джон Белл. Белевы путешествия через Россию в разные Асиятские земли, а имянно: Испагань, Пекин,в Дербент и Константинополь(Пер.с французского М.Попова).СПб.: Тип.при Имп.АН, 1776,ч.1,с.174

[3] Андреян Лопухин.Журнал путешествие через Дагестан. 1718 г. ИГ и Э Дагестана, с.9; 168.2.1, Российский Государственный Военно-Исторический Архив, ф.846, оп.16, д.18474, лл.23-24

[4] Гаси Абдуллаев.Из истории…,сс.138-139

[5] Tofiq Mustafazadə.Quba xanlığı,s.58-59

[6] Гаси Абдуллаев.Из истории…,сс.139-140

[7] История Дагестана с древнейших времен до наших дней.Москва:Наука, 2004, с.30

Dərbənddə dabbaqlıq sənəti də inkişaf etmişdi. Dabbaqlar dəri üzərinə gül və digər naxışlar vura bilirdilər. Bunun sayəsində hazırlanan çəkmələr, başmaqlar, yəhərlər və məişətdə istifadə olunan dəri əşyalar çox gözəl olurdu.[1]

Dərbənd şəhərində metal emalı da inkişaf etmişdi. Dəmirçilər müxtəlif kənd təsərrüfatı alətləri-xış və kotan dişləri (ucluqları), araba təkərləri üçün çənbər, nal, bıçaq, balta, ling, külüng, vəl, oraq, dəryaz, zəncir və s. hazırlayırdılar. Bununla yanaşı dəmirçilər qalay və misdən müxtəlif məişət əşyaları hazırlayırdılar.[2] Dərbənd dəmirçiləri dəmir, mis və qalayı ya Şəmaxıda,ya da Dərbənd bazarında alırdılar. Dərbənd bazarına həmin metallar Rusiya tacirləri tərəfindən gətirilirdi.[3]

Dərbənddə soyuq və odlu silah hazırlanması da böyük əhəmiyyətə malik idi. Bunlar əsasən xəncər və bıçaqlar idi. Yüksək məharətə malik ustalar xəncər və bıçaqların dəstələrini Dərbənd üçün xas olan müxtəlif ornamentlərlə bəzəyirdilər. Xəncər və bıçaqlarda həmçinin güllər, müxtəlif heyvan fiqurları və s. təsvir olunurdu.[4]

Dərbənddə bədii sənət növlərindən zərgərlik çox inkişaf etmişdi. Bu şəhərdə hazırlanan zərdərlik məmulatlarına təkcə Azərbaycanda deyil, Dağıstan və Rusiyada da böyük tələbat vardı.[5]

Dərbənd ətrafındakı dağlarda kükürd bol olduğundan şəhərdə barıt hazırlanması geniş yayılmışdı. Şəhərdə ən geniş

---

[1] Федор Соймонов.Описание Каспийского моря и чиненных на оном Российских завоеваний, яко часть истории Петра Великого. СПб.: Тип.Импер.АН,1763,с.171

[2] Гаси Абдуллаев.Из истории…,с.141

[3] Назим Магомедов.Дербент и Дербентское владение,с.181

[4] Назим Магомедов.Дербент и Дербентское владение,с.183

[5] Орхан Назарапиев.Göst.dis-sı,s.129

yayılmış sənət sahələrindən biri dulusçuluq idi. Dərbənddə müxtəlif cür çini və saxsı qablar hazırlanırdı. Onlar zərif bədii formaları ilə fərqlənir, üzərlərində gözəl təsvirlər olurdu.[1] Dərbənddə yayılmış sənətkarlıq sahələrindən biri də ağac məmulatlarının hazırlanması idi.

Dərbənd şəhərində inşaat sənətləri tərəqqi etmişdi. Başlıca inşaat xammalı daş idi. Dərbənd evləri möhkəmliyi və davamlığı ilə fərqlənirdi.

Şəhərdə ərzaq məhsullarının hazırlanması ilə məşğul olan qənnadıçılar, aşbazlar, şərabçılar və s. var idi.

Dərbənddə kağız istehsalı zəif inkişaf etmişdi. Burada hazırlanan kağız möhkəm deyilidi və kobud idi. Buna görə də kağızı Dərbəndə digər ölkələrdən gətirirdilər.

Azərbaycanın digər şəhərlərində və ümumiyyətlə Şərq ölkələrində olduğu kimi Dərbənddə də sənətkarlar əsnaflar və ya həmkarlar deyilən təşkilatlarda birləşmişdilər. Dərbənddə karxanalar da mövcud idi.[2] Karxanalar bir növ ən sadə manufakturalar idi. Bunlarda azad sənətkarlar çalışırdılar. P.Q.Butkov Dərbənddə ipək və pambıq parçalar toxunan karxanalar olduğunu yazırdı.[3] Karxanalarda əmək alətləri əvvəlkitək bəsit idi.Yenə Pyotr Butkovun yazdığına görə 1796-cı ildə Dərbənddə 30 ipəkçilik və 113 pambıq parça toxunan karxana var idi.[4] 50 karxanada isə digər növ parçaların toxunması ilə məşğul idilər.

1832-ci ildə Dərbənddə 200 ipək toxuyan dəzgahın olması haqqında məlumat var.115 pambıq parça toxuyan dəzgah vardı.[5]

---

[1] Анатолий Новосельцев.Пути развития феодализма (Закавказье,Средняя Азия, Русь, Прибаптикв) Москва:Наука, 1980, с.94
[2] Назим Магомедов, Дербент и Дербентское владение, с.125
[3] Петр Бутков. Выдержки.., с.202
[4] Yenə orada
[5] ОРВЗ, ч.4, с.188.

12 işçisi olan 4 misgər emalatxanası, 11 dəmirçi vardı.[1] Ümumiyyətlə şəhərdə 170 sənətkar emalatxanası vardı.[2]

Dərbənddə bazarlar, karvansaralar və mərkəzi meydan Narınqalaya bitişik ərazidə yerləşirdi. Burada tacirlərin və sənətkarların yaşadığı bir sıra məhəllələr vardı (dulusçular, bəzzazlar, xarratlar, nalbəndlər, zərgərlər, dabbaqlar və s.).[3]

Sənətkar emalatxanalarında adətən bir usta və bir şagird olurdu.Bazarlar həm mühüm ticarət mərkəzi, həm də sənət istehsalı mərkəzi idilər. Dərbənddə sənətkarlar fərdi sənətkarlara və karxanada çalışan sənətkarlara bölünürdülər.[4] Ən çox karxanaların toxuculuq sahəsində olması toxuculuq məhsullarına olan böyük tələbat ilə bağlı idi. Hər bir karxana onda hazırlanan məhsula uyğun adlanırdı. Məsələn, bıçaqxana, misgərxana. Hər bir karxanada baş usta vəzifəsi vardı.[5]

Karxanalar adətən xana, yaxud hər hansısa feodala məxsus olurdu. Karxanalarda əmək bölgüsü var idi. Karxanalarda ən yaxşı sənətkarlar toplanmışdı, onlarda nisbətən məhdud ixtisalaşma müşahidə olunurdu. Karxanaların xammalla təminatı nisbətən asan idi. Karxana istehsalının inkişafı tədricən xırda sənətkar istehsalını sıxışdırırdı.[6] Karxana məhsullarının ucuz başa gəlməsi onların daxili və xarici bazarda rəvan satılmasına imkan yaradırdı. Ancaq karxana işçilərinin karxana sahibindən asılı olması karxanaların inkişafına mane olurdu. Avropa ölkələrindən

---

[1] ОРВЗ, ч.4, s.189-190.
[2] Yenə orada,s.190.
[3] Назим Магомедов, Дербент и Дербентское владение…,с. 127
[4] Гаси Абдуллаев.Из истории…,сс.136-127.
[5] Федор Соймонов.Göst.Əsəri,s.,272.
[6] Жан Шарден.Путешествия по Закавказью.1672-1673 гг.Тифлис: 1900, с.224.

daha ucuz manufaktura məhsullarının gətirilməsi də karxanaların inkişafına mane olutdu.

Dərbəndin Azərbaycanın ən şimal dəniz limanı olması, Dağıstanla həmsərhəd və Rusiya ilə yaxın olması burda ticarətin inkişafı üçün əlverişli zəmin yaradırdı.

Dərbənd şəhərində ali hakimiyyət xana mənsub idi. O,qeyri-məhdud icra və qanunverici hakimiyyətə malik idi.

Xanın şəxsi təsərrüfatının idarəsi ilə eşikağası məşğul olurdu. Bilavasitə şəhərin idarəsinə naib başçılıq edirdi. Şəhərdə qalabəyi vəzifəsi də mövcud idi. O, şəhərin təhlükəsizliyinə məsul idi və bilavasitə xana tabe idi. Kələntər tacirlərin fəaliyyətinə başçılıq edirdi. Darğalar və əsəsbaşılar qalabəyiyə tabe idilər. Darğa bazara nəzarət edir, əsəsbaşı isə gecə mühafizəçilərinin rəisi idi.[1]

Dərbənd əhalisinin əhəmiyyətli hissəsini hərbi qulluqçular təşkil edirdi. Zabitlər öz xidmətləri müqabilində ya torpaq sahəsi, ya da dövlətə məxus torpaqlardan gəlirin müəyyən məbləğini alırdılar.[2] Xanın başlıca dayağı olan qoşun mühafizə dəstəsindən,maaflardan və feodalların çəriklərindən ibarət idi.

Ruhani zümrəsi şəhərin həyatında mühüm rol oynayırdı. Ruhanilərə şeyx ül-islam başçılıq edirdi. Hər cümə məscidinin imamı var idi. Şəhərdə 16 cümə məscidi vardı. Ruhanilərin digər qismi vaizlər, mədrəsə müəllimləri və dərviş xanəgalarının şeyxləri idi. Müsəlman ruhaniləri çoxsaylı vəqflərə nəzarət edir və gəlilərini bölüşdürürdülər.[3] Ruhanilərin əsas gəliri vəqf mülklərindən toplanan torpaq rentasından, həmçinin bütün

---

[1] Назим Магомедов. Дербент и Дербентское владение,с.55.

[2] Гусейнбала Гусейнов. Энциклопедия города Дербента,с.188.

[3] Илья Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв.Ленинград:Извд-во ЛГУ, 1949,с.110

əhalidən toplanan zəkat və fitrədən ibarət idi. Pişnamazlar, mərsiyəxanlar və mollalar, habelə seyidlər, ağamirlər, müəzzinlər və mürdəşirlər də ruhani zümrəsinə daxil idilər.[1]

Bəylər müxtəlif inzibati və hərbi işləri yerinə yetirirdilər. İrsi bəylər çox nüfuzlu idilər, çünki, onların sələfləri bu titulu şahlardan və ya xanlardan almışdılar. Onların kəndlilərlə məskunlaşmış və ya məskunlaşmamış torpaq mülkləri vardı. Bəzən mənşəcə bəy olmayan bəzi şəxslərə hansısa xidmətlərinə görə xan hər hansı bir vəzifə verərək ona bəy titulu da verirdi,q əzəbləndikdə isə bu titulu ondan geri alırdı.[2] Belə bəylər xidməti bəylər adlanır və xidmətləri müqabilində rəiyyətlərlə,yaxud rəncbərlərlə məskunlaşmış torpaq əraziləri alırdılar. Xidməti bəylərin titulu müvəqqəti xarakter daşıyırdı və vəzifəsindən kənarlaşdırıldıqda bəy rütbəsi də geri alınırdı. Onlardan fərqli olaraq irsi bəylərin daha geniş hüquqları vardı, onlar kiçik cinayətlərə görə idarəçiliyi altında olan təbəələri cəzalandıra və ya cərimələyə bilərdilər.[3] İrsi bəy öldükdə xan bəy rütbəsinin onun böyük oğluna, yaxud ailədə ən hörmətli olan şəxsə verilməsi haqqında təliqə imzalayırdı. İrsi bəylərin irsi mülkləri vardı və xan bu mülkləri onlardan və ya xələflərindən ala bilməzdi. Hər hansı bəy xana xəyanət edərdisə , xan onun yerinə ayrısını təyin edə bilərdi.[4]

Dərbənd bəylərinin çoxusu xidməti bəylər idi, irsi mülkləri yox idi, xan istədiyi vaxt onları sahib olduğu mülkdən

---

[1] Tofiq Mustafazadə. Quba xanlığı,s.69

[2] Михаил Полиевктов. Европейские путешественники XIII -XVIII вв.по Кавказу. Тифлис:Изд-во АН Груз.ССР,1935,с.68

[3] Tofiq Mustafazadə. Quba xanlığı,s.66-67

[4] Yenə orada,s.67

məhrum edə bilərdi. Belə bəyləri xalq arasında "ac bəy"lər adlandırırdılar.[1]

Dərbəndin ticarətində azərbaycanlılarla yanaşı Dağıstan xalqları da fəal iştirak edirdilər. Mənbədə deyilir ki, Dağıstan xalqları Dərbəndə ildə 10 min manat gümüş pul dəyərində mahud, qoyun dərisi, yağ, bal, xalça, palaz gətirirdilər.[2]

Dərbənd xanlığını Quba xanlığına birləşdirdikdən sonra Fətəli xan bu şəhərin ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. O, 1765-ci ildə rus hökumətinə müraciət edərək qarşılıqlı fayda əsasında ticarəti genişləndirməyi , "İrana yola düşən gəmilərin" ilk növbədə Dərbəndə yan almasını təklif edirdi. Xan həm də bəzi ixracı qadağan olunmuş malların, ilk növbədə dəmirin ixracına icazə verilməsini xahiş edirdi.[3]

XVIII yüzilin ikinci yarısında Dərbəndə yan alan ticarət gəmilərinin sayı əhəmiyyətli dərəcədə artsa da, Dərbənd, Rusiya-Azərbaycan ticarətində Bakı, Şamaxı və Salyanı ötə bilməmişdi. Qonşu Dağıstan feodallarının Quba xanları ilə düşmənçiliyi, Dərbənd ətrafında yaşayan əhalinin alıcılıq qabiliyyətinin aşağı olması və gəmiçiliyə mane olan sualtı sahilyanı daşlar Dərbəndin ticarət əlaqələrinin genişlənməsinə mane olurdu.

Bu məsələ ilə bağlı Quba xanına göndərilən cavab məktubunda II Yekaterina və rus hökumətinin digər yüksək rütbəli şəxsləri Fətəli xanın Rusiya ilə ticarəti genişləndirmək cəhdlərini yüksək qiymətləndirirdilər. II Yekaterina İrana üzən gəmilərin əvvəlcə Dərbəndə yan almalarını tövsiyyə edir, ancaq tacirlərə bu məqsədlə təzyiq göstərilməsini qadağan edirdi.[4]

---

[1] Орхан Назаралиев.Göst.dis-sı,s.109
[2] Yenə orada,s.111.
[3] ГААО, ф. 394, оп. 1 (Дополнения), д. 20, лл. 18-19.
[4] ГААО, ф. 394, оп. 1 (Дополнения), д. 20, лл. 18-19

Dərbənddə ticarətlə həm şəhər sakinləri, tacirlər və sənətkarlar, həm də xarici tacirlər-ruslar, gürcülər, iranlılar, hindlilər məşğul olurdular. Bir çox vergi və rüsumların toplanması müqaitəyə verilirdi. Hər hansı tacir hansısa əmtəəni şəhərdən aparmaq üçün müqaitədara müəyyən olunmuş məbləği ödəyib, icazə kagızı almalı idi. Kimsə icazəsiz şəhərdən mal çıxarardısa müqaitədara ikiqat məbləğdə cərimə ödəməli idi.[1] Müqaitə sisteminin mövcudluğu ticarətin və əhalinin vəziyyətinə mənfi təsir göstərirdi. Çünki, icarədarlar vergi və rüsumları hakimiyyət orqanlarının müəyyənləşdirdiyindən iki-üçqat çox toplayırdılar.[2]

Rəhdar və gömrük rüsumları Dərbəndə gətirilən və Dərbənddən aparılan (ərzaq malları istisna olmaqla) bütün mallardan alınırdı.[3]

Dərbənd sahili gəmilərin yan alması üçün əlverişsiz olduğundan buraya gəmilər az gəlirdilər. Gilan vilayəti və Şamaxı şəhəri Dərbəndi müxtəlif pambıq və ipək parçalarala (kutni, qanauz, kiseyi və burmet) təmin edirdilər. Gilan və Şamaxı tacirləri burada şəhər ətrafında istehsal olunan "Kubeçi şalı" adlanan zərif mahud alıb aparırdılar. Dərbənddən həm də böyük miqdarda zəfəran aparırdılar. Qmelinin yazdığına görə məhsul yığımı zamanı Dərbənddə zəfəranın bir pudunu cəmi 100 rubla almaq olurdu ki, bu da Avropadakı qiymətlərdən çox aşağı idi.[4]

XVIII–XIX əsrin əvvəllərində Dərbənd Rusiya–İran və Rusiya-Azərbaycan ticarətində vasitəçi rolunu oynayırdı,mühüm tranzit məntəqəsi idi. Şamaxı-Tarki Qızlar-Həştərxan dəniz yolu

---

[1] Русско-дагестанские отношения в XVII – XVIII вв. Документы и матералы (Сост.Р.Г.Маршаев).Махачкала: Дагкнигоиздат, 1958, с.219
[2] Гаси Абдуллаев (1965), с.170
[3] Назим Магомедов. Дербент и Дербентское владение, с.218
[4] Самуил Гмелин. Путешествие.., ч.3, пол.1-ая, с.21

Dərbənddən keçirdi. Qmelin yazırdı ki, Gilan vilayəti və Şamaxı Dərbəndi müxtəlif ipək və pambıq parçalarla təmin edirlər,burada həmin mallar Dağıstanda toxunan zərif ipəyə mübadilə olunurlar.[1] Dərbəndlə Dağıstan xalqları arasında tarixən təşəkkül tapmış iqtisadi əlaqələr mövcud idi. Kubaçılilər, tabasaranlılar, qazıqunuqlular, axtılılar, rutullar və digər dağlı xalqları istehsal etdikləri məhsulları Dərbəndə gətirir və burada neft, duz və Rusiya malları alırdılar.[2]

Dərbənd tacirləri həm də Dağıstanın kəndlərində ticarətlə məşğul olurdular. Dağıstan tacirləri də öz mallarını Dərbəndə gətirirdilər. Onlar əsasən heyvandarlıq və sənətkarlıq məhsulları gətirirdilər.

Yalnız 1789-1791-ci illərdə Dərbənddən Rusiyaya yerli emalatxanalarda istehsal olunmuş 23407 basma və bez parçalar ixrac olunmuşdu.[3] Təkcə 1791-ci ildə Dərbənddən Rusiyaya dəniz yolu ilə 27300 rubl 64 qəpik, quru yolu ilə 54789 rubl dəyərində mal aparılmışdır. Elə həmin il Həştərxan limanı vasitəsilə Rusiyadan Dərbəndə 11850 rubl 73 qəpik dəyərində mal gətirilmişdi.[4] Rus konsulu Skibinevskinin yazdığına görə Rusiyadan Dərbəndə mahud, boyalar, ətirlər, şəkər, ipək pambıq parçalar, məişət əşyaları və s. gətirilirdi.[5]

Rusiyadan Dərbəndə gətirilən mallar içərisində ingilis və holland mahudu, Rusiya istehsalı olan dəri məmulatı, xüsusən də işlənmiş dəri yuft, xəz, savr, samur, dələ, tülkü və sincab

---

[1] Самуил Гмелин.Путешествие..,ч.3,пол.1-ая,с.33
[2] Гаси Абдуллаев.Азербайджан в XVIII...,с.141
[3] Обозрение Российских владений за Кавказом.ч.3,с.312
[4] .РГАДА,ф.1261,оп.6,д.949,лл.85-123.
[5] Архив Государственного Совета.Протоколы Совета в царствовании Екатерины т.2,СПб, 1888,сс.691-692..

xəzlərinə, quzu dərisi, Buxara və Kalmık qoyun dərilərinə və başlıcası isə dəmir və misə ən çox tələbat vardı.[1]

Xanlıq dövründə Dərbənd digər Azərbaycan xanlıqlar, qonşu Dağıstan vilayətləri və habelə Rusiya ilə geniş ticarət əlaqələrinə malik idi. Rusiya hökumətinin yeritdiyi merkantilist və inhisarçı siyasət ticarətin inkişafına mane olurdu. Yəni rus hakimiyyəti Rusiyadan qızıl və gümüşün, o cümlədən gümüş pulların ölkədən çıxarılmasını qadağan etdyiyndən digər Şərq tacirləri kim Dərbənd tacirləri də Rusiyaya aparıb satdıqları mallara görə qazandıqları pulu Rusiyadan çıxarmaq hüququna malik deyildilər, buna görə də həmin pula hansısa malı alıb aparmalı idilər. Bu qayda elə Rusiya tacirlərini də çətin vəziyyətə qoyurdu. Çünki onlar da Rusiyadan pul gətirə bilmədiklərindən lazım olan malları, ilk növbədə xam ipəyi və ipək məhsullarını almağa nağd pulları olmadığından mallarını yerli mallarla dəyişdirmək məcburiyyətində qalırdılar. Mal sahibləri isə buna həvəsli olmadığından rus tacirləri onları mübadiləyə razı salmaq üçün malları xeyli ucuz satmağa məcbur olurdular. Üstəlik, rus hökuməti bir sıra strateji məhsulların-dəmir, əlvan metallar,ə rzaq və başqa malların ixracına da qadağa qoymuşdu. Bu az imiş kimi, Senatın 6 iyul 1758-ci il tarıxli qərarı ilə "İran ticarəti üzrə şirkət" təsis edilmiş və göstəriş verilmişdi ki, Həştərxandan və Qızlardan yalnız bu şirkət mal aparmaq hüququna malikdir.[2]

Dərbənd sakini Musakay Mirzakayev 11 oktyabr 1760-cı il tarixdə Qızlar komendantı İ.F.Boksberqə yazırdı ki, o, oğlu İmamverdi ilə birlikdə Dərbənddən Qızlara müxtəlif ipək və pambıq parçalar gətirmişdir. Müəyyən olunmuş gömrük

[1] Tofiq Mustafazadə. Quba xanlığı,s.59
[2] Русско-дагестанские отношения..,с.92; ЦГА Даг.Р, ф.379, оп.1, д.468, лл.98-99.

rüsumlarını ödədikdən sonra “İran ticarəti üzrə şirkət”inin Qızlardakı nümayəndəsi Pyotr Dmitriyevdən xahiş etmişdir ki, gətirdiyi malları qalın kətana dəyişsin, sonra o həmin kətanı Rusiya təbəəsi olan kumıklara satar. Çünki, Dərbənddə köynək və digər paltarları əsasən ipək və pambıq parçalardan tikildiyindən qaba kətanı demək olar almırlar. Lakin P.Dmitriyev Mirzakayevin mallarının ona lazım olmadığını bildirərək onları almaqdan imtina etmişdir. Bu səbəbdən də ata və oğul Musakayevlər mallarını yerli tacirlərlə mübadilə edərək 480 rubl dəyərində 12 min arşın qaba kətan almışlar. Musakayev həmin kətan parçaları Rusiya təbəəsi olan kumık kəndlərində aparıb satmaq istəyirdi, ancaq P.Dmitriyevin buna mane olacağından ehtiyat edirdi.[1]

P.Q. Butkov 1796-cı ildə Dərbənddə 6 karvansara, 500 ticarət-sənətkar dükanının və zərbxana olduğunu yazırdı.[2]

Məlum olduğu kimi 1782-ci ildə qubalı Fətəli xanla rus eskadrasının komandiri qraf Voynoviç arasında bağlanmış sazişə əsasən yerli sakinlər Xəzər dənizində gəmi saxlamaq hüququndan məhrum edilmlşdilər. Azərbaycan tacirləri ya öz mallarını rus gəmilərində daşımalı, ya da bu məqsədlə rus gəmisi icarəyə götürməli idilər. Lakin rus ticarət donanması bu yükün öhdəsindən gələ bilmirdi və buna görə də rus hökuməti digər ölkə təbəələrinin də Xəzərdə ticarət gəmisinə sahib olmasına imkan verən qərar qəbul etdi.[3] Dərbəndin Rusiya ilə ticarətində Azərbaycan, Dağıstan, gürcü və hindli tacirləri iştirak edirdilər.

---

[1] ЦГА Даг.Р, ф.379,оп.1,д.484,л.77.
[2] Петр Бутков. Выдержки..,с.202
[3] Гаси Абдуллаев(1965), с.304-305

Bir sıra Dərbənd tacirləri Həştərxanda yaşayaraq ticarətlə məşğul olurdular.[1]

Rusiya hökuməti bir sıra malların (gəmiqayırma üçün zəruri malların, bütün silah növlərinin, barıt, dəmir, qurğuşun qalay, hər cür hərbi vasitələrin, hərbi geyim) Şərq ölkələrinə, o cümlədən Azərbaycana ixraclına qadağa qoymuşdu. Bu malları tacirlər gizli surətdə Rusiyadan çıxarırdılar.

Dərbənd şəhərinin ən çox ticarət əlaqələri təbii ki, digər Azərbayacan şəhərləri ilə idi. Lakin yüksək gömrük tarifləri bu ticarətin inkişafına mane olurdu.[2] Fətəli xanın Şimal-şərqi Azərbaycan ərazilərini vahid dövlətdə birləşdirdiyi dövrdə Dərbənd şəhərinin Quba, Şamaxı, Salyan, Cavad, Lənkəran şəhərləri ilə ticarət əlaqələri çox genişlənmişdi.

## 2.5. Dərbənd şəhərinin Rusiya tərəfindən işğalı

Əgər əvvəllər - XVIII əsrdə Rusiyanın Azərbaycana iki hücumu Dərbənddən keçməklə yönəlmişdisə bu dəfə hücum Car-Balakən və Gəncə istiqamətindən başladı. Çünki 1801-ci ildə Şərqi Gürcüstan birləşdirildikdən sonra Rusiya burda əlverişli platsdarm əldə etmişdi. P.Sisianov ilk zərbəni Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə yerləşən Car-Balakən camaatlarına yönəltdi. 5 minlik gürcü qoşununun da yardım etdiyi geneneral. Qulyakovun başçılıq etdiyi rus hərbi hissələri 1803-cü ilin mart-aprel aylarında yerli əhalinin

---

[1] Şəfiqə Həmidova. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: Elm,1985, s.28

[2] Орхан Назаралиев. Göst.dis-sı,s.146

müqavimətini qırıb Balakəni alıb yandırdılar, sonra isə Carı işğal etdilər.[1]

Rus qoşunlarının Azərbaycan daxilinə sonrakı irəliləyişinin açarı Gəncə qalası idi. Buna görə geneneral. Sisianov Gəncə xanlığının ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. O, Gəncə xanlığı ərazisinin çariça Tamara dövründə Gürcüstanın tərkibində olduğunu iddia edərək, şəhəri təslim etməyi tələb etdi və bildirdi ki, tələbi qəbul olunmasa “Gəncəyə atəş və qılıncla gələcək.”[2] Cavad xan işğalçının tələblərini rədd etdi. Bir ay davam edən mühasirədən sonra 1804-cü il yanvarın 2-dən 3-nə (14-dən 15-nə) keçən gecə rus qoşunları həmlə ilə Gəncəni aldılar. Cavad xan və onun oğlu Hüseynqulu ağa qəhrəmancasına döyüşərək həlak oldular. [3] Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi. Şəhərin adı dəyişdirilərək I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol qoyuldu.

Rus qoşunlarının Cənubi Qafqazda irəliləməsi Qacar sarayının kəskin narazılığına səbəb oldu və Fətəli şah rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdiyində 1804-cü il iyulun 10-(22)-da Rusiya ilə Qacar İranı arasında müharibə başladı. Cənubi Qafqazdakı rus qoşunlarının sayı az olsa da komandanlıq hücum taktikasını seçdi. 1804-cü ilin iyul ayında İrəvan xanlığı ərazisində baş verən döyüşdə rus qoşunu sayca üstün olan Qacar qüvvələri üzərində qələbə çaldı. Lakin yeni, daha çoxsaylı şah qüvvələrinin Cənubi Qafqaza gəlib Gəncəyə tərəfə irəliləməsi rus qoşunlarını İrəvandan geri çəkilməyə vadar etdi.[4]

---

[1] Azərbaycan tarixi,IV cild, s. 18
[2] AKAK, II c., sənəd 1172, s.588-589
[3] Azərbaycan tarixi, IV cild, s. 19
[4] Azərbaycan tarixi, IV cild s. 21

Bir sıra Azərbaycan xanlıqları asılı şəkildə olsa da öz mövcudluqlarını qorumaq üçün Rusiyanın təbəəliyini qəbul etmək haqqınfa müqavilələr imzaladılar. 1805-ci il mayın 14 (26)-də Sisianovun Kürəkçay düşərgəsində onunla qarabağlı İbrahimxəlil xan arasında bağlanmış müqaviləyə görə xan rus imperatorundan vassal asılılığı qəbul etdi. Xan xarici siyasət səlahiyyətlərini bütünlüklə Rusiyaya güzəştə getdi və ildə 8 min əşrəfi (qızıl çervon) bac verməyi öhdəsinə götürdü. Rus çarı öz növbəsində xan sülaləsinin bütün hüquqlarını qorumağı öhdəsinə götürdü. Bir həftə sonra şəkili Səlim xanla da eyni məzmunda müqavilə bağlandı.[1] Bundan sonra Sisianov öz hərbi qüvvələri ilə Şamaxı xanlığının ərazisinə daxil oldu və şamaxılı Mustafa xanı 1805-ci il dekabrın 27-də (yeni üsulla 1806-cı il yanvarın 8-də) Rusiya təbəəliyinə keçmək haqqında müqaviləni imzalamağa vadar etdi.[2]

Şamaxını tabe edən geneneral. Sisianov 1806-cı ilin fevral ayında özü böyük qoşun dəstəsi ilə Bakı ətrafına gəldi və burada geneneral. Zavalişinin desant dəstəsi ilə birləşdi. Sisianov Hüseynqulu xandan Rusiya təbəəliyini qəbul etməyi tələb etdi.[3] Hüseynqulu xan razılaşdığını bildirdi və fevralın 8-də Sisianov polkovnik Eristavinin müşayiəti ilə onu qala darvazalarının önündə gözləyən Hüseynqulu xanın görüşünə getdi. Məlum olduğu kimi görüş zamanı P.Sisianov Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürülmüşdür. General. Zavalişin rus qoşunlarını Bakıdan Sara adasına, oradan da Qışlara aparmağa məcbur oldu.[4]

---

[1] Azərbaycan tarixi ( Uzaq keçmişdən 1870-ci illərə qədər), s. 705
[2] AKAK, I c., s. 705
[3] AKAK,II c., sənəd 1511, s. 738; Марзия Искендерова Бакинское ханство., c. 150
[4] Марзия Искендерова. Göst.əsəri, s. 154-155.

1806-cı iliyun ayının 2-də general İ. Qudoviç Qafqazdakı rus qoşunlarının baş komandanı təyin olundu. Rus qoşunları yenidən Azərbaycanda fəallaşdılar. İyunun 3-də gen. Qlazenapın dəstəsi Dağıstana daxil oldu və Tarki şamxalı Mehdi xan öz qüvvələri ilə onunla birləşdi.[1]

Qeyd etmək lazımdır ki, Mehdi xan çoxdan rusların xidmətində idi və ona general-leytenant rütbəsi verilmişdi. Mehdi xan Fətəli xanın qızı Pəricahan xanımla evli olduğundan Dərbəndə iddia edirdi. Mehdi xanın casusları Dərbəndə gələrək Şeyxəli xana qarşı təbliğat aparırdılar. Şeyxəli xandan müəyyən qədər narazı olan dərbəndlilər bu təbliğata uydular. Şeyxəli xana qarşı ayaqlandılar. Yəqin ki, Şeyxəli xanın bəzi özbaşınalıqları əhalidə ona qarşı narazılıq yaratmışdı. Eyni zamanda N.Dubrovinin belə bir iddiası ilə razılaşmaq çətindir ki, guya Şeyxəli xan ”xoşuna gələn qızları qaçırır, qadınları ərlərinin əlindən alır, sonra isə ərlərinə qaytarırdı”.[2] Əgər xan şəriət normalarını belə kobudcasına pozsaydı, dərbəndlilər onu qovmaq yox, öldürərdilər. Əslində isə güman ki, Dərbənd sakinləri Şeyxəli xanı qovmaqla 1796-cı ildə göstərdikləri müqavimətə görə rusların qisasından yaxa qurtarmaq istəyirdilər. Şəhər hakimi seçilən Əlipənah bəy Bayat rus qoşunlarını şəhərə dəvət etdi.[3] Şəhərin özü istisna olmaqla Dərbəndin ətraf kəndləri Mehdi şamxalın idarəçiliyinə verilmişdi.[4]

1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən zəbt olundu. Saratov alayının komandiri general-mayor

---

[1] Евгений Козубский. Göst.əsəri, 13

[2] Николай Дубровин .Göst.əsəri,IV c.,s.63

[3] Гасан Эфенди Алкадари. Асари Дагестан (Исторические сведения о Дагестане).Пер.и примечания Али Гасанова.Махачкала:1929,с.111

[4] Семен Броневский.Новейшия географичкския и историческия известия о Кавказе.Часть вторая. Москва:1823,с.336

P.D. Nesvetayev Gürcüstan hakimi P.M. Litvinova Dərbəndin döyüşsüz alınması haqqında sevinclə xəbər verərək Narınqala qəsrində 1 mortir, 4 top və 4 falkonet olduğunu yazırdı.[1] İ.Qudoviç çara təqdimat yazaraq xidmətlərinə görə Mehdi şamxala xan rütbəsi və Dərbənd xanlığının bir hissəsinin verilməsini təklif edirdi.[2] Sentyabr ayında Mehdi şamxala xan rütbəsi təsdiqləndi və Dərbəndin bütün gəlirlərindən istifadə etmək hüququ verildi.[3] Ulus mahalı şamxal Mehdi xanın idarəçiliyinə, Dərbənd şəhəri isə Əli Pənah bəyin idarəçiliyinə verildi.[4] Qafqazdakı rus qoşunlarının komandanı İ.V.Qudoviç 1807-ci il martın 9-da Əlipənah bəyə yazırdı ki, Rusiya dövlətlərinə xidmətləri nəzərə alınaraq ona mayor rütbəsi verilməklə Dərbənd şəhərinin naibi vəzifəsi tapşırılır.[5]

Lakin Şeyxəli xan Quba xanlığı ərazisində, o cümlədən Dərbənd üzərində hakimiyyəini bərpa etmək üçün mübarizəni davam etdirirdi. 1809-cu il mayın 17-də Bakı komendantı V.A.Repin Şeyxəli xanın 700 nəfəlik dəstə ilə Dərbəndi qoruyan mühafizə dəstəsinə hücum etməsi, 12 nəfəri öldürərək, 17 nəfəri yaralayıb sonra çəkilməsi haqqında məlumat verirdi.[6]

1812-ci ilin fevralında hərbi rəislər tərəfindən idarə olunan Dərbənd və Quba əyalətləri yaradıldı. Dərbənddə şəhər məhkəməsi (divan) təşkil olundu. Divan yerli əyanlardan təşkil olunmuş, yalnız mülki və xırda cinayət işlərinə baxırdı. Daha

---

[1] GRMDA, f.1,siy.1,iş.551,v.33. Русско-дагестанские..,с.270-271
[2] АКАК,т.3,док.162,с.90
[3] Владилен Гаджиев.С.188
[4] Аббаскули Ага Бакиханов.Göst.əsəri,s.189.
[5] АКАК,т.3,с.388
[6] Русско-дагестанские отношения.., с288

ciddi cinayət işləri rus zabitlərindən ibarət hərbi məhkəmədə nəzərdən keçirilirdi. Dərbənd qarnizonunun komendantı da bu məhkəmənin tərkibinə daxil idi.[1]

1813-cü ildə Rusiya ilə Qacarlar İranı arasında bağlanan Gülüstan müqaviləsi ilə Dərbəndin Rusiya tərəfindən ilhaqı rəsmiləşdirildi.

Lakin Şeyxəli xan bundan sonra da hələ uzun müddət rus işğalçılarına qarşı mübarizəni davam etdirdi. 1819-cu ilin yayında o, geneneral Pestelin komandanlıq etdiyi böyük rus birləşməsini Başlı kəndinin yaxınlığında darmadağın etdi. 418 nəfər itki verən ruslar Dərbəndə çəkilməli olmuşdular.[2] Şeyxəli xanın 1821-ci ildə vəfat etdiyi və Balakəndə dəfn olunduğu ehtimal edilir.[3]

1830-cu ildə Mehdi xanın ölümündən sonra Dərbənd xanı titulu ləğv olundu və şəhər rus zabiti – hərbi komendant tərəfindən idarə olunmağa başlandı. 1812-ci ildə yaradılmış Dərbənd əyaləti 1840-cı ildə yeni yaradılmış Xəzər vilayətinin tərkibinə qatıldı və Dərbənd qəza statusuna malik oldu. 1846-cı ildə isə Xəzər vilayəti ləğv edilərək onun əvəzinə Şamaxı və Dərbənd quberniyaları təşkil olundu. Dərbənd quberniyasının tərkibinə Dərbənd və Quba qəzaları, Avar Koysu çayından cənubdakı bütün Dağıstan əraziləri daxil idi.[4]

---

[1] История Дагестана в двух томах. т.1.Москва: Наука, 2004, с.65; Орхан Назаралиев.Pöst.dis-s.,s.95

[2] Назим Магомедов.Взаимоотношения народов Южного Дагестана и Азербайджана в первой половине в. (экономический, политический и культурные аспекты). Махачкала: Эпоха, 2004, с.127; Орхан Назаралиев. Göst.dis-sı,s.96

[3] Tofiq Mustafazadə. Quba xanlığı,s.228; Орхан Назаралиев.Göst.dis-sı,s.96

[4] Asəf Hacıyev. Göst. əsəri, s. 45-46.

1860-cı ildə isə Dərbənd quberniyası ləğv edilərək yeni inzibati vahid Dağıstan vilayəti təşkil olundu. Dərbənd quberniyasının tərkibində olan Quba qəzası Bakı quberniyasına verildi, Dərbənd isə Dağıstan vilayətinə qatıldı.[1] Beləliklə də, Dərbəndin inzibati cəhətdən Azərbaycan torpaqlarından ayrılması prosesi başa çatdırıldı.

---

[1] Евгений Козубский. Göst. əsəri, s. 246.

# YEKUN SÖZ

Ən qədim zamanlarda yaranıb tarixin ağır sınaqlarından keşmiş Dərbənd şəhəri Qafqaz bərzəxində tutduğu müstəsna mövqeyinə görə uzun əsrlər Azərbaycan və ümumiyyətlə Qafqaz, Yaxın Şərq və Cənub-şərqi Avropa xalqlarının tarixində mühüm rol oynamışdır. Azərbaycanın lap şimalında yerləşən ən qədim şəhərlərimizdən olan və minilliklər boyu ölkəmizin giriş qapısı sayılan bu şəhərin ərazisində hələ miladdan öncə IV minilliyin sonu-III minilliyin əvvəllərindən yaşayış məskəni mövcud olmuşdur.

Dərbəndin nisbətən qədim adlarından biri olan "Kaspi qapıları" haqqında ilk xatırlama eradan əvvəl IV əsrdə yaşamış Miletli Hekateyin əsərində var. Ehtimal ki, m.ö.VIII-VII əsrlərdə Dərbənd şəhər tipli yaşayış məntəqəsi kimi formalaşmağa başlayır. Dərbənd e.ə. V əsrdə yaranmış Azərbaycan Albaniya dövlətinin mühüm şəhərlərindən biri, vilayət mərkəzi, bir müddət isə həm də Alban katolikosunun iqamətgahı idi.

Eramızın III əsrinin ortalarında Dərbənd şəhəri Sasani-Bizans rəqabətinin mühüm məntəqəsinə çevrilir. IV əsrdən isə şimaldan hunların təzyiqi artır. Sasanilər hunların təzyiqinin qarşısını almaq üçün Xəzərin qərb sahilndə bir-birinə paralel üç müdafiə səddi inşa edirlər. Bunlardan ən şimalda yerləşəni Dərbənd səddi idi.

Sasani hökmdarları II Yezdigerd (442-459) və I Xosrov Ənuşirəvan Dərbənd şəhərinin ətrafında daşdan möhkəm qala divarları inşa etmişlər. İrandan bura minlərlə ailə köçürülmüşdür. Məhz sasani hökmranlığı dövründən bu şəhəri Dərbənd adlandırmağa başlayırlar.

VII-X əsrlərdə Dərbənd Azərbaycanın digər əraziləri kimi Ərəb xilafətinin tərkibində olmuşdur. Xəlifənin qardaşı Məsləmə Dərbənd divarını dağılmış yerlərini bərpa etdirir, böyük Cümə məscidi və daha 7 məscid inşa olunur. Darvazaların üzərinə qalın dəmir örtüklər çəkilir, yəqin elə buna görə də Dəmirqapı Dərbənd ifadəsi yaranır. Suriyadan 20 mindən yuxarı döyüşçü gətirilib Dərbənddə məskunlaşdırılır.

IX əsrin ortalarında Bağdad xilafəti zəiflədiyi üçün Dərbənddə müstəqil Haşimilər əmirliyi yaranır və bu əmirlik müəyyən vaxtlarda Şirvanşahlardan və Sacilərdən asılığa düşsə də 1077-ci ilə qədər mövcud olmuşdur.

VII-IX əsrlərdə Xəzəryanı ticarətin inkişafı ilə əlaqədar Dərbənd Xəzər dənizi sahilində ən böyük limana çevrilmişdi.160 hektara yaxın ərazini tutan Dərbənd şəhəri sahəsinə görə Ön Asiyanın və Mərkəzi Asiyanın bir çox erkən orta əsr şəhərlərindən böyük idi.

XII-XIV əsrlərdə Dərbənd Hülaku-Qızıl orda müharibələrinin meydanına çevrilmiş, tək-tək hallar istisna olmaqla Şirvanın tərkibində mövcud olmuşdur.

XVI əsrin əvvəlində yaranan vahid Azərbaycan dövləti-Səfəvi dövlətinin hökmdarları 1538-ci ildə Şirvanşahların müstəqilliyinə son qoyub onu da birləşdirdikləri zaman Şirvanın bir hissəsi kimi Dərbənd və ətraf bölgəsi də səfəvilərin hakimiyyəti altına keçdi. XVI əsrin sonu-XVII əsrin əvvəlləri Səfəvi-Osmanlı müharibələri zamanı Dərbənd müvəqqəti osmanlı hakimiyyəti altına düşsə də səfəvilər onun üzəridə nəzarəti bərpa edə bildilər. XVII əsrin əvvəllərində Dərbənd şah tərəfindən təyin edilən hakim tərəfindən idarə olunurdu, əsrin ortalarında isə Dərbənd hakimi Dərbənd bəylərbəyinə tabe idi.

XVII əsrdə və XVIII əsrin birinci yarısında Dərbənd sultanlıq idi. Sultanlığın sərhədləri cənubda Samur çayına, qərbdə Tabasarana, şimalda usminin mülklərinə və Darbaq çayına çatırdı. Dərbənddə sultan vəzifəsi ilə yanaşı naib vəzifəsi də vardı. Naibi adətən yerli əyanlardan seçirdilər. Sultanın sərəncamında 1000 süvari və 600 piyada döyüşçü vardı.

XVIII əsrin əvvəllərində Səfəvi dövləti ağır iqtisadi və siyasi böhran keçirirdi. Mərkəzi hakimiyyət zəiflədiyindən yerlərdə tez-tez qiyamlar və çıxışlar baş verirdi. Bu cür üsyanların ən güclülərindən biri sadə bir kəndli Hacı Davudun başçılıq etdiyi Şirvan üsyanı idi. Şirvan üsyançıları Dərbəndi ələ keçirməyə çalışsalar da sultan İsfahana getdiyi üçün yerli döyüşçülərə başçılığı ələ keçirmiş yüzbaşı İmamqulu bəy şəhəri qoruya bildi.

Səfəvi dövlətinin zəngin ərazilərində gözü olan qonşu Rusiyanın yenicə özünü imperator elan etmiş hökmdarı I Pyotr yaranmış əlverişli məqamdan istifadə etmək qərarına gəldi, 100 minlik ordu ilə hücuma keçdi.1722-ci il avqustun sonunda rus ordusu Dərbəndə yaxınlaşan zaman artıq şəhər naibi olan İmamqulu bəy böyük rus ordusunun qarşısında dura bilməyi mümkün saymayaraq şəhəri təslim etdi.

Osmanlı imperiyasının kəskin etirazı üzündən çar ordunun əsas hssəsi ilə Rusiyaya qayıtsa da Dərbənddə qarnizon saxladı. Sonradan Bakı, Lənkəran, Rəşt və bir sıra digər Xəzəyanı şəhərlər və vilayətlər də ruslar tərəfindən işğal olundu. Dərbənd şəhəri 1735-ciilədək rus hakimiyyəti altında qaldı.

Rus hökuməti sultan vəzifəsini ləğv edib şəhərin ətraf bölgəsinin idarəçiliyini hərbi komendanta tapşırdı. Dərbəndin mülki idarəsinə isə artıq general-mayor rütbəsi almış İmamqulu xan rəhbərlik edirdi. Rus hökuməti qala divarlarının bərpası və möhkəmləndirilməsi üçün müəyyən işlər gördü.Dərbənd

ətrafında xəzinə təsərrüfatı yaradıldı.Burada müxtəlif meyvələr, zəfəran və üzüm yetişdirilir, şərab istehsal olunurdu.

Rus hökuməti yeni işğal etdiyi ərazilərdə, o cümlədən Dərbənddə özünə sosial dayaq yaratmaq məqsədilə xristianları, ilk növbədə erməniləri buralara köçürməyə çalışırdı.
Azərbaycan Əfşar türk tayfasıdan çıxmış Nadir Əfşar səfəvi ərazilərinin böyük hissəsini əfqanlardan və osmanlılardan azad etdikdən sonra rus hökumətindən Bakı, Dərbənd və ətraf ərazləri boşaltmağı tələb etdi və 1735-ci ildə bağlanmış Gəncə müqaviləsinə görə bu tələb yerinə yetirildi.

Nadir şahın dövründə Dərbənd inzibati cəhətdən Azərbaycan vilayətinin tərkibinə daxil edilmişdi. Dərbənd əhalisi qonşu Dağıstan hakimlərinin vaxtaşırı hücumlarına məruz qaldıqlarından möhkəm mərkəzi hakimiyyət tərəfdarı idilər və buna görə də Nadir şaha rəğbət bəslədirdilər. Şah da Dərbəndə xüsusi diqqət yetirirdi. İtaətsizlik göstərən Dağıstan feodallarını ram etmək üçün 1741-ci ildə başladığı uzunmüddətli hərbi kampaniyada Nadir şah məhz Dərbəndi bir istinadgah kimi seçmişdi. Lakin böyük şah ordusunun uzun müddət şəhər ətrafında qalması Dərbəndin iqtisadi durumuna ağır zərbə endirmiş oldu.

1747-ci ilin iyun ayında Nadir şah sui-qəsd nəticəsində həlak olduqdan sonra onun nəhəng imperiyasının yerində yaranan xanlıq adlanan kiçik dövlət qurumlarından biri də Dərbənd xanlığı oldu. Bu xanlıq ərazicə kiçik və hərbi qüvvəsi az idi. Məhəmməd Hüseyn xanın əhalidən ağır vergilər toplaması, ətrafındakı bəzi məmurların həqarətli davranışları sakinlər içərisində haqlı narazılıq doğurduğundan onlar qonşu qubalı Fətəli xana müraciət etdilər.

Tərəfdarlarının yardımı sayəsində1759-cu ilin sonunda Dərbəndi asanlıqla ələ keçirən Fətəli xan şəhərin böyük hərbi-

strateji əhəmiyyətini və müdafiə qabiliyyətini nəzərə alaraq öz paytaxtına çevirdi. Xan yayda Qubada, qışda isə Dərbənddə yaşayırdı. Zaman Fətəli xanın seçimində yanılmadığını göstərdi. 1774-cü ildə düşmən koalisiya Fətəli xanı məğlubiyyətə uğradıb onun bir çox torpaqlarını ələ keçirdiyi zaman Dərbənd duruş gətirdi və xan onu öz istinadgahına çevirib qüvvələrini bərpa edərək mülklərini geri aldı və Azərbaycanı birləşdirmə siyasətini davam etdirdi.

Eyni zamanda Fətəli xan Dərbənddə sənətkarlıq və ticarətin inkişafına qayğı göstərirdi. Dərbənd şəhəri digər Azərbaycan xanlıqları, Dağıstan vilayətləri və Rusiya ilə geniş ticarət əlaqələrinə malik idi.

1789-cu ildə Fətəli xanın vaxtsız ölümündən sonra azyaşlı oğlu Əhməd xan və 1791-ci ildə onun ölümündən sonra hakimiyyətə gəlmiş Şeyxəli xan atalarının birləşdirdiyi və asılı hala saldığı bir çox əraziləri itirdilər, yalnız Quba və Dərbənd Quba xanının hakimyyəti altında qaldı.

Şeyxəli xanın hakimiyyəti dövründə Qafqaz və onun ətrafında olduqca mürəkkəb hadisələr cərəyan edirdi.Bir tərəfdən Rusyanın bölgəyə ekspansiyasının güclənməsi, digər tərəfdən, İranda və Azərbaycanın cənubunda hakimiyyətə nail gəlmuş Ağa Məhəmməd xan Qacarın şimal xanlıqlarını da tabe etmək cəhdlərinin güclənməsi xanları, o cümlədən də  Quba xanlığını çətin vəziyyətə salmışdı. 1795-ci ildə Qacarın Cənubi Qafqaza birinci yürüşü zamanı onda Rusiya təcavüzünə qarşı bir himayədar görən Şeyxəli xan Ağa Məhəmməd xanı dəstəklədi.

Qacarın birinci yürüşü yarımçıq qalıb geri qayıtdıqdan sonra 1796-cı ildə rus ordusunun Cənubi Qafqaza basqının ilk hədəfi Dərbənd şəhəri oldu.Qısa müddətli müqavimətdən sonra

Şeyxəli xan Dərbəndi təslim etməli oldu. Müqavimət göstərdiyinə görə rus komandanlığı Şeyxəli xanı hakimiyyətdən kənarlaşdırdı. Dərbənd şəhərinin idarəçiliyini xanın yaşca böyük bacısı Pəricahan xanıma tapşırdı, daha sonra isə Şeyəli xanın atadan bir, anadan ayrı azyaşlı qardaşı Həsən bəyi Quba xanı təyn etdi. Rusların nəzarəti altından qaçmağa nail olan Şeyxəli xan uzun aylar ruslara qarşı partizan müharibəsi apardı.

1797-ci ilin əvvəllərində rus ordusu geriyə Rusiya dönərkən isə Şeyxəli xan dərhal Qubada və Dərbənddə hakimiyyətini bərpa etdi.

1800-cü ildə Dərbənddə müəyyən narazılıq yaranmasından istifadə edən Şeyxəli xanın düşməni II Suraxay xan Qazıqumuqlunun yardımı ilə Həsənəli xan Dərbəndi tutub özünü müstəqil Dərband xanı elan edir. Qonşu Rusiyanın çarı Şeyxəli xanı Quba, Həsənəli xanı isə Dərbənd xanı kimi tanıdığını bəyan etdi. Lakin,1802-ci ilin yayında Həsənəli xan vəfat etdiyindən Şeyxəli xan yenidən Dərbənd üzərində hakimiyyətini bərpa etdi.

Əvvəlki əsrlərə nisbətən Dərbənd öz əhəmiyyətini əhəmiyyətli dərəcədə itirsə də yenə bir çox digər Azərbaycan şəhərlərindən daha yaxşı vəziyyətdə idi. Xanlıq dövründə Dərbənd şəhərində təqribən 2 min ev və 10 min sakin vardı. Şəhərdə 500-ə qədər sənətkar dükanının və 200-ə yaxın emalatxanası, 6 karvansaranın olması sənətkarlıq və ticarətin inkişafının göstəricisidir. Əmək bölgüsünün olduğu, lakin əl əməyinə əsaslanan karxanaların varlığı isə iqtisadi həyatda yeni təzahür idi.

Dərbənd əhalisinin tərkibi məmurlardan, hərbçilərdən, ruhanilərdən, sənətkarlardan və tacirlərdən ibarət idi.

Məlumdur ki, Rusiya XIX əsrin əvvəllərində qəti surətdə Azərbaycan torpaqlarını işğal etməyə girişdi.1806-cı ilin iyun ayında Dərbənd də rus qoşunları tərəfindən işğal olundu.

Dərbəndin işğalından sonra rus hökuməti nəinki inzibati cəhətdən onu Azərbaycandan ayırdı, həm də tədricən əhalisinin milli tərkibini dəyişməyə başladı. İlk növbədə Cənubi Dağıstanda yaşayan ləzgilərin bu şəhərə köçürülməsinə başlanıldı.Lakin XIX əsrin sonuna kimi ləzgilərin şəhər əhalisi içərisində payı cüzi idi. Belə ki, Rusiya imperiyası əhalisinin 1897-ci il siyahıya alınmasına görə ətrafları ilə birlikdə Dərbənddə cəmi 603 ləzgi yaşayırdı ki, bu da şəhər əhalisinin cəmi 4,1 faizini təşkil edirdi. Həm də göstərilən 603 nəfərdən böyük əksəriyyətinin-506 nəfərinin kişilər olması göstərirdi ki,bu ləzgilərin əksəriyyəti şəhərin daimi sakini deyildi, kəsbkarlığa, yəni çalışmağa gəlmişdilər.[1]

İnsafən daha sağlam dağ havasında yaşamağa alışmış ləzgilər də isti aran yerinə köçməyə həvəsli deyildilər. Yalnız XX əsrin əvvəllərindən ləzgilər Dərbənd şəhərində kütləvi məskunlaşmağa başlayırlar. XX əsrin 60-cı illərindəki güclü zəlzələlərdən sonra ləzgilərin Dərbəndə axını güclənir. 1959-cu ildə Dərbənd şəhərində ləzgilərin sayı 4.589(10,6%),1970-ci ildə 6.477(11,3%), 1979-cu ildə11.013 (16,3%), 1989-cu ildə 16.993(21,8%), 2002-ci ildə isə artıq 32.955(32,6%) nəfər təşkil edirdi.[2]

---

[1] Гусейнбала Гусейнов.Энциклопедия города Дербента.Москва: 2009, с.290-291.

[2] Yenə orada, s.291.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Asəf Hacıyev. Dərbənd XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat).Bakı-2017.
2. Azərbaycan Dövlət Tarix Arxivi(ARDTA)f.24, siy.1, iş 36, v.10.
3. Azərbaycan tarixi (üç cilddə) I c., Bakı, 1961.
4. Azərbaycan tarixi, IV cild.Bakı: Elm,2000
5. Camal Mustafayev. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq Bakı: Elm, 2002
6. Fuad Əliyev. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı:Azərb.SSR EA Nəşriyyatı,1964.
7. Firidun Əsədov.Dərbənd xanlığı (tarixi oçerk).Baki,2004.
8. Evliya Çələbi. Səyahətnamə (Azərbaycana aid seçmələr). Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmlər doktoru, prof.Seyidağa Onullahi. Bakı: Azərb.Döv.Nəşr-tı, 1997.
9. Gürcüstan Respublikası Mərkəzi Dövlət Arxivi,f.1,siy.1,iş 551
10. İbrahim bəy Hacınski. Qubalı Fətəli xanın həyatı (Tərcüməçi: F.Babayev). Bakı: Azərb. SSR EA Nəşriyyatı,1959
11. İskəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixi-aləmaraye-Abbasi).II kitab.Fars dilindən çevirən Şahin Fazil.Şərq-Qərb,2014
12. Mehman Abdullayev. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə aqrar münasibətlər. Bakı: “Adiloğlu”,2005
13. Məhəmməd Əliyev. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Bakı: “Adiloğlu”, 2001
14. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr, I c., Bakı, Yazıçı, 1989, s.5-102.
15. Mirzə Camal Cavanşir. Tarix-e Qarabağ Qarabağnamələr, I c., Bakı, Yazıçı, 1989,s.103-148

16. Musa Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur). Bakı: Elm,1993
17. Nailə Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı:Elm,1974.
18. Nərgiz Əliyeva. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu,1999
19. Nərgiz Əliyeva. “Mücəm əl-buldan” əsərində Azərbaycan və Qafqaz.Bakı:Elm və təhsil,2020
20. Rakif İbadov. Azərbaycan XVIII əsrin son rübündə Rusiya, İran və Türkiyə münasbətlərində. Lənkəran,2004
21. Salman İbişov. Quba xanlığının əhalisi(Tarixi-demoqrafik tədqiqat).Bakı:Bakı Un-ti Nəşriyyatı, 2004.208 s
22. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı:”Əbilov,Zeynalov və oğulları”,2006
23. Sevinc Rəhimova. Dərbənd şəhəri XII-XV əsrlərdə. T.ü.f.d.dis-sı. Bakı:2012
24. Şahin Fərzəlibəyli. Quba tarixi.Bakı: “Əbilov,Zeynalov və oğulları”, 2001
25. Tofiq Mustafazadə.Quba xanlığı.Bakı: 2005
26. Vaqif Piriyev. Dərbəndin XIII-XIV əsrlərdəki tarixi-siyasi coğrafiyasından AMEA Tarix İnstitutunun Elmi Əsərlər, XIX c., 2007, s.18-22
27. Şəfiqə Həmidova. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: Elm,1985.
28. Yaqub Mahmudov, Kərim Şükürov. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi.1639-1828.I cild.Bakı: 2009
29. Ziya Bünyadov.Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989

30. Аверян Серебров. Историко-этнографическое описание Дагестана. 1796 г.ИГ ИЭ Дагестана Сборник архивных материалов). Махачкала:1958,сс.173-196
31. Абульхасан Рахмани. Азербайджан в конце XVI и XVII веке (1590-1700).Баку:Изд.Элм,1981
32. Адам Олеарий. Описание путешествия в Московию и через Московию в Персию и обратно.СПб.:1906
33. АВПРИ (Архив Внешней Политики Российской Империи), фонд 77 (Сношения России с Персией), 1721 г.,дело 10
34. АВПРИ, ф.77 (СРП), оп.1,1722 г.,д.1
35. АВПРИ, ф.77 (СРП), оп.1, 1722 г., д.2
36. АВПРИ,ф.77 (СРП), оп.1,1722 г.,д.13
37. АВПРИ, ф.77 (СРП), оп.1, 1722 г., д.14
38. АВПРИ,ф.77 (СРП), оп.1,д. 16
39. АВПРИ,ф.77 (СРП), оп.1,1722 г.,д.18
40. АВПРИ,ф.77 (СРП), оп.1,1722 г.,д.20
41. АВПРИ,ф.77 (СРП), оп.1,1722 г.,24
42. АВПРИ,ф.77 (СРП), оп.1,1723 г.,д.5
43. АВПРИ, ф.77 (СРП), оп.1,1725г.,д.5
44. АВПРИ, ф.77(СРП), оп.1,1727 г., д.8
45. АВПРИ,ф.77 (СРП), оп.1, 1768 г,д.17
46. АВПРИ, ф.77 СРП), оп.1,1801 г.,д. 10
47. АВПРИ,ф.77 (СРП),оп.6,д. 443
48. АВРРИ,ф.77 (СРП), оп.6.1776-1777 гг.,д.478
49. АВПРИ,ф.77 (СРП), оп.6,д.479
50. АВПРИ ф.77 (СРП), оп.6, 481
51. АВПРИ,ф.77 (СРП), оп.6,д.647
52. АВПРИ,ф.77 (СРП), оп.7,д.158
53. АВПРИ,ф.77 (СРП), оп..7, д.159
54. АВПРИ,ф.77 (СРП), оп.7, д. 160
55. АВПРИ,ф.89 (Сношения России с Турцией),1724 г.,д. 7

56. АВПРИ,ф.100 (Сношения России с Арменией). оп.1,1724 г., д.2
57. АКАК(Акты Кавказской Археографической Комиссии). Том 1, Тифлис:1866,сс. 642-643
58. АКАК, т.2 с., д.1511, с. 738
59. АКАК, т.2, док.1172
60. АКАК,т.3, Тифлис: 188? ,док.162.
61. АКАК,т.3, с.38
62. АКАК, т. 6, Дополнения, док. 38
63. Александр Ахвердов. Описание Дагестана.1804 г.ИГ ИЭ Дагестана,сс. 218-229
64. Абусаид Керимов. Мой город Дербент. Москва: Прозержина,1994.
65. Ал-Баладзури. Книга завоевания стран.Пер.П.К.Жузе. Баку: 1927
66. Александр Кудрявцев. Древний Дербент. Москва: Наука,1982
67. Александр Кудрявцев. Феодальный Дербент: Пути закономерностей развития города в VI-середине XIII в. Москва: Наука, 1995.
68. Александр Кудрявцев, Амри Шихсаидов. Опыт периодизации экономического развития скедневекового Дербента. Товарно-денежные отношения на Ближнем и Среднем Востоке в эпоху средневековья. Москва, 1979.
69. Александр Кудрявцев. Дербенту-5000 лет. Москва: Советская Россия, 1989
70. Александр Кудрявцев. Великий город на Каспии. Дербент в эпоху феодализма. Махачкала: Даг.кн.изд., 1982;
71. Александр Кудрявцев. Город не подвластный векам. Махачкала: Даг.книжн.изд.,1976.

72. Александр Кудрявцев. Мусульманский город Дагестана. Сложение Дербента в домонгольский период. Махачкала: 1994.
73. Али Кажлаев. Возникновение и экономическое развитие Дербента. Махачкала: Даг.книжн. изд.,1972
74. Али Кажлаев. Дербент-город музей. Махачкала: Даг.кн.изд.,1965.
75. Амри Шихсаидов. Материалы фонда «Кизлярский комендант» как источник для изучения дагестано-закавказских взаимоотношений в XVIII– начале XIX вв. Источниковедение истории досоветского Дагестана. Махачкала:1987, сс.16-104
76. Амри Шихсаидов. Дагестан в X-XIV вв. (Опыт социально-экономической характеристики). Мачачкала: Даг.кн.изд., 1975
77. Амброджо Контарини. Путешествие Амбросия Контарини, посла светлейшей Венецианской Республики к знаменитому персидскому государю Узун Гассану, совершенное в 1473 году. Библиотека иностранных писателей о России.ч.2,СПб.;1836
78. Анатолий Новосельцев. Пути развития феодализма (Закавказье, Средняя Азия, Русь, Прибалтика) Москва: Наука, 1980
79. Андреян Лопухин. Журнал путешествие через Дагестан. История, география и этнография Дагестана. XVIII-XIX вв. (Архивные материалы. Под редакцией М.О.Косвена и Х.М.Хашаева). Москва: Изд. Восточной Литературы, 1958,сс.6-59.
80. Архив Государственного Совета.Протоколы Совета в царствовании Екатерины т.2,СПб,1888,сс.691-692.

81. Асиф Абдурахманов. Азербайджан во взаимотношениях России, Турции и Ирана в первой половине XVIII века. Баку, Изд.АН Азерб. ССР,1964.
82. Асият Исламутдинова. Дагестано-азербайджанские торгово-экономические связи в XVIII-первой половине XIX в. Дис-я канд.ист.н.,2001
83. Багомед Алиев, Шарафудин Ахмедов, Магомед-Салам Умаханов. Из истории средневекового Дагестана. Махачкала: Дагкнигоиздат,1970, 236 с.
84. Борис Дорн. О походах русских в Табасаран, с дополнительными сведениями о других набегах их на побережья Каспийского моря. СПб.:1875.
85. Владимир Минорский. История Ширвана и Дербента.Москва:1963
86. Вадим Левиатов. Очерки из истории Азербайджана в XVIII веке. Баку,1948.
87. Василий Бартольд. Дербент. Собрание сочинений. Т.3,сс.408-418.
88. Василий Бартольд. К вопросу о происхождении кайтаков. Собрание сочинений.т. V, сс.369-375.
89. Владимир Ульяницкий. Русские консульства за границею в XVIII веке. ч.1, Москва: 1899
90. Викентий Лысцов. Персидский поход Петра I. Москва, 1951
91. Виссарион Комаров Персидская война 1722-1725 гг. (Материалы для истории царствования Петра Великого. Русский Вестник, том 68, СПб., 1867.
92. Владилен Гаджиев. Разгром Надир-шаха в Дагестане. Махачкала: Тип. Минирформпечати РД,1996.
93. Владилен Гаджиев. Роль России в истории Дагестана. Москва: Наука,1965.

94. Владимир Минорский. История Ширвана и Дербента X-XI веков. Москва: Изд. вост. Литературы,1963
95. Г. А. Рзаев. Торговые отношения между Северо-Восточным Азербайджаном и Астраханью. Баку, Элм, 1989, 132 с.
96. ГААО, ф..344, оп.4, д.76.
97. ГААО, ф. 349, оп.1, дополпения, дело 90
98. Гаси Абдуллаев.Азербайджан в XVIII веке и взаимотношения его с Россией. Баку: Изд.АН Азерб. ССР, 1965.621 с.
99. Гаси Абдуллаев.Из истории Азербайджана во второй половине XVIII века.Труды Института истории.Том XIV.Баку:АН Азерб.ССР,1960.сс.57-114
100. Гаси Абдуллаев.Из истории Северо-Восточного Азербайджана в 60-80-е годы XVIII века. Баку:Изд. АН Азерб.ССР,1958.211 с.
101. Гевхар Мамедова. Некоторые вопросы истории Азербайджана в журнале консула С.Аврамова. Изд.АН Азерб. ССР, сер. общественных наук,с.52.
102. Герасим Эзов. Сношения Петра Великого с армянским народом. СПб: 1899.
103. Государственный Архив Астраханской Области (ГААО), ф. 394, оп. 1 (Дополнения), д. 20
104. Григорий Мельгунов. Поход Петра Великого в Персию. Русский Вестник, 1874,т.110.
105. Гусейнбала Гусейнов. Город тысячи легенд. Махачкала: Дагучпедгиз,1982.
106. Гусейнбала Гусейнов. Краткая энциклопедия города Дербента. Махачкала: Юпитер, 2005.
107. Гусейнбала Гусейнов. Энциклопедия города Дербента. Москва: 2009.

108. Дербент//Wikipedia/org/wiki/derbent/Müraciət tarixi-7 fevral 2020-ci il. tarixinstitutu.az/pace/96/derbend.Mür.tar.07.02.2022-ci il.
109. Дербенту 5000 лет (Автор текста Александр Кудрявцев, составитель Борис Нувахов. Москва: «Советская Россия»,1989.
110. Джамал Мустафаев. Россия и северные ханства Азербайджана в конце XVIII-XIX в. Баку, 1989
111. Джон Бель. Белевы путешествия через Россию в разные Асиятские земли, а имянно: Испагань, Пекин, в Дербент и Константинополь (Пер.с французского М.Попова). СПб.: Тип.при Имп. АН, 1776, ч.1,с.174
112. Договоры России с Востоком. Политические и торговые (Собрал и издал Трофим П.Юзефович) СПб.,1869.
113. Евгений Пахомов. Крупнейшие памятники сасанид-ского строительства в Закавказье. Проблемы истории материальной культуры. №№9-10,1933
114. Евгений Зевакин. Прикаспийские провинции в эпоху российского завоевания в начале XVIII века.
115. Евгений Козубский. История города Дербента. Темир-хан-Шура: 1906.
116. Елена Иноземцева. Дагестан и Россия в XVIII –первой половине XIX
117. Жан Шарден. Путешествия по Закавказью.1672-1673 гг.Тифлис: 1900.
118. Закаря Амиров, Н.С.Джафаров.Таможенные службы России и Дагестана XVIII-XX вв. Москва: Изд-во ЦПП,1996
119. Илья Березин. Путешествие по Дагестану и Закавказью.., ч.1.Казан:1850

120. Илья Петрушевский. Азербайджан в XVI-XVII вв. //Азербайджан, его соседи и международное положение на рубеже XV-XVI вв. ССИА, вып.1,1949.
121. Илья Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв.Ленинград: Извд-во ЛГУ,1949
122. Иоанн Гербер Описание стран и народов вдоль зпадного берега Каспийского моря.1728 г.История, география и этнография Дагестана. Махачкала: 1958,сс.60-120
123. Иоганн Гербер. Известие о находящихся с западной стороны Каспийского моря между Астраханснью и рекою Курой народах и землях, и о их состоянии в 1728 году. Сочиненное полковником артиллерии Иоганном Густавом Гербером. Ежемесячные сочинения и переводы к пользе и увеселению служащия. СПб.:1760, ч.2,сс.3-48,99-140,195-232,289-309
124. Марзия Искендерова. Бакинское ханство. Баку: Чашыоглы, 1999.
125. История Дагестана с древнейших времен до наших дней (В двух томах). т.1,Москва: Наука,2004.
126. История Дагестана (в 4-х томах). т.1, Москва,1967`127. История Ирана. Киев-Москва, Альтернатива-Евролинц,2003.
128. История многовековых взаимотношений и единения народов Дагестана с Россией. Махачкала:2009(732 с.)
129. История, география и этнография Дагестана. Архивные материалы (Под ред.М.О.Косвена и Х,Х.Хашаева) Махачкала:1958
130. Камилла Тревер. Очерки по истории и культуры Кавказской Албании. М.-Л.,1959,с.271.

131. Лоуренс Локкарт. Надир шах. (Пер.с английского Н.Гезаловой). Баку: «Ганун», 2004
132. М.М.Альтман. Из истории торгово-дипломатических связей Москвы и Щирвана.Труды Института Истории им. А.А.Бакиханова, т.1, 1948, сс.150 - 166.
133. Магомед Гасанов. История Дагестана с древнейших времен до конца XVIII века. Махачкала: Дагкнигоиздат, 1991, Газ. Вокопитер. 2006.
134. Маршал фон Биберштейн. Описание провинций расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. 1798. Научный Архив Института истории НАН, ф.1,оп.1,инв. 466,467
135. Материалы для новой истории русского флота.ч. т. 4. СПб.:1867
136. Михайло Чулков. Историческое описание российской коммерции при всех портах и границах от прежних времен до ныне настояших.., т.2, кн.2, СПб, 1785,с.622.
137. Михаил Полиевктов. Европейские путешественники XIII-XVIII вв. по Кавказу.Тифлис: Изд-во АН Груз. ССР, 1935.222 с.
138. Назим Магомедов. Экономичеыкое развитие Дербентского ханства в в. (Ремесло, торговля, налого-финансовая система) АКД,Нальчик,1985
139. Назим Магомедов. Дербент и Дербентское владение в XVIII-первой половине XIX вв. (Политическое и экономическое развитие). Махачкала: 1998.248 с.
140. Назим Магомедов. Дербентское ханство в русско-иранских и русско-турецких взаимоотношениях во второй половине XVIII-начале XIX в. Махачкала: 2000, с.48
141. Назим Магомедов. Взаимоотношения народов Южного Дагестана и Азербайджана XVIII-в первой половине

XIX в. (экономический, политический и культуные аспекты). Махачкала:Эпоха,2004(198 с.)
142. Нармина Амирбекова. Вопросы военной истории Азербайджана в период ханств. Баку: Элм,2004
143. Наталья Барышникова. Кавказская политика Петра 1. Дисс. канд. наук. Махачкала:1999
144. Николай Дубровин. История войны и владычества русских на Кавказе. т.3. СПб.: 1886
145. Николай Дубровин. История войны и владычества русских на Кавказе.т.4.СПб: 1886
146. Обозрение российских владений за Кавказом, в статитическом, этнографическом, этографическом и финансовом отношениях (ОРВЗ). Ч.3. СПб.,1836
147. Обозрение Российских владений за Кавказом,, Ч.4.СПб., 1836
148. Ольга Маркова. Россия, Закавказья и международные отношения в XVIII веке.Москва: Наука,1966
149. Орхан Назаралиев. Дербентское ханство. Дис.д.ф. по ист. Баку:2014
150. Петр Валуев. Фатали-хан Кубинский. Баку:Изд-во АзФАН,1942,сс.3-4
151. Петр Спасский. Дербентские укрепления. Отд.оттиск из 4-го выпуска Известий Азкомстариса. Баку:1 928, сс.267-276
152. Петр Бутков. Выдержки из «проекта отчета о персидской экспедиции в виде писем». 1796 г.ИГ и Э Дагестана, сс.200-208
153. Петр Бутков. Сведения о Кубинском и Дербентском владениях-1796 г. ИГи Э Дагестана.Архивные материалы.Махачкала: 1958, сс.209-212
154. Петр Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг.ч.2,СПб.:1869

155. Петр Бушев. Посольство Артемия Волынского в Иране в 1715-1728 гг.Москва: Наука,1978
156. Полное собрание законов Российской империи, т.26(1800-1801 гг.). СПб: 1830
157. Расул Магомедов. Древний Дербент-свидетель далекого прошлого Дагестана. Махачкала: Даггиз,1940
158. Российский Государственный Архив Древних Актов, ф.4 (Госархив), оп. д. 51.
159. РГАДА,ф.9 (Кабинет Петра), отделение 2,книга 54
160. РГАДА,ф.9 (Каб.Петра), отд.2,кн.68
161. РГАДА,ф.15, д.97, ч.2
162. РГАДА,ф.1261,оп.6,д.944
163. РГАДА, ф.1261, опись 6, дело 945
164. РГАДА,ф.1261,оп.6,д.949
165. Российский Государственный Военно-Исторический Архив (РГВИА), ф.20, оп.1, д.11.
166. РГВИА,ф.41,оп.1,д.420
167. РГВИА,ф.52,оп.1,д.270
168. РГВИА, ф.846,оп.1,д.1539
169. РГВИА, ф. 846, оп. 16, д. 18414
170. РГВИА, ф.846, оп. 1, д.18474, ч.,
171. РГВИА, ф.848, д.18846
172. РГВИА,ф.846,д.18474
173. РГВИА, ф. 846,д.18486
174. Русский Архив, Москва, 1894, №12
175. Русско-дагестанские отношения в XVII-XVIII вв. Документы и матералы (сост. Р. Г. Маршаев). Махачкала: Дагкнигоиздат, 1958, с.219.
176. Русско-дагестанские отношения в XVIII-начале XIX в. Москва: Наука,1988.
177. Сара Ашурбейли. Очерк истории средневекового Баку. Баку,1964.

178. Сара Ашурбейли. Государство Ширваншахов. Баку, Изд.-во Элм,1983.
179. Сафтар Султанов. Дербент: история возникновения и развития. Дербент. изд. Типография, №3, 2003
180. Сакина Гаджиева. Дагестанские азербайджанцы. XIX-начало XX вв. Историко-этнографическое исследование. Москва: Изд-во Восточная литература.
181. Самуил Гмелин. Путешествие по России для изследования всех трех царств природы. ч.1,пол.1-ая. СПб.:1785
182. Сб.РИО (Сборник Императорского Исторического Общества..).том11. СПб.:1873
183. Сб.РИО, т.84.СПб.
184. Севиндж Алиева. Азербайджан и народы Северного Кавказа (XVIII -начало XXIвв.). Баку: 2010
185. Сергей Соловьев. История России, кн. 9 (тт.17-18). Москва: 1963
186. Тарихи Дербенд-наме (Под редакцией М.Алиханова Аварского). Тифлис:1898
187. Тофиг Мустафазаде. Азербайджан и русско –турецкие турецкие отношения в первой трети XVIII века. Баку: Элм,1993
188. Труды Института Истории АН Азерб. ССР,т .XIV. Баку:1960, с.95;
189. Фарида Мамедова. Политическая история и историческая география Кавказской Албании. Баку: Элм, 1986, с.1986,
190. Фарида Мамедова. Кавказская Албания и албаны. Баку:2005
191. Федор Соймонов. Описание Каспийского моря и чиненных на оном Российских завоеваний, яко часть истории Петра Великого. СПб.: Тип. Импер. АН,1763.

192. Фуад Алиев. Азербайджано-русские отношения. т.1.Баку:1988.
193. Фуад Алиев. Антииранские выступления и борьба против турецкой оккупации в первой половине XVIII века. Баку, Элм”1975.
194. Хаджи Мурад Хашаев. Общественный строй Дагестана в XIX веке. Москва: Изд. АН СССР,1961.
195. Хидир Рамазанов. Колониальная политика царизма в Дагестане в первой половине XIX в. Махачкала,1956
196. Хидир Рамазанов, Амри Р.Шихсаидов. Очерки истории Дагестана. Махачкала: Даг.ФАН СССР,1964.
197. Хождение купца Федота Котова в Персию. Москва: 1958.
198. Центральный Государственный Архив Республики Дагестан, ф.379, оп.1, д.468.
199. ЦГА РД ,ф.379,оп.1,д.727.
200. ЦГА РД ,Ф.379,оп1д.1055.
201. Шахруддин Магарамов. Дагестан и Ширван в VI-XVI вв. (экономические, политические и культурные взаимоотношения) Махачкала: АЛЕФ,2007.
202. Ян Стрейс. Три путешествия. Перев. Э. Бородиной. Москва:1935.

## M Ü N D Ə R İ C A T

**GİRİŞ** ........................................................................ 3

**I FƏSİL. DƏRBƏND XVIII ƏSRİN I YARİSİNDA**
1.1.Dərbəndin XVIII əsrə qədərki tarixinə ümumi baxış ........................................................................ 10
1.2.Dərbənd XVIII əsrin əvvəllərində. Müvəqqəti rus işğalı ........................................................................ 33
1.3.Dərbənd Nadir şah Əfşarın hakimiyyəti dövründə ............ 50

**II FƏSİL. DƏRBƏND ŞƏHƏRİ XANLIQ DÖVRÜNDƏ**
2.1.Əfşar imperiyasının süqutu. Dərbənd xanlığının yaranması ........................................................................ 54
2.2.Dərbənd xanlığının Quba xanlığına birləşdirilməsi. Dərbənd şəhəri birləşmiş xanlığın mərkəzi kimi .................... 56
2.3. Dərbənd şəhəri Şeyxəli xanın hakimiyyəti dövründə ....... 75
2.4. Xanlıq dövründə Dərbənd şəhərində sosial-iqtisadi və ictimai vəziyyət ............................................................ 101
2.5.Dərbənd şəhərinin Rusiya tərəfindən işğalı .................... 118

**YEKUN SÖZ** ........................................................... 125
**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT** ....................................... 132

# ƏLAVƏLƏR

## DƏRBƏND ŞƏHƏRİNİN TARİXİ ABİDƏLƏRİ







**TOFİQ TEYYUB oğlu MUSTAFAZADƏ**

# DƏRBƏND
# XVIII-XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

**Elmi nəşr**

Formatı: 60*84 $^1/_{16}$.
Buraxılışa məsul: **Cəvahir Niftəliyeva.**
Kompüter dizaynı və bədii tərtibat: **Rəvanə Mirzalıyeva.**